ƏQİDƏ KİTABI 1

ƏHLİ SÜNNƏ VƏL CƏMAAT

SƏLƏFİ SALİHİN ƏQİDƏSİ

İ S L A M I N   Ə S A S L A R I

Bu Kitab, Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin 06 Avqust 2008-ci İl Tarixli İcazəsi Əsasında Çap Edilmişdir №DK-96/H

Toplayan Və Tərtib Edən
K. Hüseyn

بسم الله الرحمن الرحيم

إنَّ الحَمْدَ لله ، نَحْمَدُهُ وَنَسْتَعِينُهُ وَنَسْتَغْفِرُهُ، وَنَعوذُ باللهِ مِنْ شُرورِ أنفُسنا ، وَمِنْ سَيِّئاتِ أعمالنا ، مَنْ يَهده اللهُ فلا مُضلَّ لَهُ ، وَمَن يُضلل فَلاَ هادي لَهُ ، وأَشهدُ أَنْ لاَ إِله إلاَّ اللهُ وَحدهُ لاَ شَريكَ لَهُ ، وأَشْهَدُ أَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ.

﴿يا أَيُّها الَّذينَ آمَنُوا اتَّقُوا اللهَ حَقَّ تُقاتِهِ وَلاَ تَمُوتُنَّ إلاَّ وأنتم مُسْلمونَ﴾ سورة آل عمران : الآية ، ١٠٢.

﴿يا أَيُّها النَّاسُ اتَّقُوا رَبَّكُمُ الَّذي خَلَقَكُم مِّن نَفْسٍ وَاحِدَةٍ وَخَلَقَ مِنْها زَوجَها وَبَثَّ مِنهُما رِجَالاً كَثِيراً وَنِسَاءً واتَّقُوا اللهَ الَّذي تَساءَلُونَ بِهِ وَالأَرْحامَ إِنَّ اللهَ كانَ عَلَيكُم رَقيباً﴾ سورة النساء : الآية ، ١.

﴿يا أَيُّها الَّذينَ آمَنُوا اتَّقُوا اللهَ وَقُولُوا قَولاً سَديداً ، يُصلحْ لَكُمْ أعمالَكُمْ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُم وَمَن يُطِعِ اللهَ وَرَسُولَهُ فَقَدْ فَازَ فَوزاً عَظِيماً﴾ سورة الأحزاب : الآية ، ٧١.

أما بعد : فإِنَّ أَصْدَقَ الحديث كلامُ الله ، وخَيرَ الهَدي هَديُ مُحَمَّدٍ – صلَّى اللهُ عليه وعلى آله وسَلَّم – وشرَّ الأُمورِ مُحْدَثَاتُها وكلَّ مُحْدَثَةٍ بِدعةٌ ، وكلَّ بدعةٍ ضلالةٌ ، وكلَّ ضلالةٍ في النَّارِ(*).

(*) هذه الخطبة ؛ تسمَّى : «خطبة الحاجة» وهي تُشرع بين يدي كلِّ حاجة ، والتي كان رسول الله ﷺ يعلِّمها أصحابه ؛ أن يقولوها بين يدي كلامهم ؛ في أمور دينهم سواء كان ؛ خطبة نكاح ، أو جمعة أو محاضرة ، أو غير ذلك ، وهي في : «سنن ابن ماجه» و «سنن الترمذي» و «سنن أبي داود» و «سنن النسائي» ، وورد ذكر طرف من هذه الخطبة في : «صحيح مسلم».

ÖN SÖZ

Xutbətul-Hacə

Həmd ancaq Allahadır, Ona həmd edir, Ondan yardım və məğfirət diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Allaha sığınırıq. Allah kimi hidayətə yönəltmişsə, onu heç kəs azdıra bilməz, kimi də azdırmışsa, heç kəs onu hidayətə yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur. O, təkdir, şəriki də yoxdur və şəhadət edirəm ki, Məhəmməd onun qulu və elçisidir.

«Ey iman gətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda ölün». *(Ali-İmran 102).*

«Ey insanlar! Sizi tək bir şəxsdən *(Adəmdən)* ***xəlq edən, ondan zövcəsini*** *(Həvvanı)* ***yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun****. (Adı ilə)* ***Bir-birinizdən*** *(cürbəcür şeylər)* ***istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən qorxun. Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir».*** *(ən-Nisa 1).*

«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! *(Əgər belə etsəniz)* ***Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə*** *(Cənnətə)* ***nail olar».*** *(əl-Əhzab 70-71)*[1].

Şübhəsiz ki, sözlərin ən doğrusu Allahın kəlamı, yolların ən xeyirlisi Muhəmməd - *sallallahu aleyhi və səlləm* - in yoludur. Əməllərin ən pisi sonradan uydurulanlardır. Sonradan uydurulub dinə salınan hər bir əməl (iş) bir bidətdir, hər bir bidət isə zəlalətdir (sapıqlıqdır), hər bir zəlalət isə oddadır[2].

---

[1] ***Xutbətul-Hacə*** - adı ilə məşhur olan bu duanı, cümə və s. xütbələrdə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* - oxumuşdu. Səhabələrinə də bunu əmr etmiş və özü də onları öyətmişdir. Hədisin ilk hissəini bizə: – Əhməd 1/392-393,432, Əbu Davud 2188, Tirmizi 1105, Nəsəi 3/104-105, 6/69 və «Əməlul Yəum vəl Leyl» 488, İbn Məcə 1892, Darimi 2202, Tayalisi «əl-Musnəd» 1557, AbdurRazzaq «əl-Musənnəf» 10449, Bəzzar «əl-Musnəd» - Kəşful Əstar 1/314, Əbu Yəla «əl-Musnəd» 5233-5234,5257, Tahavi «Şərhul Müşkilil Asar» 1-3, Təbərani «Məcmuul Kəbir» 10/10079-10080, Həkim «əl-Mustədrək» 2744, Beyhəqi «Sünnənul Kubra» 3/214-215, Bəğavi «Şərhus Sunnə» 2268 İbn Məsud - *radıyallahu anhu* – yolu ilə, Müslim «Şərhu Nəvəvi» 6/156-158, Əhməd 1/302,350, Nəsəi 6/89-90, İbn Məcə 1893 və Tahavi «Şərhul Müşkilil Asar» 4 İbn Abbas - *radıyallahu anhu* – yolu ilə, Tahavi «Şərhul Müşkilil Asar» 5, Beyhəqi «Sünnənul Kubra» 3/215 Nubeyt b. Şərit - *radıyallahu anhu* – yolu ilə, Əbu Yəla «əl-Musnəd» 7221, Nəsəi «Sünnənul Kubra» bax: «Tuhfetul Əşraf» 6/472 № 9148 Əbu Musa əl-Əşari - *radıyallahu anhu* – yolu ilə.

[2] ***Hədisin İkinci Hissəsini –*** Müslim «Şərhu Nəvəvi» 6/153-156, Əhməd 3/319,371, Nəsəi 3/188-189, Beyhəqi «Sünnənul Kubra» 3/214 Cabir b. Abdullah - *radıyallahu anhu* – yolu ilə. Bu ləfz Nəsainin ləfzidir. Hədisi Əhməd 3/371 və Müslim: «Sözlərin ən doğrusu» ləfzi yerinə: «Sözlərin ən xeyirlisi» ləfziylə rəvayət edilmişdir. İmam Əhmədin digər rəvayətlərində isə 3/319: «Sözlərin ən gözəli» şəkilindədir. Müslim: «Sonradan uydurulub dinə salınan hər bir əməl (iş) bidətdir» ləfzi yerinə: «Hər bir bidət bir zəlalətdir (sapıqlıqdır)» ləfziylə ravayət etmişdir. Hədisin sonunda olan: «Hər bir zəlalət isə oddadır» ləfzini zikr etməmişdir. Hədis səhihdir. Muhəddis Muhəmməd Nəsrəddin əl-Albani – *rahmətullahi aleyhi* – hədisin bütün rəvayətlərini bir yerə toplayaraq «Xutbətul Həcə» isimli bir kitab

«Ey Rəbbim! köksümü açıb genişlət, işimi yüngülləşdir, dilimdəki düyünü aç ki, sözümü yaxşı anlasınlar». *(Ta ha 25–28).*

Möhtərəm müsəlman bacı və qardaşlarım! İlk öncə hamınızı Allahın salamı ilə salamlayıram. Allahın kitabına və Rəsulullah - *sallallahu aleyhi və səlləm* – in yoluna uyaraq öz risaləmi «***Bismilləh***» ilə başlayıram. Çünkü Allah Rəsulu - *sallallahu aleyhi və səlləm* - də öz məktublarını «***Bismilləh***» ilə başlamış və buyurmuşdu: «Hər mühüm bir işə «***Bismilləh***» ilə başlanılmazsa, o işin sonu kəsikdir»[3].

Allahın bu ümmət üzərindəki nemətlərindən biri də heç şübhəsiz ki, bu ümmətin dinini kamil etmiş olması, bu ümmət üzərindəki nemətini tamamlamış olması və ona İslamı din olaraq seçmiş olmasıdır. Şübhəsiz, Rəsulullah - *sallallahu aleyhi və səlləm* – bu ümməti gecəsi gündüzü kimi aydın olan bir yolun üzərində buraxmamış canını təslim etmədi. Rəsulullah - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizə gecəsi gündüzü kimi tər-təmiz bir yol qoyuram. Bundan sonra kimsə yoldan azmaz. Azanlar isə həlak olurlar»[4]. Belə ki, bu yoldan həlak olandan başqası azmaz. Bu rəhmət Peyğəmbəri, bu ümməti Cənnətə yaxınlaşdıracaq və Cəhənnəm atəşindən uzaqlaşdıracaq xeyir naminə hər nə varsa mütləq onu göstərmiş, nə qədər pislik varsa bu ümməti o, pislikdən çəkindirmişdir.

Allah bizlərə anlaşılmazlığa düşdüyümüz məsələlərdə bu anlaşılmazlığı Allah və Rəsuluna buraxmağımızı tövsiyə edir. ***«Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərinə həvalə edin! Bu daha xeyirli və nəticə etibarı ilə daha yaxşıdır».*** *(ən-Nisa 59).*

Lakin bütün bunlara baxmayaraq günümüzdəki İslam ümməti, müsəlmanların ayrılığa düşməsi, firqə-firqə bölünməsi bu risalənin yazılmasına səbəb oldu. Bu cəmaat və firqələrin hər biri öz əqidəsinə və yollarına çağırmaqla insanları çaşqınlığa salmış, artıq insanların kimin ardınca gedəcək, kimin dediklərinə inanacaq çaşqınlığında qalmışlar.

Allaha şükürlər olsun ki, bu ümmətdə xeyir olub və bu xeyir əsla tükənmə-yəcəkdir. Qiyamətin qopacağı vaxta qədər bu ümmətin hidayət və haqqa sarılan, azı dişləri ilə ondan yapışan bir qism cəmaat olacaqdır. Səvban – *radıyallahu anhu* – dən gələn rəvayətdə Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurur: «Ümmətimdən bir qrup insanlar olacaq ki, Qiyamətin qopacağı vaxta qədər haqq üzrə gedəcəklər. Heç nə və heç kim

---

yazmışdır. İstəyənlər bu kitaba baxa bilərlər. Ayrıca bax: əl-Albani «Muxtəsər Səhih Müslim» 409, «Mişkətul məsabih» 3149,5860.

[3] Əbu Davud.

[4] İmam Əhməd «Musnəd».

onlara zərər vura bilməyəcək. Allahın əmri gəlincəyə qədər»[5]. Bu cəmaat Firqətun Nəciyə – qurtuluşa çatan firqə, Əhli Sünnə vəl Cəmaat, Sələfi-Salihin, Əhli Hədis və s. deyə adlandırılmışdır. Onlar isə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in və əshabələrin izləmiş olduğu yolu davam etdirən kimsələrdir. Əbu Nəcih əl-İrbad b. Səriyə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – bizimlə elə bir tərzdə danışdı ki, qəlblərimiz titrədi, gözlərimiz yaşla doldu. Biz dedik: «Ey Allahın Rəsulu, bu vidalaşan bir kişinin öyüdünə oxşayır, bizə vəsiyyət et». Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mən sizə uca və böyük olan Allahdan haqq təqvası ilə qorxmağınızı, başınıza Həbəşı bir kölə əmir olaraq təyin edilərsə, onu dinləyib itaət etməyinizi tövsiyə edirəm. Şübhəsiz ki, aranızdan (uzun bir ömür) yaşayacaq olanlar bir çox ayrılıqlar görəcəklər. Mən sizə mənim sünnətimə və hidayətdə olan Rəşidi xəlifələrin sünnəsinə sarılmağınızı tövsiyə edirəm. Ona möhkəm sarılın, arxa dişlərinizlə ondan yapışın. Sonradan uydurulan işlərdən uzaq durun. Çünkü sonradan uydurulan hər bir şey bir bidət, hər bir bidət isə zəlalətdir»[6].

Allah bu ümməti firqələr arasında ***Vasat*** – olduğunu, həmçinin də bu ümməti əvvəlki ümmətlər arasında da ***Vasat*** – olduğunu bildirməkdədir. ***«Beləliklə də, sizi vasat bir ümmət etdik ki, insanların əməllərinə şahid olasınız».*** *(əl-Bəqərə 143).* ***Vasat*** – ədalətli, xeyirli kimsələr mənasındadır. Əbu Səid əl-Xudri - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü Nuh çağırılacaq. O, buyur, ya Rəbbim, əmrinə hazıram» deyəcək. Allah ona: «Təbliğ etdinmi?» deyə soruşacaq. O, da: «Bəli, ya Rəbbim!» deyəcək. Allah bu dəfə onun ümmətinə buyuracaq: «Sizə təbliğ etdimi?» Onlar: «Bizə heç kim təbliğ etmədi» deyəcəklər. Bu dəfə Allah ona: «Sənin lehinə kim şahidlik edə bilər?» deyə soruşacaq. O, da: «Muhəmməd və onun ümməti» deyəcək. Onun təbliğ etdiyinə şahidlik edəcəklər. Rəsulullah da ona qarşı şahid olacaq. Allah buyuracaq: «Beləcə sizi vasat bir ümmət etdik ki, insanlara qarşı şahid olasınız»[7].

O, halda bu ümmət zərər verən, sapmış ümmətlər ilə həlaka aparan qüsurlu yollara meyl etmiş firqələr arasında vasat bir ümmətdir. Onlar Sıratal-Mustəqimdən sapmış ümmətin bidətçi firqələri arasında orta yolu tutmuş vasat olanlardır. Auf b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Yəhudilər yetmiş bir

[5] Buxari, Müslim.
[6] Əbu Davud 4607, Tirmizi 2676.
[7] Buxari 4487, İbn Həcər «Fəthul Bəri» 8/172.

firqəyə bölünəcəklər, onlardan yalnız biri Cənnətə qalanları isə Cəhənnəmə düşəcəkdir. Xristianlar yetmiş iki firqəyə bölünəcəklər, onlardan yalnız biri Cənnətə qalanları isə Cəhənnəmə düşəcəkdir. Qəlbim əlində olan Allaha and olsun ki, mənim ümmətim yetmiş üç firqəyə bölünəcəkdir, onlardan yalnız biri - Cənnətə, qalanları isə Cəhənnəmə düşəcəkdir»[8]. İbn Ömər - *radıyallahu anhu* – nun rəvayətində isə səhabələr Cənnətə düşən firqə haqqında soruşdular. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Onlar mənim və səhabələrimin yolu ilə gedənlərdir»[9]. Başqa rəvayətdə Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «O da cəmaatdır»[10].

***Sünnə* -** Rəsulullah – *sallallahu aleyhi və səlləm* – in yoludur. ***Cəmaat* –** da müsəlman bir toplum, cəmaatdır. Bunlar əshabələr, tabiin və Qiyamətə qədər gözəl bir şəkildə onlara tabe olanlardır. Onlara tabe olmaq bir hidayət, onlara müxalif olmaq isə bir sapmaqdır. Bu batiniyyə firqələrin yoluna uymamaq, onların ardınca getməmək üçün, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – in yoluna uymaq, hidayət yolunda olan cəmaatdan olmaq üçün hər bir müsəlman, hər bir şəxs öz əqidəsini gözəl bir şəkildə öyrənməli, öyrəndikdən sonra isə ona əməl etməlidir.

Bu baxımdan da mən bu risaləni topladım. Bu risaləni toplamaq üçün Quran və Sünnəyə uyaraq və İslamın elm adamlarının əsərlərindən geniş istifadə edərək Allahın izni ilə əlimizdəki bu risalənin toplanmasına nail oldum. Bu risalədə: «İslamın əsaslarından», «***Lə İləhə İlləllah***»-ın şərtləri haqqında və «Tövhidin növləri» haqqında geniş yer verməyə və hər oxucu ondan faydalansın deyə aydın, dəlillərlə göstərməyə çalışdım. İlk növbədə Allahdan bu çalışmamın dolğun, düzgün şəkildə yazıb başa çatdırılmasını diləyirəm. Allahdan əməlimi onun üçün ixlaslı olmasını, məndən qəbul edib onunla müsəlmanları faydalandırmasını diləyirəm. Əgər hardasa xəta etmişəmsə bu nəfsimdən və şeytandandır. Burada düzəldilməsi mühüm olan yerləri tapdıqdan sonra mənə öyüd-nəsihət verməkdən çəkinməyəcəyinizi ümid edirəm.

Güvəndiyim Allahdır, işlərimi Ona həvalə edirəm və Ona arxalanıram. Həmd və nemət yalnız Onadır. Müvəffəqiyyət bəxş edən və xətalardan qoruyan da Odur. ***«Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirdən də, içirdən də Odur! Xəstələndiyim zaman mənə yalnız O şəfa verir. Məni öldürəcək, sonra dirildəcək də Odur və Qiyamət günü xətamı bağışlayacağına ümid etdiyim də Odur! Ey Rəbbim! Mənə***

[8] İbn Məcə.
[9] Tirmizi, əl-Albani «Səhih Hədislər Silsiləsi» 1348.
[10] İmam Əhməd «Musnəd» 4/102, əl-Albani «Ziləlul Cənnə».

hikmət bəxş et və məni salehlərə qovuşdur! Sonra gələnlər arasında mənə yaxşı ad qismət et! Məni Nəim Cənnətlərinin varislərindən et». *(əş-Şuəra 78-85).*

Allahın salat və salamı onun Peyğəmbəri Muhəmməd - *sallallahu aleyhi və səlləm* - ə, onun ailə üzvlərinə, səhabələrinə və Qiyamətə qədər onun yolu ilə gedən saleh möminlərin üzərinə olsun.

ƏHLİ SÜNNƏ VƏL CƏMAAT SƏLƏFİ SALİHİN

Əqidə – Əqd sözündəndir. Bağlamaq, yaxşı bağlamaq, düyün vurmaq deməkdir. İnsanın qəlbində kəsin olaraq qəbul etdiyi şey istər haqq, istər batil olsun əqidədir. ***İstilahi Mənası*** – Əqidə insanın heç bir şəkk-şübhə və tərəddüd olmayaraq kəsin olaraq inanması deməkdir. Əgər bir inanc yəqinlik dərəcəsinə çatmazsa ona əqidə deyilməz[11]. İslam əqidəsi deyildiyi zaman Əhli Sünnə vəl Cəmaatın əqidəsi başa düşülür. Çünki Allahın qulları üçün bəyənib seçdiyi İslam budur. Peyğəmbər - *sallallahu aleyhi və səlləm -,* Səhabə, Tabiin və onlara gözəl bir şəkildə tabe olanların yoludur.

Sələf **–** keçən, keçib gedən, keçmiş deməkdir. Keçmiş cəmaatdır. ***«…Və onları sonradan gələnlər üçün sələf*** *(keçmiş)* ***və ibrət dərsi etdik».****(əz-Zuxruf 56).* Yaşca və fəzilətcə sizdən böyük olan ata və babalarınız sizin sələfinizdir[12]. Buna görə də ilk müsəlmanlara Sələfi Salihin adı verilmişdir. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* - Səhabəsi və gözəl bir şəkildə onlara tabe olanlar bu ümmətin sələfidirlər. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in səhabələrinin və onlara gözəl bir şəkildə uyanların dəvət etdiyi şeylərə dəvət edən hər bir kəs də sələfi yolu üzərindədir. İmanlarındakı sədaqətləri və ibadətlərindəki ixlasları ilə onlar uyulmağa ən layiq insanlardır ki, Allah İslam məsajını bütün yer üzünə təbliği üçün onları seçmişdir. Sələfi Salihə uyan və onların metodunu (Quran və Sünnəni) təqib edən digər müsəlmanlar da sələfə nisbət olaraq sələfi deyilir. Quran və Sünnə ilə yaşayan hər bir kəs sələfə tabe olan kimsədir. İstər zaman və məkan etibarı ilə onun ilə onlar arasında uzun bir müddət olsun. Onlara müxalif olan isə onlar arasında yaşamış olsa da belə onlardan deyildir. ***«Hər kəs özünə doğru yol aşkar olandan sonra Peyğəmbərdən üz döndərib möminlərdən qeyrisinin yoluna uyarsa, onu***

[11] «Lisanul Ərab», «Kamusul Muhit», «Mucəmul Vəsit» ayn, kəf, dəl maddəsi.
[12] «Lisanul Ərab», «Kamusul Muhit» sin, ləm, fə maddəsinə bax.

istədiyi *(özünün yönəldiyi)* ***yola yönəldər və Cəhənnəmə varid edərik. Ora necə də pis yerdir».*** *(ən-Nisa 115).*

Sələfi Salihin əvvəli Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – dir. ***«Məhəmməd Allahın Peyğəmbəri. Onunla birlikdə olanlar*** *(möminlər)* ***kafirlərə qarşı sərt, bir-birinə*** *(öz aralarında)* ***isə mərhəmətlidirlər».*** *(əl-Fəth 29).*

Allah, ona itaət ilə Rəsuluna itaəti bir yerdə qeyd edərək buyurur: ***«Allaha və Peyğəmbərə itaət edənlər*** *(axirətdə)* ***Allahın nemətlər verdiyi Nəbilər*** *(Peyğəmbərlər)* ***siddiqlər*** *(təmamilə doğru danışanlar, etiqadı dürüst, Peyğəmbəri hamıdan əvvəl təsdiq edən şəxslər)****, şəhidlər və salehlərlə*** *(yaxşı əməl sahibləriylə)* ***bir yerdə olacaqlar. Onlar isə necə də gözəl yoldaşlardır».*** *(ən-Nisa 69).*

Allah, Rəsuluna itaəti ona itaət olaraq adlandırmış və buyurmuşdu: ***«Peyğəmbərə itaət edən şəxs, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə, biz ki, səni onların üzərində gözətçi olmağa göndərməmişik».****(ən-Nisa 80).*

Allah, Rəsuluna itaət etməməyi əməllərin boşa çıxartmaq olduğunu qeyd edərək buyurur: ***«Ey iman gətirənlər! Allaha itaət edin, Rəsuluna itaət edin və əməllərinizi boşa çıxartmayın».*** *(Məhəmməd 33).*

Allah bizlərə Rəsulunun əmrlərinə mıxalif olmamağımızı qadağan edərək buyurur: ***«Hər kəs Allaha və Peyğəmbərinə itaət etməyib onun sərhədlərini aşarsa, Allah da onu həmişəlik Cəhənnəmə daxil edər. Onu rüsvayedici əzab gözləyir».*** *(ən-Nisa 14).*

Allah bizlərə Peyğəmbərinin bizə əmr etdiklərini yerinə yetirməyimizi və qadağan etdiklərindən çəkinməyimizi əmr edərək buyurur: ***«Peyğəmbər sizə nə verirsə onu götürün, nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir».*** *(əl-Həşr 7).*

Allah bizlərə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – i həyatımızın bütün xüsuslarında hakim təyin etməyimizi əmr edərək buyurur: ***«Amma xeyr! Sənin Allahına and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə iman gətirmiş olmazlar».*** *(ən-Nisa 65).*

Allah ona olan sevgini Rəsuluna itaət ilə bağlayaraq buyurur: ***De ki: «Əgər Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayan və mərhəmətlidir».*** *(Ali İmran 31).*

Buna görə də Peyğəmbər, Səhabə və Tabiinlərə uymaq daha doğru, nəticə etibarı ilə daha xeyirlidir. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurur: «İnsanların ən xeyirliləri mənim əsrimdəkilərdir. Sonra onların ardınca gələnlər, sonra yenə onların ardınca gələnlər»[13].

Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – dən sonra sələfin ən xeyirlisi sidq və ixlas üzərə dini Rəsulullah - *sallallahu aleyhi və səlləm* – dən öyrənən Səhabəi Kiramdır. ***«Möminlər arasında elələri də vardır ki, Allahla etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi*** *(bu yolda)* ***şəhid olmuş, kimisi də*** *(şəhid olmasını)* ***gözləyir. Onlar*** *(verdikləri sözü)* ***əsla dəyişməzlər».*** *(əl-Əhzab 23).* ***«****(İslamı)* ***ilk əvvəl qəbul edib*** *(başqalarını bu işdə)* ***qabaqlayan mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar. Allah onlar üçün əbədi qalacaqlar, altından çaylar axan Cənnətlər hazırlamışdır. Bu ən böyük qurtuluş və uğurdur»****(ət-Tövbə 100).*

Sələf yolu müsəlmanı bir başa olaraq Allah və Rəsulu - *sallallahu aleyhi və səlləm* – ə və onların sevgisinə bağlayır. Çünki sələfi etiqadının qaynağı havadan və insan ağlının qüsurlarından uzaq olaraq, Allah və Rəsulu - *sallallahu aleyhi və səlləm* – in buyurduqlarına dayanır. Bu əqidə olduqca gözəl, başa düşülən və aydın bir əqidədir. Sələf etiqadını mənimsəyən kimsə şəkk-şübhələrdən və şeytanın vəsvəsələrindən uzaqdır. Çünki bu əqidəyə inanan hər bir insan bu ümmətin Peyğəmbərinin, Səhabəi Kiramın göstərdiyi yol üzərində yürüyür.

Sünnə – lüğətdə – ***Sənnəl Əmra*** – bir işi açıqladı deməkdir. Sünnə izlənilən yol və həyat tərzidir[14]. İstilahi mənası - Rəsulullah - *səllallahu aleyhi və səlləm* – in və səhabələrin elm, etiqad, söz, davranış və təqrir (edilən, lakin qadağan olunmayan) xüsuslarda izlədikləri yol deməkdir. Sünnənin ziddi bidətdir.

Cəmaat – bir şeyin parçalarını bir-birinə yaxınlaşdırdım, cəm etdim demək olan ***Əl-Cəm***-dən alınmışdır. Mən onu cəm etdim və s. Cəmaat ictimadan törənmişdir. Ayrılıb dağılmağın və ayrılmağın ziddidir. Cəmaat çoxlu sayda insan və eyni məqsəd ətrafında birləşən insanlar topluluğu deməkdir[15]. Cəmaata bu adın verilməsinin səbəbi cəmaatın ictima kəlməsi ilə eyni mənaya malik olmasıdır. Ziddi təfriqədir. Cəmaat kəlməsi hər nə qədər bir yerə yığılan topluluğun adı olsa da, qeyd etdiyimiz mənaya

[13] Buxari, Müslim.
[14] «Lisanul Ərab» 13/225.
[15] «Mucəmul Vəsit» 1/136.

gəlir[16]. ***İstilahi Mənası*** – müsəlmanların cəmaatı olub, bunlar da səhabələr, tabiin və Qiyamət gününə qədər onlara gözəl bir şəkildə uyan, Kitab və Sünnə ətrafında toplanmış, Rəsulullah - *sallallahu aleyhi və səlləm* – in həm zahirən və həm də batinən getdiyi bu yolu izləyən bu ümmətin sələfi deməkdir. Allah mömin qullarına cəmaat olmaqlarını, bir-biri ilə qaynayıb yardımlaşmalarını əmr etmiş, onlara təfriqəni, ayrılığı və bir-birlərini didmələrini qadağan etmişdi. ***«Hamınız bir yerdə Allahın ipindən möhkəm yapışın, bir-birinizdən ayrılmayın! Allahın sizə verdiyi neməti xatırlayın ki, siz bir-birinizə düşmən ikən o sizin qəlblərinizi birləşdirdi və onun neməti sayəsində bir-birinizə qardaş oldunuz. Siz oddan ibarət olan bir uçurumun kənarında ikən o sizi oradan xilas etdi. Allah öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, bəlkə haqq yola yönəlmiş olasınız».*** *(Ali İmran 103).* ***«Açıq-aydın dəlillər gəldikdən sonra, bir-birindən ayrılan və ixtilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar».*** *(Ali İmran 105).* Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Cəmaata möhkəm bağlanın. Ayrılıqdan çəkinin, çünki şeytan tək qalanla birlikdədir. O, iki nəfərdən uzaqdır. Kim Cənnətin geniş yerini istiyirsə həmən Cəmaata möhkəm sarılsın»[17]. Çünki burada Sünnət bidətin qarşısında, Cəmaat da təfriqənin, ayrılığın qarşısındadır. İbn Abbas - *radıyallahu anhu* – Allahın: ***«Bəzi üzlər ağ, bəzi üzlərin isə qara olacağı gündə….».*** *(Ali İmran 106)* ayəsini təfsir edərkən demişdi: «Əhli Sünnə vəl Cəmaatın üzləri ağaracaq, bidət və təfriqə əhlinin üzləri isə qaralacaq»[18].

İslam ümmətini ilk nəslinin saf və səlim əqidəsi budur. Bu əqidənin qaynağı Kitab, Sünnət, sələf imamlarının sözləridir. Ümmətin ilk nəslinin qəlbləri bu əqidə ilə dirilmişdir. Bu Sələfi Salih, Firqətul Nəciyə, Əhli Hədis, Əhli Sünnə vəl Cəmaat, Dörd İmam və alimlərin bu günə qədər və Qiyamətə qədər onların yolunu təqib edənlərin əqidəsidir. Sonradan gəlib onların sözlərini dəyişdirənlərin yolları sizi aldatmasın. ***«Bu şübhəsiz ki, mənim doğru yolumdur. Onu tutub gedin. Sizi Allahın yolundan sapdıracaq yollara uymayın. Allah bunları sizə tövsiyə etdi ki, bəlkə pis əməllərdən çəkinəsiz».*** *(əl-Ənam 153)*[19].

---

[16] «Məcmuə Fətava» 3/157.

[17] Tirmizi 2165, Həkim «Müstədrək» 1/114, İmam Əhməd «Musnəd» əl-Albani – İbn Əbu Asimin «əs-Sünnə» əsərində səhih olduğunu qeyd edir.

[18] İbn Kəsir «Təfsir» 1/390.

[19] Sələfi Salihin, Əhli Sünnə vəl Cəmaat haqqında geniş məlumata Nasir AbdulKərim əl-Əqlin «Məhfumu Əhli Sünnəti vəl Cəmaat» adlı əsərinə baxa bilərsiniz.

İSLAM

İslam – sözdə ***Əl-İslam, Əl-İstislam*** itaət etmək, bağlanmaq deməkdir[20]. Şəriətdə isə Tövhid ilə Allaha təslim olmaq, itaət ilə boyun əymək, şirkdən və şirk əhli olan müşriklərdən uzaq olmaq deməkdir. ***«Yaxşı əməl sahibi olub özünü Allaha təslim*** *(İslam)* ***edən, İbrahimin hənif***[21] ***millətinə*** *(dininə)* ***tabe olan şəxsdən din etibarilə daha gözəl kim ola bilər».*** *(ən-Nisa 125).* ***«Yalnız ona təslim olub itaət edin».*** *(əl-Həcc 34).* ***«Kim yaxşı əməl sahibi olub özünü Allaha təslim edərsə, o artıq ən möhkəm bağdan yapışmış olur».*** *(Loğman 22).*

Şirkdən uzaq olmaq ondan uzaq olmaq deməkdir. Bu isə şirk əhli olan müşriklərdən uzaq olmaqla olur. ***«İbrahim və onunla birlikdə olanlar sizin üçün gözəl örnəkdir». O zaman onlar öz qövmünə belə demişdilər: «Şübhəsiz bizim sizinlə və sizin Allahdan başqa ibadət etdiklərinizlə heç bir əlaqəmiz yoxdur. Biz sizin dininizi inkar edirik. Siz bir olan Allaha iman*** *(təslim)* ***gətirməyincə bizimlə sizin aranızda həmişə ədavət və nifrət olacaqdır».*** *(əl-Mumtəhinə 4).*

Allahın bütün insanlardan iman etməsini əmr etdiyi İslam, bütün Peyğəmbərlərin də iman etdiyi tək dindir. İtaət və təslimiyyət göstərən isə müsəlman adlanır. ***«Xatırla ki, o zaman həvvarilərə:*** *(İsanın on iki əshabəsinə)* ***«Mənə və Peyğəmbərimə iman gətirin!» deyə əmr etmişdim. Onlar isə: «Bizim müsəlman olmağımıza şahid ol!» deyə cavab vermişdilər.*** *(əl-Maidə 111).* ***Rəbbi İbrahimə: «Təslim ol!» dedikdə, İbrahim də: «Aləmlərin Rəbbinə təslim oldum» - deyə cavab vermişdi.*** *(əl-Bəqərə 131).* ***«****(İbrahim və İsmail)* ***Ey Rəbbimiz! Bizim hər ikimizi sənə itaətkar*** *(müsəlman)****, nəslimizdən yetişənləri sənə təslim*** *(İslam)* ***olan ümmət et».*** *(əl-Bəqərə 128). (Bir zamanlar Nuh belə demişdir)* ***«Mənə müsəlmanlardan olmaq əmr edilmişdir».*** *(Yunus 72).* ***İbrahim və Yəqub bunu öz oğlanlarına vəsiyyət edib: «Ey oğlanlarım, həqiqətən Allah sizin üçün*** *(belə bir)* ***din*** *(İslam dini)* ***seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz».*** *(əl-Bəqərə 132).* ***Musa dedi: «Ey qövmüm! Əgər Allaha iman gətirmisinizsə və müsəlman olmusunuzsa, ona təvəkkül edin».*** *(Yunus 84).*

Ayələrə nəzər saldıqdan sonra görürük ki, Allahın göndərdiyi ilk Rəsuldan düz son Rəsula qədər bütün Peyğəmbərlər Allaha təslim (İslam)

---

[20] «Lisənul-Ərab» 12/293.

[21] ***Hənif*** – haqq üzərində düz yeriyən və ona uyan kimsə deməkdir. Bütün dinlərdən üz çevirərək haqqa yönələn kimsədir. «Lisanul-Ərab» 9/157, «İbn Kəsir təfsir» 1/186-187, «Muhtarus-Sihah» s. 159. Digər bir tərif – şirkdən uzaq olan, Allaha ixlas üzərində bina edilmiş dinin adıdır. «Uç əsas» Seyx Useyminin şərhi ilə.

olmuş və onla-rın dinləri də İslam adlandırılmışdı. Peyğəmbərlərinə tabe olanlar isə onların dövründə müsəlman idilər. Məs: Xristianlar İsa – *əleyhissəlam* - ın dövründə, Yəhudilər Musa – *əleyhissəlam* - ın dövründə müsəlman idilər. Lakin İslam, son Peyğəmbər Məhəmməd - *sallallahu aleyhi və səlləm* - gəldikdən sonra Allah bütün bu dinləri nəsx[22] etmiş və onlar Muhəmməd - *sallallahu aleyhi və səlləm* - i inkar etdiklərinə görə artıq müsəlman deyildilər. Çünki hər bir göndərilən Peyğəmbər öz qövmünü, tayfasını və ya öz dövlətini qorxutmaq (Allahın əzabı ilə) və müjdələmək (Allahın Cənnəti ilə) üçün göndərilmişdir. ***«Biz Peyğəmbərləri müjdə verən və əzabla qorxudan kimi göndərdik ki, daha insanlar üçün Peyğəmbərlərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın. Allah yenilməz qüvvət və hikmət sahibidir».*** *(ən-Nisa 165).*

Muhəmməd - *sallallahu aleyhi və səlləm* - isə bütün bəşəriyyətə göndərilmişdi. ***«Biz səni aləmlərə rəhmət olaraq göndərdik».*** *(əl-Ənbiya 107).* Hədislərə gəlincə Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurmuşdu: «İstər Yəhudi, istər Xristian olsun mənim Peyğəmbərliyim haqqında eşidib və mənə iman etməzsə mütləq Cəhənnəm atəşini dadar»[23]. Buna görə də Yəhudi və Xristianlardan qurtuluş istiyənlər İslama girərək, İslam Peyğəmbəri Muhəmməd - *sallallahu aleyhi və səlləm* – ə tabe olmaq məcburiyyətindədirlər. Ancaq bu şəkildə, Allahın salat və salamı onların üzərinə olsun Musa, İsa və Muhəmməd – *əleyhimussəlam* – a həqiqi şəkildə itaət etmiş olarlar.

Maraqlı burasıdır ki, bu dinin adı nə bir tayfa, nə bir insan, nə də bir dövlət adı ilə bağlıdır. Necə ki, digər dinlərin adlarına nəzər salsaq, Xristianlıq İsa – *əleyhissəlam* - ın adından, İudaizm İuda adlı tayfadan, Buddizm Quatama Budda adlı şəxsin adından, həmçinin Konfusianizm Konfusianın adından, Marksizm Karl Marksın adından götürülmüşdü. Yeganə İslam dinidir ki, bu sadaladıqlarımızdan heç birinə məxsus deyildir. Çünkü bu adı ona Allah vermişdi. ***«Allah dərgahında din, əlbəttə ki, İslamdır».*** *(Ali-İmran 19).*

İslam dinidir ki, Allahın dərgahında qəbul edilən və qəbul edənə fayda verəndir. ***«Kim İslamdan başqa bir din ardınca gedərsə heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar».*** *(Ali-İmran 85).* ***«Necə ola bilər ki, onlar*** *(kitab əhli)* ***Allahın dinindən başqa bir din axtarsınlar? Halbuki, göylərdə və yerdə olanların hamısı istər-istəməz***

---

[22] ***Nəsx*** – lüğətdə nəql etmək, axtarmaq deməkdir. ***İstilahi Mənası*** – şəri bir dəlilin hökmünü yaxud da ləfzini Kitab və Sünnətdən bir dəlil ilə qaldırmaq deməkdir. Hökmü qaldırmaq. «Usuli Fiqh» şeyx Useymin.
[23] Müslim.

***ona** (Allaha) **təslim olmuşlar və onun hüzuruna qayıdacaqlar».** (Ali-İmran 83).*

İslam dinidir ki, Allah onu Muhəmmədə və ümmətinə lütf etmişdir. ***«Bu gün dininizi tamamlayıb mükəmməl etdim, sizə olan nemətimi başa çatdırdım və bir din kimi sizin üçün İslamı bəyənib seçdim».*** *(əl-Maidə 3).*

İslam dininin mərtəbələri, rukunları haqqında bizə (müsəlmanlara) məlumatı Rəsulullah - *sallallahu aleyhi və səlləm* - ın sünnəsində varid olunmuş Cəbrail – *əleyhissəlam* - ın hədisi xəbər verir. Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, bir gün Rəsulullah - *sallallahu aleyhi və səlləm* - in hüzurunda oturmuşduq. Bu vaxt paltarı dümağ, saçları olduqca qara, üzərində səfər əlaməti görünməyən və aramızda heç kimin tanımadığı bir nəfər icəri girib, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in yanında oturdu. İki dizini onun dizlərinə söykəyib, əllərini dizlərinin üstünə qoyaraq dedi: «Ey Muhəmməd! Mənə İslam haqqında xəbər ver?». Rəsulullah: «İslam, Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, Muhəmmədin Allahın Rəsulu olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, Ramazanda oruc tutmaq, Kəbəni imkan olduqda həcc etməkdir». (Adam): Doğru söylədin, dedi. (Ömər) dedi: «Adama heyrət etdik. Həm ona sual verir, həm də onun söylədiklərini təsdiq edirdi». (Yenə) soruşdu: «Mənə İman haqqında xəbər ver?». (Peyğəmbər) buyurdu: «(İman) Allaha, Mələklərinə, Kitablarına, Peyğəmbərlərinə, Axirət gününə və Qədəin xeyir və şərrinində Allahdan olmasına inanmaqdır». (Adam): «Doğru söylədin» dedi. Bu dəfə «Mənə Ehsan haqqında xəbər ver?». (Peyğəmbər) buyurdu: «(Ehsan) Allahı onu görmüş kimi ibadət etməkdir. Lakin sən onu ğörməsən də, o, səni görür». (Adam): «O halda mənə Qiyamət saatı haqqında xəbər ver». Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Soruşulan soruşandan cox bilmir». (Adam): «Onda mənə onun əlamətləri haqqında xəbər ver». (Peyğəmbər) buyurdu: «Qul qadın öz ağasını doğması, ayaq yalın, çılpaq, cobanların hündür bina tikməkdə bir-birləri ilə yarışmaları». (Ömər) dedi: Sonra o adam durub getdi». Bir müddətdən sonra (Peyğəmbər) mənə buyurdu: «Ey Ömər, o sual verənin kim olduğunu bilirsən?» Allah və Rəsulu daha gözəl bilir. (Peyğəmbər) buyurdu: «O, Cəbrayıl – *əleyhissəlam* - idi. Sizə dininizi öyrətməyə gəlmişdi»[24]. Həmçinin Əbu AbdurRəhman b. Ömər b. əl-Xəttab – *radıyallahu anhu* – rəvayət edir ki, mən Rəsulullah - *sallallahu aleyhi və səlləm* - in belə buyurduğunu eşitdim. «İslam beş təməl üzərində bina edilmişdi. Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına və

[24] Buxari, Müslim.

Məhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirmək, namaz qılmaq, zəkat vermək, Beyti həcc etmək və Ramazan ayının orucunu tutmaq»[25]. Bu hədislərdən göründüyü kimi İslam zahiri əməlləri əhatə edir. Şəhadət kəlməsini dil ilə söyləmək dilin əməli, namaz, oruc, həcc bədənin, zəkat isə malın əməlidir. Buna görə də İslam dini üç mərtəbədən ibarətdir.

1. *İslam*. 2. *İman*. 3. *Ehsan*.

Hər bir mərtəbənin də öz rukunları vardır.

İslam haqqında çox geniş danışmaq olar, lakin mən, hörmətli bacı və qardaşlarım, ilk öncə özümə, sonra da sizə İslam dinini gözəl bir şəkildə öyrənməyinizi və bu dindən möhkəm yapışmağınızı tövsiyə edirəm. Çünkü Rəsulullah - *sallallahu aleyhi və səlləm* - bu dində olanların dünya və axirətlərinin xoşbəxt olması ilə bizi müjdələmişdi. Əbu Hureyrə, İbn Ömər – *radıyallahu anhum* – dən gələn rəvayətdə Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurur: «İslam qərib olaraq başladı, başladığı kimi yenə də qəribliyə dönəcəkdir. Xoşbəxtdir o qəriblər»[26]. Başqa rəvayətdə: «Qəriblərə mücdə olsun! Onlar say etibarı ilə pis adamların içərisində olan, saleh kimsələrdir (azlıq təşkil edənlərdir). Onlara qarşı gələnlər, onlara itaət edənlərdən daha çoxdur»[27]. Allah bizi də onlardan etsin.

ŞƏHADƏT

Şəhadət **–** bir şey haqqında bilərək xəbər vermək, onun doğru olduğunu və sabit olduğuna inanmaq deməkdir. İqrar və itaət, qəlb və dil bir-birinə müvafiq olmadıqca şəhadət mötəbər sayılmaz. Çünkü Allah münafiqlərin söylədiklərini: ***«****(Ya Peyğəmbər)* ***Münafiqlər sənin yanına gəldikləri zaman: Biz sənin doğrudan da Allahın Peyğəmbəri olduğuna şəhadət veririk!».*** *(əl-Münafiqun 1).* Onlar bu kəlməni yalnız dilləri ilə söylədikləri üçün Allah onları yalançı adlandırmışdı. ***«Allah da sənin onun həqiqi Peyğəmbəri olduğunu bilir. Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir».*** *(əl-Münafiqun 1)*[28].

Şəhadət kəlməsi özü-özlüyündə onu açıqlayır ki, onu söyləyən hər bir kəs yalnız elmi, yəqinliyi, ixlası və səmimiyyəti əsnasında bu kəlməni söyləmiş olur. Bu xüsusiyyətlərin olamaması şəhadət kəlməsini etibarsız edir. Şəhadət elm üzərində olan bir kəlimədir. Dünyəvi məsələlərdə insan bir şeyə şahidlik etdikdə bildiyi şeyə şahidlik edər. Bilmədiyi bir şeyə şəhadət edərsə bu – Yalançı şəhadət adlanır. Bu şəhadəti insanlar da qəbil

---

[25] Buxari, Müslim.
[26] Müslim.
[27] əl-Albani «Səhihul Cəmius Səğir» 1/12, 3816.
[28] «əl-Əqidətul-Vasitiyyə» İbn Teymiyyə.

etməzlər. Şəhadəti deyən insan Allaha söz verir ki, mən Səndən başqa heç kəsə ibadət etməyəcəyəm. Əgər o, bu sözünə əməl etməzsə: «Ya filankəsin cəddi!», «Ya filankəs!» deyərsə onda bu söz pozular. Şəhadət Kəlimənin fayda verməsi üçün insan iki şeyi bilməlidir.

1. *Şəhadət Veriləni* – Allahı tanımaq. Bu da özü-özlüyündə iki şeyi əhatə edir. 1) Ümumi tanımaq. 2) Təfsilatı ilə tanımaq.

Əşhədu – elmlə deyilən bir sözdür. Bu da bəsirət, göz və xəbərnən əldə edilən bir elmdir. Osman – *raıyallahu anhu* - rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Hər kim Allahdan başqa ibadətə layiq haqq ilah olmadığını bilərək ölərsə Cənnətə girər»[29]. O, dediyi sözün düzgün olması üçün Allahı tanımaq lazımdır. Allah tək olduğuna, bənzəri olmadığına, oxşarının, şərikinin olmadığını bilməlidir. Allah ***Saməddir*** – ehtiyacsız, möhtac deyildir. Allah yeməyə, içməyə, rahatlığa ehtiyacı yoxdur. Bütün məxluqat Allaha möhtacdır. Allaha zəiflik, xəstəlik, yuxu, ölüm və s kimi naqisliklər üz vermir. Allah doğmayıb, doğulmayıb, yoldaşı da yoxdur. Allah aləmlərin Rəbbidir. Bütün mülk onun əlindədir. Əmr etmək də, yaratmaq da ona aiddir. İbn Teymiyyə – *rahmətullahi aleyhi* – bu kəlməni belə izah edir: «***İlah*** – ibadət və itaət olunandır. İlahlaşdırılan da yalnız ibadətə layiq olandır. Çünki o, elə bir xüsusiyyətlərə malikdir ki, istər-istəməz onu yüksək məhəbbətlə sevmək və ona itaət, ibadət etmək qaçınılmazdır. ***Ilah*** – nə ki, sevilir, ibadət edilir və qəlblərin (ürəklərin) ona olan məhəbbətindən ilahlaşdırılır. Ona itaət edirlər və onun qarşısında alçalırlar. Ondan qorxurlar və onu arzulayırlar (istəyirlər). Bəlada ona sarı qaçırlar və mühüm məqamlarda duaları ona yönəldirlər. Ruzi intizarında ona təvəkkül edilir və ondan sığınacaq istənilir. Onun adı zikr olunanda sakitləşirlər və ona olan məhəbbətdən rahatlıq tapırlar. Allahdan başqa ibadətə layiq heç bir haqq ilah yoxdur». Artıq insan bunu bilərsə o, şəhadət dedikdə kimə şəhadət etdiyini bilər. Az da olsa o, Allahı başqa ibadət olunan ilahlardan ayıra bilməlidir. (Görürsən ki, insan ***Lə İləhə İlləllah*** deyir, lakin Allahdan qeyrisindən kömək diləyir, qurban kəsir, nəzir diyir və s. Deməli bu insan hələ də ***Lə İləhə İlləllah*** kəlimənisini başa düşməyib). Az bir bilik ilə onunla əqidəsi düzgün olar, əməli qəbul olar. Bu kəlimə də ondan qəbul olunar. İnsan bu ümumi bilgi ilə İslam dininə daxil olur. Lakin insan bu bilgi ilə kifayətlənməməli. Mütləq o, bilgisini artırmalı və Allahı geniş surətdə tanımalıdır. Allahın İsim və Sifətlərini bilməlidir ki, bununla da imanı artsın.

---

[29] Müslim.

2. Şəhadət Kəliməsinin mənasını bilməli və səndən tələb etdiyi şeyləri bilməlisən. ***«Allah özündən başqa heç bir ilah olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətə boyun qoyaraq o qüvvət və hikmət sahibindən başqa ibadətə layiq heç bir ilah olmadığına şəhadət verdilər».*** *(Ali-İmran 18).* Bu ayədən göründüyü kimi Allah özü haqqında şahidlik etdikdə ki, ondan başqa heç bir haqq ilah yoxdur, Mələklər və Elm sahibləri də şahidlik etdilər. Bu şahidlik ən böyük şəhadətdir. Çünkü şəhadət kəlməsi sayəsində hər bir kəsin malı və qanı qorunmuş, himayə altına alınmış olur. İbn Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına və Muhəmmədin Allahın Rəsulu olduğuna şəhadət edincə, namaz qılınca, zəkat verincəyə qədər insanlarla vuruşmağa əmir olundum. Bunu etdilərmi, öz qanlarını və mallarını məndən qorumuş olurlar. İslamın haqqı ilə olması müstəsna. Haqq-hesablarını çəkmək isə Allaha aiddir»[30].

Şəhadət kəlməsi ilə Allah bizə əmr etdiyi əməlləri qəbul edir, onunla Cənnətə girmək və Cəhənnəmdən qurtarmaq olar. ***«Ayələrimizi yalan hesab edənlərə və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmaz və dəvə iynənin gözündən keçməyənə qədər onlar da Cənnətə daxil ola bilməzlər».*** *(əl-Əraf 40).* Nə qədər günahlar böyük olursa olsun onun səbəbi ilə bağışlanılır.

İlkindən sonuncusuna qədər bütün Peyğəmbərlərin dəvət etdikləri, hətta dəvətlərinin özəyi və işlərinin başı da bu olmuşdu. Son Rəsulumuz Muhəmməd - *sallallahu aleyhi və səlləm* – də Məkkədə 13 il yalnız bu kəlməyə dəvət etmiş və insanlara onun nə qədər mühüm olduğunu açıqlamağa çalışmışdı. *«(Ya Muhəmməd!)* ***Söylə ki, Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin! Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi*** *(özümüzə)* ***Rəbb qəbul etməyək! Əgər onlar yenə də üz döndərərlərsə, o zaman*** *(onlara)* ***deyin: İndi şahid olun ki, biz həqiqətən müsəlmanlarıq.*** *(Allaha təslim olanlarıq)». (Ali-İmran 64).*

LƏ İLƏHƏ İLLƏLLAH - *Allahdan Başqa İbadətə Layiq Haqq İlah Yoxdur* -

Ümumən Allah kitabları – ***Lə İləhə İlləllah*** – görə nazil edib, Peyğəmbərləri – ***Lə İləhə İlləllah*** – görə göndərib, bizim yaradılışımızda – ***Lə İləhə İlləllah*** – görədir, cihadıda - ***Lə İləhə İlləllah*** – görə fərz edib.

[30] Buxari, Müslim.

Əsas da elə budur. Bu kəliməni bilmək və səndən tələb etdiyi şeyləri yerinə yetirmək. Əgər əsas möhkəm və düz olarsa onun üzərində qurulan hər bir şeydə möhkəm və düz olar[31].

Lə Iləhə Illəllah **–** «Allahda başqa ibadət edilməyə layiq heç bir haqq ilah yoxdur» deməkdir. ***«Bil ki, Allahdan başqa ilah yoxdur».*** *(Muhəmməd 19).* ***«Allahdan başqa heç bir ilah yoxdur».*** *(Ali-İmran 2).* Bütün bu ayələrin mənası ibadət edilməyə haqq edən yalnız və yalnız Allahdır. Bu ifadə ilə Allahdan başqa ibadət olunan hər hansı bir ilah rədd edilmuş olur. Allahdan başqa ifadəsi ibadətin yalnız Allaha edilməsi, mülkündə heç bir ortağı olmadığı kimi, ibadətdə də onun hər hansı bir ortağı (şəriki) olmadığıdır.

Lə İləhə İlləllah **-** kəlməsi nəfy[32] və isbatdan ibarətdir. ***Lə İləhə*** **–** ilah yoxdur nəfy, ***İlləllah*** **–** Allahdan başqa isbat etməkdir.

İlah - məbud ibadət ediləndir. Ancaq ilah olan məbuddur. Hər bir kəsin ilahı, ona ibadət etdiyidir. Allahdan başqa ibadət olunan bu ilahlar, ilahdır. Lakin batil ilahlardır. Çünkü bunlar haqq ilah deyillər. ***«Bu belədir. Çünki Allah haqq, müşriklərin ondan başqa ibadət etdikləri*** *(bütlər, tanrılar)* ***isə batildir. Həqiqətən Allah uca və böyükdür».*** *(əl-Həcc 62).* ***«Bu ona görədir ki, Allah haqq,*** *(müşriklərin)* ***ondan qeyri ibadət etdikləri isə batildir».*** *(Loğman 30).*

LƏ İLƏHƏ İLLƏLLAH KƏLİMƏSİNİN ŞƏRTLƏRİ

Lə İləhə İlləllah – kəlməsinin yeddi şərti var. Bu şərtlərin hər birinə əməl olunmadıqca, onların ifadə etdiyi mənaları Quran və Sünnəyə uyğun olaraq dolğun, düzgün başa düşülmədikcə, bu kəlmənin söylənilməsi heç bir kəsə fayda verməyəcəkdir. Vəhb b. Munəbbih – *rahmətullahi aleyhi* – dən: «***Lə İləhə İlləllah*** – cənnətin açarı deyilmidir?» deyə soruşan bir kimsəyə o, belə cavab vermişdir: «Bəli, lakin hər açarın dişləri vardır. Əgər dişli açar gətirərsənsə qapı sənin üzünə açılır. Yox, əgər açarın dişləri olmazsa qapı açılmaz»[33].

Aşağıda qeyd edəcəyimiz bu şərtlər Quran və Sünnəyə uyğun olaraq möhtərəm İslam alimləri tərəfindən qeyd olunmuşdu.

1. *Elm* – cahillikdən uzaq edən.

2. *Yəqinlik* – şübhələri yox edən.

3. *Ixlas* – şırkdən uzaq edən.

[31] Şeyx əl-Albani – *rahmətullahi aleyhi* – deyir ki: «Xəta üzərində bina edilən hər bir şey xətadır».
[32] ***Nəfy*** **-** İnkar etmək.
[33] Buxari «Cənaiz» 1, Əhməd 5/242.

4. ***Məhəbbət*** – nifrətdən uzaq edən.
5. ***Sidq*** – yalanı yox edən.
6. ***Təslim*** – itaətsizliyi yox edən.
7. ***Qəbul*** – inkarı yox edən.

ELM

Bu o, elmdir ki, ***Lə İləhə İlləllah*** **-** kəlməsini dəlillərlə öyrənir və isbat edir. Bu da dil ilə söyləyib qəlb ilə bilməkdir. Onun mənasını, nə qəsd etdiyini, nəyi inkar və nəyi təsdiq etdiyini bilmədən söyləyənə heç bir faydası olmaz. ***«Öyrən bil ki, Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur».*** *(Muhəmməd 19).* ***«Ondan qeyri ibadət etdikləri şəfaət edə bilməzlər. Haqqa şəhadət verənlər müstəsnadır».*** *(əz-Zuxruf 86).* Bu ayənin mənası odur ki, Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına dair şəhadət edərək dillərilə söylədiklərini qəlbləri ilə bilərək təsdiq etməlidirlər. ***«Mən həqiqətən Allaham. Məndən başqa heç bir ilah yoxdur».*** *(Ta ha 14).* Osman – *raıiyallahu anhu* - rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Hər kim Allahdan başqa ibadətə layiq haqq ilah olmadığını bilərək ölərsə Cənnətə girər»[34].

YƏQİNLİK

Bu kəliməni söyləyən kimsə tam mənasıyla bu kəlimənin nə məna kəsb etdiyində yəqin olmalı və heç bir şəkk-şübhəyə düşməməli, bu kəlimə haqqında tam bir bilik və qavrayış sahibi olmalıdır. ***«Möminlər yalnız Allaha və Peyğəmbərinə iman gətirən və iman gətirdikdən sonra heç bir şəkk-şübhəyə düşməyənlərdir. Allah yolunda malları və canları ilə vuruşarlar. Məhz beləlari sadiq olanlardır».*** *(əl-Hucurat 15).* Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Mən şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur və mən onun elçisiyəm. Kim bu iki şəhadətə şübhə etmədən Allahın hüzuruna gedərsə o, qul Cənnətə girər»[35].

İXLAS

Əməllərini şirkdən təmizləmək, şirkə yer verilməyən bir ixlasa sahib olmaq. ***«Bil ki, xalis din yalnız Allaha məxsusdur».*** *(əz-Zumər 3).* ***«Halbuki, onlara əmr edilmişdir ki, Allaha dini yalnız ona məxsus edərək, digər bütün batil dinlərdən İslama dönərək ibadət etsinlər.***

[34] Müslim 26.
[35] Müslim 27.

Namaz qılıb, zəkat versinlər. Doğru-düzgün din budur». *(əl-Bəyyinə 5).* Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Qiyamət günü mənim şəfaətimlə ən xoşbəxt insan o kəsdir ki, qəlbində ixlas ilə ***Lə İləhə İlləllah*** - kəlməsini deyəndir»[36]. Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - mənə buyurdu: «Bu divarın arxasında qəlbindən iman ilə Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına şəhadət edən hər kiminlə qarşılaşsan onu Cənnət ilə müjdələ»[37].

SİDQ

Bu kəlməyə sadiq olmaq. Bu kəlməni qəlbdən gələn doğruluqla dilin söylədiklərini qəlb ilə təsdiq edərək söyləmək. ***«İnsanlar yalnız iman gətirdik deməkləri ilə onlardan əl çəkib imtahan olunmayacaqlarınımı sanırlar? Biz onlardan əvvəlkiləri də imtahana çəkmişdik. Şübhəsiz ki, Allah düz danışanları da yalançıları da çox gözəl tanıyır».*** *(əl-Ənkəbut 2-3).* ***«Haqqı gətirən və onu təsdiq edənlər isə əsl müttəqilərdir».*** *(əz-Zumər 33).* Peyğəmbər - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Qəlbindən doğruluq və səmimiyyət ilə Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, Muhəmmədin Allahın Rəsulu olduğuna şəhadət gətirən hər kəsə Allah Cəhənnəm odunu haram edər»[38].

MƏHƏBBƏT

Bu kəlməyə məhəbbətlə bağlanmaq. Bu kəlmənin daşıdığı, gətirdiyi hər bir şeyi sevmək və bu kəlməni söyləyənləri – Muvahhidləri sevmək. ***«İnsanların içərisində Allahdan qeyrilərini Allaha şərik qoşub Allahı sevən kimi sevənlər də var. Halbuki, iman gətirənlərin Allaha olan məhəbbəti daha qüvvətlidir».*** *(əl-Bəqərə 165).* ***Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə Allah onun yerinə elə bir tayfa gətirər ki, Allah onları, onlar da Allahı sevərlər. Onlar möminlərə qarşı mülayim kafirlərə qarşı sərt olarlar. Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu Allahın lütfüdür, onu istədiyinə verər».*** *(əl-Maidə 54).* Ənəs – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Üç şey var ki, sizlərdən kimdə olarsa o, imanın şirinliyini dadar. Allah və Rəsulunu hər şeydən çox sevmək, Allah rizası üçün bir-birinizi sevmək (sevdiyini ylnız Allah üçün sevən), Allahın küfrdən xilas etdiyi və sonra küfrə qayıtmaqdan oda

---

[36] Buxari 99.
[37] Müslim 31.
[38] Buxari 128, Müslim 32.

atılmış kimi qorxan (şəxs)»[39]. ***«Ey iman gətirənlər! Yəhudi və Xaçpərəstləri özünüzə dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizdən kim onlarla dostluq edərsə, o da onlardandır. Allah zalim tayfanı düz yola yonəltməz! Sizin vəliniz** (dostunuz) **ancaq Allah, onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, boyun əyərək namaz qılar və zəkat verərlər».*** *(əl-Maidə 51-55).* ***Ey iman edənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün tutarlarsa, onları özünüzə dost bilməyin. Sizlərdən onları dost tutanlar özlərinə zülm etmiş olarlar».*** *(ət-Tövbə 23).* ***«Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost tutun».*** *(əl-Mumtəhinə 1).*

TƏSLİM

Lə İləhə İlləllah - kəliməsinə boyun əymək. Allahın qoyduğu bütün qayda–qanunlara, şəriət və sünnəyə əməl etmək. ***«Kim yaxşı əməl sahibi olub özünü Allaha təslim edərsə o, artıq ən möhkəm bağdan yapışmış olur. Bütün işlərin axırı Allaha gəlib çatacaqdır».*** *(Loğman 22).* ***«Tövbə edib Rəbbinizə dönün. Əzab sizə gəlməmişdən əvvəl ona təslim olun. Sonra sizə heç bir kömək olunmaz».*** *(əz-Zumər 54).* Peyğəmbər - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Sizdən heç bir kimsənin nəfsi-istəyi mənim gətirdiyimə tabe olmadıqca iman etmiş olmaz»[40].

QƏBUL

Bu kəlimənin gətirdiyi hər bir şeyi qəbul edəcək, inkara əsla yol verməmək, Allaha ibadət etmək və şirki inkaretməkdir. ***«Onlara Allahdan başqa heç bir ilah yoxdur deyildiyi zaman təkəbbür göstərirdilər».*** *(əs-Saffət 35).*

Bu sadaladığımız şərtlər ***Lə Iləhə Illəllah*** kəlməsinin ayrılmaz bir hissəsidir. Bu şərtlər üzərində düşünüb fikirləşmək, onlara lazımı qaydada əməl etmək isə sizin üzərinizə düşən bir haqdır. Çünki biz dünya və axirətimizi yalnız bu kəlməni öyrənib, ona düzgün əməl etməklə xoşbəxt və firavan edə bilərik. Ubədətu b. Samit – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Kim şəhadət etsə ki, Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur, Muhəmməd onun qulu və Rəsuludur, İsa – *əleyhissəlam* - onun qulu və Rəsuludur, Məryəmə

[39] Buxari 16, Müslim 43.
[40] İbn Həcər «Fəthul Bəri» 13/289, İbn Rəcəb «Cəmiul Ulumi vəl Hikəm» s. 338, İbn Əbi Asim «əs-Sünnə» 1/12,13.

dediyi söz və Ondan gəlmə bir ruhdur[41], Cənnət haqq, Cəhənnəm haqqdır, Allah o insanı əməlindən asılı olmayaraq (və ya olaraq) Cənnətə salar». Başqa rəvayətdə Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurur: «Cənnətin hansı qapısından istərsə, onu oradan içəri salar»[42]. Əbu Səid əl-Xudri – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Musa – *əleyhissəlam* - öz Rəbbinə buyurdu: «Ey Rəbbim! Mənə elə bir kəlmə öyrət ki, səni onunla yada salım və dua edim». Allah buyurdu: «Ya Musa! De: «***Lə İləhə İlləllah***». Musa – *əleyhissəlam* - buyurdu: «Ya Rəbbim! Axı sənin bütün qulların bu kəlməni deyir». Allah buyurdu: «Ya Musa! Əgər yeddi qat göyü və yeddi qat yeri və məndən başqa orada olanları tərəzinin bir gözünə, ***Lə İləhə İlləllah*** kəlməsini tərəzinin digər bir gözünə qoysalar bu kəlmə ağır gələr»[43]. Rəsulullah - *sallallahu aleyhi və səlləm* – buyurur: «Qiyamət günü mənim ümmətimdən bir nəfəri bütün insanların qarşısında çağıracaqlar. Onun qarşısına günahlarla dolu doxsan doqquz kitab qoyulacaq. Hər birinin uzunluğu gözün son görmə həddi qədər olacaqdır». Sonra ondan soruşacaqlar. «Sən bunlardan hansınısa inkar edirsənmi? Əməlləri yazan mələklər sənə zülm etdilərmi?». Qul: «Yox, Ya Rəbbim!» deyəcəkdir. Allah buyuracaq: «Səndə bunlara qarşı bir yaxşı əməl varmı?». Həmən şəxs qorxudan özünü itirərək: «Yox, Ya Rəbbim!» deyəcəkdir. Ona deyiləcək: «Bizdə sənin bir yaxşı əməlin vardır. Bu əməlinə görə bu gün sənə əsla zülm olunmayacaqdır». Onun qarşısına «Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına və Muhəmmədin Allahın qulu və Rəsulu olduğuna şəhadət edirəm» kəlməsi yazılmış vərəqə çıxarılacaqdır. Həmən qul deyəcəkdir: «Ya Rəbbim! Bu vərəq bu qədər günahların qarşısında nə gücə malikdir». Allah: «Bu gün sənə əsla zülm olunmayacaqdır». Günahları tərəzinin bir gözünə, həmən vərəqi isə tərəzinin o biri gözünə qoyacaqlar. Vərəqə olan tərəzi ağır gələcəkdir. Rəhman və Rəhim olan Allahın adı qarşısında heç bir şey ağır gəlməz»[44]. Əbu Məlik – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* – buyrdu: «***Lə İləhə İlləllah*** deyib Allahdan başqa ibadət

---

[41] ***Məryəmə Dediyi Söz*** – Allah İsa – *əleyhissəlam* – ı sözlə yaratdı. Hansı ki, Cəbrail – *əleyhissəlam* - ilə göndərmişdir. İsa – *əleyhissəlam* – ın ruhunu. İsa – *əleyhissəlam* - özü Allahın kəlamından deyildir. Allah buyurur: «***Ol!***» və o, olur. İmam Əhməd – *rahmatullahi aleyhi* – deyir ki: «İsa – *əleyhissəlam* – «***Ol!***» sözündən yaranmışdır. Allah buyurur: «***Ol!***» və İsa – *əleyhissəlam* – da oldu. ***Ondan Gəlmə Ruhdur*** – isa ruhu idi. Necə ki, Allahın yaratmış olduğu digər məxluqların ruhları kimi. ***«Allah yanında İsa da Adəm kimidir. Allah onu torpaqdan yaratdı. Sonra ona «OL!» dedi. O, da oldu».*** *(Ali İmran 59).*

[42] Buxari, Müslim.

[43] İbn Hibban 2324, əl-Həkim 1/528 səhih demiş, əz-Zəhəbi də razılaşmışdır.

[44] Tirmizi 2639, 2641, İbn Məcə 4300, Əhməd 4/213, əl-Həkim 1/5,6, 213.

olunan hər bir şeyi inkar edən insanın canına, malına qəsd etmək haramdır. Onunla haqq hesabı Allah özü çəkəcəkdir»[45].

TÖVHİD

Allah – *subhənəhu və təalə* - hər bir şeydə birdir. Zatında, əməlində, İsim və Sifətlərində də. İbadət edilməyə layiq olub, bu xüsusda tək haqq sahibi olmaqda da birdir. Bu sayılanların heç birində ortağı (şəriki[46]) yoxdur. Həmçinin yaratmaqda da, əmr etməkdə də, öldürməkdə də, diriltməkdə də, ruzi verməkdə də, xəstəlik göndərən və şəfa verməkdə də ortağı (şəriki) yoxdur. ***«Həqiqətən Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşə yüksələn, sürətlə təqib edən, gündüzü gecə ilə örtüb bürüyən, günəşi, ayı və ulduzları əmrinə tabe edərək yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər uca və böyükdür».*** *(əl-Əraf 54).* ***«Ey insanlar! Allahın sizə olan nemətini yada salın. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı? Ondan başqa heç bir ilah yoxdur. Elə isə necə döndərilirsiniz?».*** *(Fatir 3).*

Tövhid – sözünün mənası bir şeyi bir etmək, birləmək deməkdir. ***Tövhidi Əfkar*** – etməliyik deyildiyi zaman, fikirlərin bir və tək qılınması, hər başdan çıxan ayrı-ayrı səslərin, fikirlərin bir nöqtədə birləşdirilməsi istənmiş olur. Lakin bir şeyi bir və tək qılmaq bu ancaq nəfy və isbatla olur[47]. İbn Mənzur – *rahmatullahi aleyhi* – deyir ki: «Tövhid - Allahın hər baxımdan bir və tək olduğuna, heç bir ortağı olmadığına inanmaqdır. Allah ***Vahid*** və ***Əhəddir***. Vəhdəniyyət və təvahhud sahibidir. «Allah ***Vahiddir***» – demək, «Allah heç bir bənzəri və ortağı olmayan bir Zatdır, tək və birdir» deməkdir[48]. əl Bəycuri – *rahmatullahi aleyhi* – deyir ki: «Lüğət etibarıyla Tövhid kəliməsinin mənası bir şeyin bir və tək olduğunu bilməkdir»[49]. Şeyx AbdurRahman Qasım – *rahmatullahi aleyhi* – deyir ki: «Tövhid kəliməsi ***Vahəddəhu, Yuvəhhiduhu*** tövhidin məsdəri olan bir kəlimədir ki, Onu bir və tək qıldı mənasına gəlir. Həmçinin də Onun bir və tək olduğunu söylədi mənasını alır»[50]. Şeyx AbdulAziz b. Baz – *rahmatullahi aleyhi* – deyir ki: «Tövhid – ***Vahhadə, Yuvahhidu*** - nun məsdəridir. Allahın bir və tək olduğunu qəbul etdi, Allahın Uluhiyyət və Rububiyyət, İsim və Sifətlərində bənzərsiz və ortağsız olduğuna, ibadətin

---

[45] Müslim 23.
[46] ***Şərik*** – bir şeydə hissəsi olan kimsədir.
[47] «Tövhidi Əvvələn» s. 15.
[48] «Lisanul Arab» 3/450 Vəhhadə maddəsi.
[49] «Cəvharətud Tövhid» s. 10
[50] «Haşiyətu Kitabi Tövhid» s. 11.

yalnız Allaha olacağına iman etdi, kimsə Onu tövhid etməsə belə, Onun zatında və hər baxımdan Bir, Uca və Ulu olduğuna etiqad etdi mənasını verir»[51]. Şeyx Muhəmməd əl-Useymin – *rahmatullahi aleyhi* – deyir ki: «***Tövhid* – *Vahhadə*** - nin məsdəridir. ***Tövhid*** etdi deyildiyi zaman bir şeyin birləndiyi başa düşülür. Ancaq bu isbat və nəfy olmadan olmaz»[52].

Termin olaraq ***Tövhid* –** yalnızca uca və böyük olan Allaha ibadət etmək deməkdir. Yəni ona heç bir şeyi ortaq (şərik) qoşmayaraq nə bir rəsul, nə bir peyğəmbər, nə bir mələk, nə bir cinn, nə bir hakim, nə bir övliya, nə bir seyyid, nə bir daş, ağac, dəmir, nə də yaradılmışlardan hər hansı bir şeyi ona – Allaha ortaq (şərik) qoşmayaraq bir və tək olaraq ona ibadət etmək deməkdir. Sevərək, təzim edərək, mükafatını umaraq, cəzasından qorxaraq yalnızca Allaha qulluq etmək, ibadətə sadəcə onu layiq görməkdir. İsbəhani – *rahmatullahi aleyhi* – deyir ki: «Bəzi alimlərimiz ***Tövhid* –** Vahiddən təşbihi rədd etməkdir» deyə açıqlamışlar. Bəziləri də: «***Tövhid* –** Birlənən Vahiddən və Onun sifətlərindən təşbihi nəfy etməkdir» demişlər. Bəziləri də: «Mütləq bir və tək olduğuna inanılan Zatın heç bir ortağı və bənzəri olmadığını bilib qəbul etməkdir. Kimsə bunu belə bilməzsə Allahı birləmiş olmaz, Onu tövhid etmiş olmaz» deyə açıqlamışlar[53]. Şeyxulislam b. Teymiyyə – *rahmatullahi aleyhi* – deyir ki: «***Tövhid* -** Allahı bir və bənzəri olmayan bir zat olaraq bilib yalnız və yalnız Ona ibadət etməkdir. Ondan başqa heç bir Rəbb yoxdur inancı da bura daxildir»[54]. Şeyx Muhəmməd b. AbdulVəhhab – *rahmatullahi aleyhi* – deyir ki: «Biləsən ki, ***Tövhid* -** Allahı ancaq Ona ibadət etmək (Ona tapınmaq) surətiylə birləməkdir»[55]. Şeyx Muhəmməd b. AbdulVəhhab – *rahmatullahi aleyhi* – deyir ki: «***Tövhid* –** Allaha ibadət etmək və Onu, O və Rəsulu necə vəsfləndirmişsə o, cür də vəsfləndirmək. O, və Rəsulu Onu ayıb və nöqsanlardan və yaradılmışlara bənzəməkdən necə uzaq etmişsə eləcə də uzaq etməkdir»[56]. Allama əl-Bəycuri – *rahmatullahi aleyhi* – deyir ki: «***Tövhid* –** Məbudun zatı, sifətləri və felləri baxımından bir və tək olduğuna kəsin bir şəkildə inanmaqla birlikdə, yalnız və yalnız Allaha ibadət etməkdir»[57]. İmam AbdulAziz b. Baz – *rahmatullahi aleyhi* – deyir ki: «Allahı ***Tövhid*** etmək Onun bir və tək olduğuna inanıb, qəlbi bu inanca sımsıxı bağlamaq ilə bərabər, ibadətdə də Onu birləmək və tək

[51] «Məcmuu Fətava» 1/34.
[52] «Məcmuu Fətava» 2/7.
[53] «əl-Huccə Fi Bəyani Məhaccə» 1/306.
[54] «Dəru Təaridu Aqli və Nəql» 1/306.
[55] «Məcmuatur Rəsailin Nəcdiyyə» 4/4, «əd-Durərus Səniyyə» 1/48.
[56] «Usuli Dini İslam» s. 7.
[57] «Cəvharətud Tövhid» s. 10.

etməkdir. Yəni tam bir iman və sədaqətlə yalnız Allaha ibadət etmək, saleh əməllər etməkdir. Yoxsa yalnız dil ilə: «Allah birdir» deməklə ***Tövhid*** gerçəkləşməz. Eyni zamanda bu tövhidin ziddi olan hər cür əməli batil edən şirk və şirk yollarından da uzaq olmağı özündə əhatə edir»[58]. Abdullah əl-Ğuneyman – *rahmatullahi aleyhi* – deyir ki: «***Tövhid*** **–** haqq məbudu, Ona olan sevgi, sayğı və təslimiyyətin ən yüksəyini əhatə edən, ən böyügünü ifadə edən «ibadət»-lə ***Tövhid*** etməkdir»[59].

Burada olan ibadətdən, qulluqdan məqsəd Allahın ***Tövhid*** edilməsidir. Buna görə də ey Allahın qulu! Sənə ilk lazım olan dini vəzifədən, ibadətləri və hətta namaz kimi bir ibadəti belə öyrənməmişdən öncə Tövhidi öyrənmək sorumluğu olduğunu heç vaxt unutma»[60]. Buna görə də qul bütün hüquqi və özəllikləri ilə tövhidi bilmək və tanımaq məcburiyyətindədir. Ağlı başında olan müddətdən ölüncəyə qədər tövhidə möhtacdır. Çünki İslam da ***Tövhid*** hər şeyin təməlidir. ***Tövhid*** olmadıqca Uca Allah qulun heç bir əməl və ibadətini qəbul etməyəcəkdir. Çünki müsəlmanın həyatı Tövhidsiz təsəvvür olunmazdır və ***Tövhid*** dini vaciblərin təməli, ən böyüyü və qüvvətlisidir. Allahın göndərdiyi Nəbi və Rəsullar Tövhidlə başlamışlar. İnsanları ancaq Tövhidə dəvət etmişlər. Bu da Nuh – *əleyhissəlam* - dan, nəbimiz Muhəmməd - *sallallahu aleyhi və səlləm* – ə qədər gələn bütün Peyğəmbərlərin gətirdiyi Tövhiddir. Bu Tövhid də ***Lə İləhə İlləllah*** **-** kəlməsinin mənasını ifadə edir. Bütün Peyğəmbərlərin dəvət etdiyi ***Tövhid*** də elə budur. Yəni Allahdan başqa ibadətə layiq heç bir haqq ilah yoxdur. İbn Teymiyyə – *rahmatullahi aleyhi* – Tövhidin mühümlüyünü bu sözlərlə bəyan etmişdir: «Uca Allah bu tövhidi kitabında açıqca bildirmiş və Ona şərik qoşulmasını rədd etmişdir. O, qədər aydın və kəsinliklə ki, atrıq Qurandakı Tövhidə inanan bir müsəlman, əsla Allahdan başqasından qorxmaz, Ondan başqasından bir şey gözləməz, Ondan başqasından istəməz. Muhəmməd - *səllallahu aleyhi və səlləm* – də: «Ey insanlar! ***Lə İləhə İlləllah!*** deyin ki, qurtuluşa çatasınız». Həqiqətən də bu «***Lə İləhə İlləllah***» tövhididir. Həqiqətən də bu «Allahdan başqa ilah tanımamaq tövhididir». ***İlah*** **–** könüllərin sonsuz bir sevgi, sayğı rica və qorxu ilə Allaha yönəldiyi, tapınaraq sığındığı haqq ilah ancaq Allahdır»[61]. Hənəfi məzhəbinin imamlarından İbn Əbil İzz əl-Hənəfi – *rahmatullahi aleyhi* – deyir ki: «Bil ki, Tövhid bütün Peyğəmbərlərin ilk dəvətidir, yolun ilk mənzilidir. Qulu Allaha

---

[58] «Məcmuu Fətava» 2/20.
[59] «Şərhu Kitabu Tövhid Min Sahihi Buxari» 1/38.
[60] Durerus Səniyyə 1/107.
[61] Fətva 1/135.

yaxınlaşdıran ən mühüm amildir. Buna görə də qula ilk fərz olan Allahdan başqa ilah olmadığına şəhadət etməkdir. Tövhid bir kimsənin ilk olaraq İslama girdiyi və onunla son olaraq dünyadan ayrılaraq axirətə köçdüyü bir şeydir. Yolun əvvəlində də, sonunda da qula mütləq şəkildə lazım olandır»[62]. Şeyx AbdulƏziz ən-Nəsir ər-Rəşid – *rahmatullahi aleyhi* – deyir ki: «İstər Peyğəmbr – *sallallahu aleyhi və səlləm* – olsun, istər onun peyğəmbər qardaşları olsun – *Allahın salamı onların üzərinə olsun* – insanlara təbliğ etdikləri şeylərin ən böyüyü və ən ucası: «Allahın birliyinə və heç bir şeyi Ona şərik qoşmadan yalnız Allaha ibadət etmək, Allahı isim, sifət və felləri ilə oxşarsız və bənzərsiz Rəbb olaraq tanımağa dəvətdən ibarət olmuşdur. Bu da bütün Peyğəmbərlərin dəvətinin açarı, İlahi dəvətin təməli və özüdür»[63]. Şeyx Muhəmməd b. AbdulVəhhab – *rahmatullahi aleyhi* – deyir ki: «Allah elçilər göndərib, kitablar nazil etməsi ancaq Tövhidin və Tövhidlə əlaqəli bəyanı və təbliği üçündir: ***«Biz hər ümmətə Allaha ibadət edin, Tağutdan çəkinin deyə Pəyğəmbər göndərmişdik. Onların bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə haqq yolundan azmalı olmuşdur.*** *(Ey müşrüklər)* ***yer üzündə dolaşıb görün ki,*** *(Peyğəmbərləri)* ***yalançı hesab edənlərin axırı necə oldu».*** *(ən-Nəhl 36).* ***«Mən cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım».*** *(əz-Zariyat 56).* Şeyx Saleh əl-Bəlihi – *rahmatullahi aleyhi* – deyir ki: «Bilindiyi kimi Nəbilərin və Rəsulların sayı haqqında: «Nəbilər **124** mindir, Rəsullar da **313** dür» deyə bir xəbər varid olmuşdur. Bu Nəbi və Rəsulların hamısı Allahı birləməyə, hər baxımdan Onu bir bilib yalnız və yalnız Ona ibadət etməyə çağırmışlar»[64]. Şeyx Muhəmməd əl-Useymin – *rahmatullahi aleyhi* – yə: «Qula ilk fərz olan nədir? deyə sual verildikdə o, deyir ki: «Bütün qullara ilk fərz olan Allahı tövhid etmələri və bu ***Tövhid*** ilə birlikdə Muhəmməd - *sallallahu aleyhi və səlləm* – in Allahın elçisi olduğuna şəhadət etməkdir. Ancaq belə bir tövhid ilə, bu tövhidə şəhadət etmək şərtilə əməl və ibadətlər Allahın dərgahında qəbul edilir»[65].

Məkkə dövrünün müşrükləri bilirdilər ki, hər bir şeyi yoxdan var edən, ruzi verən, öldürən, dirildən, tədbir edən uca və böyük olan Allahdır. ***«De ki, sizə göylərdən və yerdən ruzi verən kimdir, qulaqlara və gözlərə sahib olan kimdir, ölüdən diri, diridən də ölü çıxaran kimdir, hər işi düzüb qoşan səhmana salan kimdir. Onlar Allahdır deyəcəklər. Bəs onda Allahdan qorxmursunuz? O, sizin həqiqi Rəbbiniz olan Allahdır.***

---

[62] Şərhu Əqidətul Təhaviyyə 1/21-23.
[63] Tənbihatus Sunniyyə s. 33.
[64] Əqidətul Muslimin 1/248.
[65] Məcmuu Fətava 2/22.

Haqdan sonra ancaq azmaq gəlir. Elə isə necə üz döndərir-siniz?». *(Yunus 31-32).* ***«De ki, əgər bilirsinizsə bu yer və yer üzərində olanlar kimindir? Onlar mütləq Allahındır. Sən de ki, bəs elə isə düşünmürsüz. De ki, yeddi göyün Rəbbi və böyük əzəmətli ərşin sahibi kimdir? Müşriklər «mütləq Allahındır» deyə cavab verəcəklər. Onda sən de ki, bəs elə isə qorxmursunuz?. De ki, əgər bilirsinizsə hər şeyin hökmü əlində olan, himayə edən, amma özünün himayəyə ehtiyacı olmayan kimdir? Onlar Allahındır deyə cavab verəcəklər. Bəs elə isə nə üçün qaçırsınız?».*** *(əl-Muminun 84-89).*

Gördüyünüz kimi, bu şeyləri müşriklər də belə rədd etmirdilər. Lakin onlar ***Lə İləhə İlləllah*** kəlməsinin nə məna ifadə etdiyini başa düşüb: ***«Əcəba o, ilahların hamısını bir ilahmı edir. Bu doğurdan da, çox təəccüblü bir şeydir. Onların əyanları çıxıb gedərək belə dedilər: Gedin öz ilahlarınıza*** *(ibadətdə)* ***möhkəm olun».*** *(Sad 5-6).*

Müşriklər, hətta cahillər də bu sözün həqiqi mənasını bilirdilər. Özünün müsəlman olduğunu irəli sürən, müşriklərin, cahillərin bu kəlməni ondan daha yaxşı başa düşdüklərini bildikdən sonra özünə müsəlman deyən insana heyrət edilir. Hətta bu insan etiqad etmədən sadəcə bu sözü hərflərlə tələffüz etməklə işin bitdiyini zənn edir. ***Lə İləhə İlləllahın*** mənasını müşriklərin və cahillərin ondan daha yaxşı bildiyi kimsədə xeyir yoxdur.

Kimisi də bu kəlmədə məqsəd yalnız Rububiyyət tövhidi olduğunu, yəni Allahdan başqa yaradıcı, ruzi verən olmadığına inanmaq olduğunu zənn edirlər. Lakin bu belə deyil, Tövhid həm qəlb, həm dil, həm də əməl ilə olması qaçınılmazdır. Əgər bir kimsə Tövhidi bilməklə əməl etməzsə, o kimsə Firon, İblis və s. bənzəri kimi bir kafirdir. Çünkü qəlbin Tövhidinin arxasından söz və əməl ilə Tövhid gəlir. Əgər bir kimsə qəlbi ilə Tövhid edərsə, lakin Allaha söz və əməlləri ilə Tövhid etməyəcək olursa, bu kişi haqqı kəsin olaraq bilməklə batil üzərinə israr və inadkarlıq edən kimsədir. ***«Möcüzələrimizin həqiqiliyinə daxilən əmin olduqları halda, haqsız yerə və təkəbbürlük üzündən onları inkar etdilər. Bir gör fitnə-fəsad törədənlərin axırı necə oldu?».*** *(ən-Nəml 14).* ***Musa da ona: «Sən bunların məhz göylərin və yerin Rəbbi tərəfindən açıq-aşkar möcüzə olaraq endirildiyini, sözsüz ki, bilirsən. Mən isə, ey Firon, səni artıq məhv olmuş zənn edirəm».*** *(əl-İsra 102).*

Onlara görə ilah istər rəsul, cin, övliya, seyyid, ağac, daş, qəbir və s. olsun, şəfa, övlad diləmək, ruzi istəmək və s. məqsədlər üçün yönəldilmiş şeydir.

Bəziləri hətta İnstituta girmək, öz övladlarını evləndirmək üçün və s. boş-boş və faydasız şeylərlə müraciət edirlər. Baxın: Allah bizi Qurani Kərimdə daima bu kəlməyə tərəf gəlməyimizi, ona sarılmağımızı və bu ayələrdə ağıl, hikmət sahibləri üçün ibrətlər, faydalar olduğunu buyurur: Bu Tövhidin təməl qaydalarındandır. Onun bənzəri heç bir şey yoxdur: ***«Ona bənzər heç bir şey yoxdur».*** *(əş-Şura 11)* deyə etiqad edilir.

O, yaratdıqlarından heç birinə bənzəməz. Yaratdıqlarından da heç biri ona nə zatında, nə felində, nə ismində, nə sifətində, nə də hüququnda bənzəməz. Heç bir şey ona güc çatdırıb onu aciz buraxmaz. O, dilədiyi hər şeyi etməyə qadirdir. ***«Bir şeyi istədiyi zaman Allahın buyurduğu ona ancaq: «OL!» deməkdir. O da dərhal olar».*** *(Yasin 82).* Heç bir şey ona zor gələ bilməz. Heç bir şey də onu gücündən qoya bilməz. ***«Göylərdə və yerdə Allahı aciz edə biləcək heç bir şey yoxdur».*** *(Fatir 44).*

Bu onun qüdrətinin kamilliyindəndir. Nəyi diləsə, o, olmuşdur, nəyi də diləməmişsə, o, olmamışdır. Bu da onun Rububiyyətinin kamilliyindəndir. Ondan başqa ilah yoxdur kəlməsi - ***Tövhid*** budur. Bütün Rəsulların çağırışı da budur. ***«Biz hər ümmətə Allaha ibadət edin, Tağutdan çəkinin deyə Pəyğəmbər göndərmişdik. Onların bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə haqq yolundan azmalı olmuşdur.*** *(Ey müşrüklər)* ***yer üzündə dolaşıb görün ki,*** *(Peyğəmbərləri)* ***yalançı hesab edənlərin axırı necə oldu».*** *(ən-Nəhl 36).*

Allahdan başqa ibadət olunmağa layiq heç bir haqq ilah yoxdur deməkdir. Çünkü yaradan, ruzi verən, hər şeyə malik də odur. Ondan başqa ibadət edilənlərə isə ancaq və ancaq batil bir yolla ibadət olunmuş olur. Bu belədir, çünkü Allah haqqın özüdür. ***«Çünki Allah haqq, müşriklərin ondan başqa ibadət etdikləri*** *(bütlər, tanrılar)* ***isə batildir. Həqiqətən Allah uca və böyükdür».*** *(əl-Həcc 62).*

Baxın: Bu qədər kamil, gözəl ad və sifətlərə malik olan Allahı buraxıb, ehtiyacı olan, möhtac, aciz olan hər hansı bir şeydən kömək istəmək olarmı? Fikirləşin.

Tövhid üç növdür: **1. *Rububiyyə*. 2. *Uluhiyyə*. 3. *İsim Və Sifətlər*.**

RUBUBİYYƏT TÖVHİDİ

Rububiyyə – Rəbb sözündəndir. Lüğətdə tərbiyə edici, yardımçı, islah edən və s. mənaları ifadə edir. ***İstilahi Mənası*** isə – hər bir şeyin Rəbbinin və mütləq Malikinin Allah olduğuna, ortağının olmadığına, tək yaradıcı O olduğuna, bütün kainatı idarə edən, qullarını yaradıb onları ruziləndirən, həyat verən və canlarını alanın O olduğuna kəsin olaraq inanmaq, Allahın qəza və qədərinə, zatında vəhdəniyyətinə, yəni bir və tək olduğuna

inanmaq deməkdir. ***«Həmd olsun Allaha, aləmlərin Rəbbinə».*** *(əl-Fatihə 1).* ***«Aləmlərin Rəbbi olan Allah nə qədər uca, nə qədər böyükdür».*** *(əl-Əraf 54).* ***«Hökm əlində olan Allah nə qədər uca, nə qədər uludur. O, hər şeyə qadirdir!»*** *(əl-Mulk 1).* ***«Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan odur. O, hər şeyi biləndir!»*** *(əl-Bəqərə 29).* ***«Göyləri və yeri xəlq edən, zülmətləri və nuru yaradan Allaha həmd olsun».*** *(əl-Ənam 1).*

Tövhidin bu növünü Məkkə dövrünün müşrükləri də belə qəbul edirdilər. Onlar bilirdilər ki, hər bir şeyi yoxdan var edən, ruzi verən, öldürən, dirildən, tədbir edən uca və böyük olan Allahdır. ***«De ki, sizə göylərdən və yerdən ruzi verən kimdir, qulaqlara və gözlərə sahib olan kimdir, ölüdən diri, diridən də ölü çıxaran kimdir, hər işi düzüb qoşan səhmana salan kimdir. Onlar Allahdır deyəcəklər. Bəs onda Allahdan qorxmursunuz? O, sizin həqiqi Rəbbiniz olan Allahdır. Haqdan sonra ancaq azmaq gəlir. Elə isə necə üz döndərirsiniz?».*** *(Yunus 31-32).* ***«De ki: «Əgər bilirsinizsə bu yer və yer üzərində olanlar kimindir?» Onlar mütləq: «Allahındır» deyə cavab verəcəklər. Sən de ki: «Bəs elə isə düşünmürsünüz». De ki: «Yeddi göyün Rəbbi və böyük əzəmətli ərşin sahibi kimdir?» Müşriklər mütləq: «Allahındır» deyə cavab verəcəklər. Onda sən de ki: «Bəs elə isə qorxmursunuz?». De ki: «Əgər bilirsinizsə hər şeyin hökmü əlində olan, himayə edən, amma özünün himayəyə ehtiyacı olmayan kimdir?» Onlar mütləq: «Allahındır» deyə cavab verəcəklər. Sən de ki: «Bəs elə isə nə üçün qaçırsınız?».*** *(əl-Muminun 84-89).* ***Həqiqətən əgər sən müşriklərdən «Göyləri və yeri kim yaratmışdır?» deyə soruşsan, onlar mütləq «Allah!» deyə cavab verəcəklər. De ki, həmd olsun Allaha!».*** *(Loğman 25).*

Gördüyünüz kimi, bu şeyləri müşriklər də belə rədd etmirdilər. Bunun belə olmasına səbəb qulların qəlbləri fitrətdən yeganə Rəbb olanı qəbul edəcək şəkildə yaradılmış olmalarıdır.

Allahın ruzi verməsi! ***«Mən onlardan ruzi istəmirəm, mən onlardan məni yedirtmələrini də istəmirəm! Şübhəsiz ki, ruzi verən də, yenilməz qüvvət və hikmət sahibi olan Allahdır».*** *(əz-Zariyyat 57-58).* ***«De ki, göylərdən və yerdən sizə ruzi verən kimdir?*** *(əgər onlar sənə bilmirik deyə cavab versələr)* ***de ki, Allahdır. Elə isə doğru yolda olan, yaxud açıq-aşkar azan bizik**, **yoxsa siz».*** *(Səba 24).* ***«Sizi yaradan, sonra sizə ruzi verən, sizi öldürən və daha sonra*** *(Qiyamət günü)* ***diriləndən məhz Allahdır. Şərikləriniz içərisində bunlardan heç olmasa birini edən varmı?».*** *(ər-Rum 40).* Əbu AbdurRahmən Abdulla b. Məsud –

radıyallahu anhu – rəvayət edir ki, doğru sözlü və doğru sözü təsdiq olunan Rəsulullah - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizdən hər birinizin yaradılışı onun anasının qarnında qırx gün nütfə[66] şəklində olaraq bir yerə gətirilir. Sonra bu müddət qədər aləqa[67] şəklində olur. Sonra yenə bu müddət qədər mudğa[68] şəklində olur. Sonra ona bir mələk göndərilir, mələk ona ruh üflədikdən sonra dörd xüsusiyəti yazmaqla əmr olunur. Ruzisini, əcəlini, əməlini, bədbəxt və ya xoşbəxt olacağını»[69].

Allahın bizi ruziləndirməsinə ağlı dəlilə gəlincə, bizlər yemək yiyərək və içərək yaşaya bilərik. Yiyəcək və içəcəyi də Allah yaratmışdır. ***«Bəs əkdiyiniz toxuma nə deyirsiniz? Onu bitirən sizsiniz, yoxsa biz? Əgər biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də mat-məətəl qalıb: «Biz ziyana uğramış, bəlkə də məhrum olmuş kimsələrik deyərsiniz? Bəs içdiyiniz suya nə deyirsiniz? Onu buluddan endirən sizsiniz, yoxsa biz? Əgər istəsəydik, onu acı bir su edərdik. Elə isə niyə şükr etmirsiniz?»*** *(əl-Vaqiə 63-70).*

Allahın bizi əbəs yerə yaratmaması! ***«Yoxsa sizi əbəs yerə yaratdığımızı və hüzurumuza qaytarılmayacağınızı güman edirsiniz».*** *(əl-Muminun 115).* ***«Məgər insan elə güman edir ki, başlı-başına buraxılacaq. Məgər o, tökülən bir qətrə nütfə deyildimi? Sonra laxtalanmış qan oldu və Allah onu yaradıb surət verdi. Sonra da ondan bir kişi, biri qadın olmaqla iki cift yaratdı. Elə isə O - Allah ölüləri diriltməyə qadir deyildirmi?»*** *(əl-Qiyamət 36-40).* O, ölüləri diriltdikdən sonra da dirildicidir, diriltdikdən əvvəl də dirildicidir. Hər şey ona möhtacdır. Hər işin sonu ona dönəcəkdir. O, heç bir şeyə ehtiyacı olmayandır. Allah heç kimsəni yaratmazdan əvvəl də Rububiyyət sifətlərinə sahibdir. Allah yaratdıqlarını onlar öldükdən sonra da onları yoxdan yaratdığı kimi elə də dirildəcəkdir. O, yaratdıqlarını var etdikdən sonra yaradıcı olduğu kimi, onları var etmədən əvvəl də yaradıcı idi.

Uluhiyyət, İsim və sifətlərin Tövhidindən fərqli olaraq Adəm oğullarının fitrətdən, qəlbdən qəbul etdiləri Tövhid də elə budur.

ULUHİYYƏT TÖVHİDİ

Bu da Allaha ibadət ilə olur. Buna həmçinin ibadətdə Tövhid də deyilir. ***Uluhiyyə*** – ilah sözündəndir. Yalnız Allaha ibadət edilməli, boyun əyilməli, mütləq olaraq sadəcə ona itaət olunmalıdır. Kim olursa olsun -

---

[66] ***Nütfə*** – məni mənasındadır. Nütfə bəzən də saf su adlanır.
[67] ***Aləqa*** – laxtalanmış qan, ziyil deməkdir. *«O, insanı laxtalanmış qandan yaratdı». (əl-Ələq 2).*
[68] ***Mudğa*** – çeynənilmiş ət parçasına oxşadığı üçün bu ad verilmişdir.
[69] Buxari, Müslim.

rəsul, mələk, cin, övliya, seyyid, daş, ağac və s. ona ibadətdə ortaq (şərik) qoşulmamalıdır. Namaz, oruc, zəkat, həcc, dua, istianə (yardım diləmək) nəzir, qurban, təvəkkül, ümid, qorxu, sevgi və s. zahiri və batini ibadətlərdən heç biri ondan başqasına edilməməlidir[70]. Allaha həm qorxu, həm ümid, həm də sevgi ilə ibadət olunmalıdır. ***«Biz yalnız sənə ibadət edirik və yalnız səndən kömək diləyirik».*** *(əl-Fatihə 4).* ***«Kim Allah ilə yanaşı başqa bir tanrıya ibadət edərsə, bunun üçün isə onun heç bir əsası yoxdur».*** *(əl-Muminun 117).* ***«Rəbbi yalnız ona ibadət etməyi buyurmuşdu».*** *(əl-İsra 23).* ***«Allaha ibadət edin və ona heç bir şeyi şərik qoşmayın».*** *(ən-Nisa 36).*

Bu Tövhidin gerçəkləşməsi üçün iki ünsur vardır:

1. İbadətləri qullardan hər hansı birinə deyil, yalnız Allaha xas qılmalı, Allaha məxsus olan isim və sifətləri qullara məxsus etməməlidir. Mömin yalnız Allaha ibadət edər. Allahdan başqası üçün əsla namaz qılmaz, səcdə etməz, yalvarıb-yaxarmaz. Allahdan başqasına and içməz, nəzir verməz və Allahdan başqasına təvəkkül etməz.

2. İbadətin, Allahın əmrlərinə itaətə sövq etməsi, qadağalarından çəkinməsi və Nəbisi – *sallallahu aleyhi və səlləm* – in Sünnətinə uyğun olması gərəkdir. Tövhidi Uluhiyyətin ən vacib ünsuru, insanın tam mənada Kitab və Sünnətə təslim olmasıdır.

Allaha ibadət, itaət və əmrlərinə boyun əyməklə olur. Buna görə də Rəbb kimdirsə məbud da odur. Məbud isə ibadət olunmağa layiq olan kimsə deməkdir və ya ibadətə layiq olduğu üçün ona ibadət olunan deməkdir. Burada məqsəd ibadət olunan hər kəs Rəbbdir demək deyil. Allahdan başqa ibadət olunan ilahlar ilə o, ilahlara ibadət edənlərin, Allahdan başqa Rəbb etdikləri varlıqlar əslində Rəbb deyil, çünkü Rəbb yaradan, hər şeyə mütləq məxsus olan və bütün işləri idarə edib, düzüb qoşandır. ***«O, göylərin və yerin, onların arasında olan hər şeyin Rəbbidir! Yalnız ona ibadət et və onun ibadətinə səbrli ol! Heç ona bənzərini görürsənmi?»*** *(Məryəm 65).*

Allahdan qeyri ibadət olunanlar heç bir xeyrin gəlməsinə və ya bəlanın uzaqlaşdırılmasına belə maneçilik törədə bilməzlər. ***«De ki: «Elə isə bir söyləyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan qeyri ibadət etdikləriniz onun zərərini aradan qaldıra bilərlərmi?» Yaxud: «Əgər Allah mənə bir mərhəmət əta etmək istəsə, onlar onun mərhəmətinə mane ola bilərlərmi?» De ki: «Mənə təkcə Allah kifayət edər».*** *(əz-Zumər 38).* ***«Əgər Allah sənə bir zərər yetirsə,***

[70] İbn Mənzur «Lisanul Ərəb» 1/399.

səni ondan Allahdan başqa heç kəs qurtara bilməz. Əgər Allah sənə bir xeyir diləsə, heç kəs onun nemətinə maneçilik edə bilməz». *(Yunus 107).*

Onların ilah etdikləri bu varlılıqlar Uluhiyytdən heç bir xüsusiyyətə malik deyillər. Çünki onlar yaradılmış varlıqlardır. Özləri bir şey yaratmamışlar, onlara ibadət edənlərə zərrə qədər fayda verə və onlara gələn bəlanı aradan qaldıra bilməzlər. Həmçinin onlara həyat verməzlər, öldürməzlər. ***«Müşriklər isə onu qoyub heç bir şey yarada bilməyən, əksində özləri yaradılan, özlərinə nə bir xeyir, nə də bir zərər verə bilən, diriltməyə, öldürməyə və yenidən diriltməyə gücləri çatmayan bütləri özlərinə ilah qəbul etdilər».*** *(əl-Furqan 3).*

Uluhiyyət Tövhidi bütün Peyğəmbərlərin çağırdığı Tövhiddir. Əvvəlki ümmətlərin məhv olmasına səbəb də elə bu Tövhidin inkarı olmuşdur. Baxın, Allah Nuh – *əleyhissəlam* - ın qövmi haqqında belə buyurur: ***Və*** *(öz tabeçiliyində olanlara)* ***dedilər: «Öz tanrılarınızı tərk etməyin,*** *(xüsusi ilə)* ***Vəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri atmayın».*** *(Nuh 23).* İbn Abbas – *radıyallahu anhu* - rəvayət edir ki, bunlar Nuh - *əleyhissəlam* - ın qövmünün əməlisaleh insanları idilər. Onlar öldükdən sonra şeytan onların yaşadığı qövmün insanlarına vəsvəsə edir ki, onların qəbirləri üstündə onların heykəllərini ucaltsınlar və onların adlarını həmən heykəllərə versinlər. Uzun müddət keçdikdən və elm yaddan çıxdıqdan sonra o, heykəllərə ibadət etməyə başladılar[71].

Həqiqətən də bu belədir. Bu hadisələri biz indiki günümüzdə də görə bilərik. Nə qədər əməlisaleh insanlar var ki, öldükdən sonra onların qəbirləri üstündə pirlər, məsçidlər, ibadətgahlar tikilir. Uzun zaman keçdikdən sonra insanların o, qəbirlərin üstünə gəlib onlardan kömək dilədiklərini görürük. Lakin insan bir şeyi unutmamalıdır ki, sıxıntı, kədər, bəla gələndə insan o ibadət etdiklərini unudaraq, əllərini göyə açıb Allaha dua edir. ***«İnsana bir sıxıntı üz verən zaman - uzananda da, oturanda da, ayaq üstə də bizə dua edər. Lakin onu sıxıntıdan qurtardıqda ondan ötrü bizə heç dua etməmiş çıxıb gedər».*** *(Yunus 12).* ***«De ki: «Mənə deyə bilərsinizmi? Sizə Allahın əzabı gəlsə və ya qiyamət başınızın üstünü alsa Allahdan başqasına dua edib yalvaracaqsınız? Əgər doğru danışan adamlarsınızsa*** *(deyin görək)****. Xeyr, yalnız Allaha dua edib yalvaracaqsınız. O, əgər istəsə yalvardığınız bəlanı aradan qaldırar. Siz də Ona şərik qoşduğunuz bütləri unudarsınız».*** *(əl-Ənam 40.41).*

Bəli, Allah bu bəlaları uzaqlaşdırdıqdan, sovuşdurduqdan sonra onlar yenə də Allahı unudub ona şərik qoşarlar. ***«Müşriklər gəmiyə mindikləri zaman ancaq Allaha dua edərlər. Sağ-salamat quruya çıxdıqları zaman***

---

[71] Buxari.

***yenə də** (Allaha) **şərik qoşarlar».** (əl-Ənkəbut 65). **«Sizi suda və quruda gəzdirən Odur. Siz gəmidə olduğunuz, gəmilər gözəl bir külək vasitəsilə içərisində olanları apardığı, onlar da sevindikləri vaxt birdən fırtına qopub dalğalar hər tərəfdən gəmilərin üzərinə hücum etdikdə və müsafirlər dalğaların onları bürüdüyünə** (həlak edəcəyini) **başa düşdükdə sidqi-ürəkdən Allahın dininə sarılaraq Ona belə dua edərlər: «Əgər bizi bu təhlükədən qurtarsan Sənə şükr edənlərdən olarıq. Onları xilas edincə yer üzündə haqsız yerə zülm etməyə, azğınlığa başladılar. Ey insanlar! Etdiyiniz zülm, haqsızlıq fani dünya malı kimi öz əleyhinizədir. Sonra hüzurumuza qaytarılacaqsınız. Biz də nə etdiklərinizi sizə xəbər verəcəyik».** (Yunus 22-23).*

Özünü müsəlman sayan hər bir kəs Allahın təkliyini qəbul edib, ondan qeyrisinə ibadət etməklə Allahın əzabından canını qurtaracağını zənn etməsin. Çünki İslam dininin başı, sonu, içi və çölü də Uluhiyyət Tövhididir. Peyğəmbərlərin ilk və son çağırışı da budur. Bunun üçün Pəyğəmbərlər göndərilmiş, kitablar endirilmiş, cihad məqsədi ilə qılınclar çəkilmiş, möminlər ilə kafirlər, Cənnət ilə Cəhənnəm əhli bir-birindən ayrılmışdır. «Allahdan başqa ibadətə layiq heç bir haqq ilah yoxdur» kəlməsinin mənası da elə budur. ***«Səndən əvvəl elə bir Peyğəmbər göndərmədik ki, ona Allahdan başqa heç bir ilah yoxdur. Buna görə də yalnız mənə ibadət edin!» deyə vəhy etməyək».** (əl-Ənbiya 25). **«Mən cinləri və insanlaı yalnız mənə ibadət etmək üçün yaratdım».** (əz-Zariyat 56).*

O, dövr ilə indiki dövr, Allahdan qeyrisinə ibadət edənlər bir və tək ilaha ibadət etmirdilər. Onlar birdən çox ilaha ibadət edib, bununla Allaha yaxınlaşdıqlarını irəli sürürdülər.

O, dövr ilə indiki dövr, Allahdan qeyrisinə ibadət edənlərin sözləri də eynidir. Biz Allahı qəbul edirik, sadəcə biz bu salehlərlə Allaha yaxınlaşmağa yol axtarırıq. Allah Qurani Kərimdə Allaha belə bir yolla yaxınlaşmağı axtaranlar barəsində buyurur: ***Allahı qoyub özlərinə dost tutanlar: «Biz onlara bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!» Deyirlər.** (əz-Zumər 3). **«Onlar Allahı qoyub özlərinə nə bir xeyir, nə də bir zərər verə bilən bütlərə ibadət edir və: «Bunlar Allah yanında bizdən ötrü şəfaət edənlərdir!» deyirlər. De ki: «Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz? Allah özünə şərik qoşulan bütlərdən uzaqdır və ucadır».** (Yunus 18).*

O, halda ibadət Allaha edilərsə səhih olar. Allah Rububiyyəti qəbul edən müşriklərə bu Tövhidin fayda vermədiyini, əksinə Allah Qurani Kərimdə onları mömin yox kafir olaraq adlandırmışdı. Əgər bir kimsə Rububiyyəti,

İsim və Sifətlərin Tövhidini qəbul edib, lakin bununla bərabər qəbrə gedib o, qəbir sahibinə ibadət etsə və ya ona yaxınlaşmaq məqsədi ilə bir qurban kəssə, belə bir kimsə müşrik və kafirdir. Əbədi Cəhənnəmlikdir.

Həmçinin Rəsulullah – *sallallahu aleyhi və salləm* - də onlara qarşı qılınc qaldırmış, onların canlarını və mallarını halal qılmışdı. ***De ki: «Şübhəsiz Rəbbim məni doğru yola, həqiqi dinə, batildən haqqa tapınan və müşriklərdən olmayan İbrahimin dininə yönəltdi!» De ki: «Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür».*** *(əl-Ənam 161-162).*

Möhtərəm oxucularımız! Allaha ibadət edin, ona heç bir şeyi ortaq (şərik) qoşmayın, öz əməllərinizi, işlərinizi puça çıxartmayın. Allah öz qullarına ona ibadət, itaət etməyi əmr edir. Ona itaət etdiklərinə görə, bundan ötrü onlara bol qarşılıq verəcəyini vəd etmişdi. Ona üsyan edilməsini qadağan etmiş, bundan ötrü onları cəzalandıracağını xəbər vermişdi. ***«Bunlar Allahın sərhədləridir.*** *(hökümləridir)* ***Hər kəs Allaha və Peyğəmbərinə itaət edərsə, Allah onu ağacları altından çaylar axan Cənnətlərə əbədi olaraq daxil edər ki, bu da böyük uğur və qurtuluşdur. Hər kəs Allaha və Peyğəmbərinə itaət etməyib onun sərhədlərini aşarsa, Allah da onu həmişəlik Cəhənnəmə daxil edər. Onu rüsvayedici əzab gözləyir».*** *(ən-Nisa 13-14).*

İSİM VƏ SİFƏTLƏR TÖVHİDİ

Bu ən gözəl İsim və Sifətlərin Allaha aid olduğuna haqqı ilə iman emək deməkdir. O, bütün kamil Sifətlərə malik və bütün əskik Sifətlərdən münəzzəhdir. Əhli Sünnə Vəl Cəmaat Rəbblərini Quran və Sünnədə gəlmiş İsim və Sifətlərlə bilir və tanıyır. ***«Ən gözəl adlar Allahındır. Onu bu adlarla çağırıb dua edin».*** *(əl-Əraf 180).* Allah Qurani Kərimdə özü-özünü vəsf etdiyi kimi və Rəsulu Muhəmməd – *sallallahu aleyhi və salləm* - də Onu Sünnədə vəsf etdiyi kimi qəbul etmək. ***Onlara de: «(Bunu) sizmi, yoxsa Allahmı daha yaxşı bilir?»*** *(əl-Bəqərə 140).* Allahdan sonra onu (Allahı) Rəsulundan daha gözəl kim tanıya bilər? Rəsululah – *sallallahu aleyhi və salləm* - bu haqda buyurur: «Sənə, sənin özü-özünə verdiyin, yaxud öz Kitabında nazil etdiyin və ya xəlq etdiklərindən birinə öyrətdiyin, və ya Öz yanında saxladığın qeyb elmində malik olduğun hər bir adla dua edirəm»[72]. Əbu Nuaym – *rahmatullahi aleyhi* – deyir ki: «Allahın öz nəfsini vəsf etdiyi şeyləri inkar edən kafir

---
[72] İmam Əhməd «Musnəd» 1/391, Həkim «əl-Müstədrək» 1/509, İbn Hibban.

olur. Nə Allahın özünü vəsf etdiyi, nə də Rəsulu Onu vəsf etdiyi heç bir şey təşbih deyildir»[73].

Allahın İsim və Sifətlərini bilmək, mənasını başa düşmək, onlarla Allaha dua edib Ondan istəmək, qulların qəlblərində yaradıcını ucaltmaq, Onu təqdis edərək hər cür əskiklik və qüsurlardan tənzih etmək və Onu sevmək, Ona ümüd edib arzulamaq və Ondan qorxmaq, Ona təvəkkül etməkdir. Belə ki, yaradıcı onların qəlblərində, nə zatında, nə də Sifətlərində heç bir ortağı olmayan ən uca örnək olur. Heç kimsənin onların qəlblərindəki bu yer kimi bir yeri yoxdur.

Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in risaləsi iki şeyi əhatə edir: Faydalı elm və Saleh əməl. ***«Müşriklərin xoşuna gəlməsə də (İslamı) bütün dinlərin fövqündə göstərmək üçün Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!»*** *(ət-Tövbə 33).* Bu ayədə olan ***Hidayət*** **–** Faydalı elm, ***Haqq Din*** – Saleh əməldir.

Faydalı Elm **–** gərək dünyada, gərək də axirətdə xeyirli və faydalı olan hər bir elmi əhatə edir. Heç şübhəsiz ki, Allahın İsimləini, Sifətlərini və feillərini bilmək bu elmlərin başında gəlir. Çünki bunları bilmək elmlərin ən xeyirlisi, ilahi risalətin özü, Peyğəmbər dəvətinin özəyi, söz, iş və etiqad baxımından dinin təməlidir. İsim və Sifətlər Tövhidi, Uluhiyyət və Rububiyyət Tövhidindən daha əhatəli və ümumidir. Allahın haqq bir İlah olduğuna, ibadətin ondan başqasına caiz olmadığını bilmək Onun İsim və Sifətlər elmindən bir budaqdır. Eyni şəkildə Onun Rəbb olduğuna, hər şeyi yaradıb yoxdan var etdiyinə, varlılıqlara surət verdiyinə iman etmək, İsim və Sifətlər Tövhidindən bir budaqdır. Bu da İsim və Sifətlər Tövhidinin Rububiyyət və Uluhiyyət Tövhidindən daha ümumi və əhatəli olduğunu göstərir.

Allahın qeyb elmində malik olduqlarını isə heç kəsin nə məhdudlaşdırması, nə də əhatə etməsi mümkündür. Allahı onun özünü adlandırdığı kimi adlandırmaq, yaxud onun özünü adlandırdığı adları inkar etmək Allaha qarşı üsyan etmək deməkdir. Ona görə də bu işdə ədəb yolunu tutmaq, Quran və Sünnə mətnlərində olan adlarla kifayətlənmək lazımdır. ***«Bilmədiyin bir şeyin ardınca getmə. Çünki qulaq, göz və qəlb bunların hamısı sorğu-sual olunacaqdır».*** *(əl-İsra 36).* ***«Allaha qarşı bilmədiyiniz şeyləri deməyinizi haram buyurmuşdu».*** *(əl-Əraf 33).*

İbn Qeyyim – *rahmatullahi aleyhi* - Allahın İsim və Sifətlərini üç qismə bölür: **1.** O, adlar ki, insanlardan qeyri məxluqlar bilir. **2.** O, adlar ki, Quran və Sünnədə varid olub. **3.** O, adlar ki, onları yalnız Allah bilir.

---

[73] İmam Zəhəbi «Uluv».

Əhli Sünnə Vəl Cəmaat – Rəblərini belə tanıyır. Allah, ondan əvvəl heç bir şeyin olmadığı (***Əvvəl***), ondan sonra heç bir şeyin olmadığı (***Axır***), ondan üstə heç bir şeyin olmadığı (***Zahir***), ondan o, tərəfə heç bir şeyin olmadığı (***Batindir***). ***«Əvvəl də, axır da, zahir də, batin də odur. O, hər şeyi biləndir».*** *(əl-Hədid 3).* Yenə də etiqad edirik ki, Allahın zatı, digər zatlara, varlıqlara bənzəməz. Sifətləri də eyni şəkildə digər sifətlərə bənzəməz. Çünkü Allaha bənzər, oxşar heç bir varlıq yoxdur. O, yaratdığı varlılıqlarla qiyas edilməz. Allah həyatda hər şeyin xaliqi, yaradıcısı və həyatda olan hər bir varlığın ruzi vericisidir. ***«Məgər yaradan bilməzmi? Allah incəliyinə qədər biləndir,*** *(hər şeydən)* ***xəbərdardır».*** *(əl-Mulk 14).* Allah nə yaratdıqlarını yaratdıqdan sonra yaradıcı sifətini almış, nə də insanları var etdikdən sonra ***Bəri*** (yoxdan var edən) adını almışdır. Bu sifətlərə əzəldə də sahibdir. O, indi də əbədi olaraq bu sifətlərə sahibdir. Bu sifətlərin hamısı onun kamil sifətlərindəndir. Məs: O, insanları yaratdıqdan sonra yaradıcı adını almamışdır. Bütün sifətləri kimi yaradıcı sifəti də onları yaratmazdan əvvəl onda var idi. Bu sifətlər əsla və heç bir şəkildə sona yetməz. Allah var olduqca onunla birlikdə var olacaqdır. Allahın varlığının da sonu olmayacaqdır. Allah yaratdıqlarını ***Alim*** olaraq yaratmışdır və heç bir şey ondan gizli qala bilməz, heç bir şey onun elmindən qırağa çıxa bilməz. Onun elmi böyük və kiçik, çox və cüzi hər bir şeyi əhatə etmişdir. ***«Göylərdə və yerdə zərrə qədər bir şey ondan gizli qalmaz. Bundan kiçik yaxud böyük elə bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın».*** *(Səba 3).* O, kainatı yaratmazdan əvvəl nə olduğunu bildiyi kimi, hal-hazırda da hər bir şeyi bilməkdədir. Yaratdıqlarından heç bir şey ondan gizli qalmaz. ***«****(Rəbbin)* ***onların keçmişini də, gələcəyini də bilir.*** *(Ta ha 110).*

Qurandan və Sünnədən bizə Allahın **99** İsim və Sifətləri məlumdur. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və sələm* - buyurdu: “Allahın doxsan doqquz – yüzdən bir əskik İsmi vardır. Kim bu İsimləri sayarsa Cənnətə daxil olar”[74]. Çünki bu **99** İsmi bilmək qəlbin düzəlməsi üçün əsasdır.

Qurani Kərimdən buna dəlillər isə: ***«Şübhə yox ki, Allah çox Uca*** *(Ali)* ***və çox böyukdür*** *(Kəbirdir)****».*** *(ən-Nisa 34).* ***«Şübhə yox ki, Allah*** *(hər şeyi)* ***eşidən*** *(Səmi)* ***və görəndir*** *(Bəsirdir)». (ən-Nisa 58).* ***«Şübhə yox ki, Allah yenilməz qüvvət*** *(Aziz)* ***və hikmət sahibidir*** *(Hakimdir)». (ən-Nisa 56).* ***«Şübhəsiz ki, Allah bağışlayan*** *(Ğafur)* ***və rəhmlidir*** *(Rahimdir)». (ən-Nisa 23).* ***«Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir*** *(Raqibdir)». (ən-Nisa 1).* ***«Haqq-hesab çəkməyə*** *(Hasib)* ***olaraq Allah***

[74] Buxari 6410, Müslim 2677.

kifayət edər». *(ən-Nisa 6).* ***«Allah*** *(möminlərə)* ***lütfkardır*** *(Lətif)* ***və*** *(bəndələrinin bütün əməllərindən)* ***xəbərdardır*** *(Xabirdir)». (əl-Əhzab 34).* ***«Şübhəsiz ki, Allah hər şeyi hifz edəndir*** *(Hafizdir)». (Hud 57).* ***«Şübhəsiz ki, Allah tariflənib şükr olunmağa*** *(Həmid)* ***və öyülüb, mədh edilməyə layiqdir*** *(Məciddir)». (Hud 73).* ***«Şübhəsiz ki, Allah çox yaxındır*** *(Qərib)* ***və duaları qəbul edəndir*** *(Mucibdir)». (Hud 61).* ***«Allah ehtiyacsız*** *(Ğani)* ***və həlimdir*** *(Həlimdir)». (əl-Bəqərə 263).* ***«Məgər Rəbbinin hər şeyə*** *(Şahid)* ***olması kifayət deyilmi.*** *(Fussilət 53)».* ***«Allah*** *(öz elmi ilə)* ***hər şeyi ehtiva edəndir*** *(Muhitdir)». (Fussilət 54).* ***«O, özündən başqa heç bir ilah olmayan, gizlini də, aşkarı da bilən Allahdır. O,*** *Rahməndir,* *Rəhimdir.* ***O, özündən başqa heç bir ilah olmayan*** *Məlikdir (mütləq sahibdir), Quddusdur (nöqsanlıqdan münəzzəhdir), Səlamdır (zat və sifətlərində, fellərində hər cür qüsur və əskiklikdən uzaqdır), Mumindir (öz bəndələrini şərdən qoruyan, əmin edəndir), Muheymindir (hamilik edən, qoruyandır), Əzizdir (hər şey hökmünə məhkum olan, güclü, qüvvətlidir), Cəbbardir (hökmünə məcbur edəndir), Mutəkəbbirdir (təkəbbürlük haqqına tək sahib olandır).* ***Allah müşriklərin ona qoşduğu bütlərdən uzaqdır. O, Allahdır ki,*** *Xaliqdir (hər şeyi yaradandır), Bəridir (yoxdan var edəndir), Musavvirdir (yaratdıqlarına istədiyi kimi surət verəndir),* ***O,*** *Əzizdir,* *Həlimdir (yenilməz qüvvət və hikmət sahibidir)». (əl-Həşr 22-24).* və s. ayələri dəlil göstərmək olar.

Allahın Isim və Sifətləri ağılla başa düşülməz. Zənlər, düşüncələr, təsəvvürlər onu başa düşüb dərk edə bilməz. O, da yaratdıqlarına nə zatında, nə əməlində, nə də İsim və Sifətlərində bənzəməz. Kimsə deyə bilər ki, bu sifətlərə biz də məxsusuq. Amma xeyir! İnsan görmə, eşitmə sifətlərinə malikdir. Lakin onun görməsi, eşitməsi Allahın görməsi, eşitməsi kimi deyildir. Çünkü insan müəyyən bir həddə qədər görüb eşidə bilər, lakin Allah üçün belə bir hədd yoxdur. Hətta elə bir hallar olur ki, ana öz oğlunu bağışlamır. Lakin Allah öz qullarına qarşı o, qədər rəhmli və mərhəmətlidir ki, onların bu qədər günah etmələrini bağışlayır. İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* - bu haqda deyir ki: “Onun sifətləri yaratdıqlarının sifətləri kimi deyildir. Onun bilməsi bizim bilməyimiz kimi deyil. Qüdrəti var, lakin bizim qüdrətimiz kimi deyil. Görür, lakin görməsi bizim görməyimiz kimi deyil. Duyur, lakin duyması bizim duymağımıza bənzəməz. Danışır, lakin danışması bizim danışığımız kimi deyildir”[75]. Çünkü onun misli yoxdur. ***«De ki, o Allah birdir. Allah möhtac deyildir. O, nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir tayı bərabəri, bənzəri də yoxdur».*** *(əl-İxlas 1-4).*

---

[75] «əl-Fiqhul Əkbər» s. 302.

İsim və Sifətlərin Tövhidi əqidə məsələlərində ən çətin və təhlükəli mövzulardan biridir. Hətta bir çox alimlər bu mövzuda xətalar etmişlər.

Əhli Sünnə Vəl Cəmaatın bu mövzu ilə bağlı mövqeyi belədir:

1) Nə ki, Quran və Sünnədə isbat olunub, biz də onu isbat edib, qəbul edirik. Məs: Allah görür, eşidir və s. ***«Şübhə yox ki, Allah** (hər şeyi) **eşidən** (Səmi) **və görəndir** (Bəsirdir)».* *(ən-Nisa 58).*

2) Nə ki, Quran və Sünnə ilə inkar edilir, biz də onu inkar edirik. Məs: Xristianlar deyirlər ki, Allah göyləri və yeri altı gündə xəlq etdi və bazar günü isə dincəldi. ***«O, nə mürgü** (Həyydir)**, nə də yuxu bilər** (Qayyumdur)».* *(əl-Bəqərə 255).* ***«And olsun ki, biz göyləri, yeri və onlar arasında olanları altı gündə yaratdıq və bizə heç bir yorğunluq da üz vermədi».*** *(Qaf 38).* Yəhudilər dedilər ki, Allah xəsisdir. ***«Xeyr, Allahın əlləri açıqdır. İstədiyi kimi lütf və ehsan edər».*** *(əl-Maidə 64).* Finhas adlı bir yəhudi Əbu Bəkr - *radıyallahu anhu* – onu İslama dəvət etdikdə demişdir: «Allaha and olsun ki, ey Əbu Bəkr! Biz fəqir (kasıb) olmadığımızdan Allaha ehtiyacımız yoxdur. O, isə fəqir birisidir. Əgər möhtac olmayan bir varlıq olmasaydı bizdən borc tələb etməzdi» ***«Allah kasıbdır, biz isə dövlətliyik! deyənlərin sözlərini Allah, əlbəttə eşitdi. Biz onların dediklərini və Peyğəmbərləri haqsız yerə öldürdüklərini yazacaq və** (qiyamət günü) **onlara: «Atəşin əzabını dadın!» deyəcəyik».*** *(Ali İmran 181)*[76]. Allah bütün bu deyilənlərdən münəzzəhdir.

3) Nə ki, Quran və Sünnədə varid olmayıb, sabitliyi və inkarı. Məs: Allah buyurur ki, danışır. Bu sabitdir. Lakin biz desək ki, Allah danışır, deməli dodağı, dili və s. var. Bu düz deyil. Çünkü bu haqda bizdə heç bir dəlil yoxdur. Bununla bərabər biz onu da inkar etmirik. Yenə də dəlilimiz olmadığı üçün.

İSİM VƏ SİFƏTLƏR TÖVHİDİNDƏ MÜHÜM OLAN QAYDALAR

Müsəlman qardaş və bacılarım! Bu mövzu təhlükəli və çətin olduğuna görə, bəzi azmış və hədlərini aşmış firqələr kimi Allahın ad və sifətlərini dəyişməmək, onları heç nəyə bənzətməmək, keyfiyyətini öyərənməyə çalışmamaqdan ötrü alimlər bəzi qaydalar müəyyənləşdiriblər. Bu qaydaları hər bir müsəlmanın bilməsi vacibdir.

1. *Təhrif* – bir sözü başqa sözlə əvəz etmək, dəyişdirmək deməkdir. Ayə və ya hədisi həm məna, həm də ləfzi etibarı ilə dəyişdirmək deməkdir. Məs: 1) Məna etibarı ilə təhrifə dəlil - Allah Qurani Kərimdə buyurur:

[76] İbn Cərir ət-Təbəri təfsir kitabında. Sənədi zəifdir.

«Rahmən ərşin üzərinə yüksəldi». *(Ta ha 5).* Burada olan ***İstiva*** - ucalmaq sözünə**,** ***Lə*** – şəkilçisi artırmaqla ***İstəvlə*** hökmü altına aldı sözü ilə əvəz edirlər. Bu azmış firqələr özləri də bilmədən Yəhudilərin etdiklərini edirlər. Allah Yəhudilərə kəndin qapsından Allaha səcdə edən halda ***Hittə*** – «Bizi bağışla» deyərək içəri daxil olun buyurduğu halda onlar Allahı ələ salaraq ***Hittə*** – sözünü, ***Hintə*** – «Buğda» sözü ilə əvəz etdərək arxaları üstə kəndə girməyə başladılar. (əl-Bəqərə 58-59)[77]. Allahın ***Əl*** – sifətini qüdrət, nemət kimi təhrif etmək. 2) Ləfzi etibarı ilə təhrifə dəlil – Allah Qurani Kərimdə buyurur: ***«Allah Musa ilə sözlə danışdı».*** *(ən-Nisa 164)*-ci ayəsini oxuduqda: ***«Musa Allah ilə sözlə danışdı»*** deyə təhrif edirlər.

Allah Qurani Kərimdə təhrifi qınamış və bu haqda: ***«Halbuki*** *(Musa dövründə)* ***onların içərisində elələri də vardı ki, Allahın kəlamını*** *(Tövratı)* ***dinləyib anladıqdan sonra, onu bilə-bilə təhrif edirdilər».*** *(əl-Bəqərə 75).* ***«Yəhudilərin bir qismi*** *(Tövratdakı)* ***sözlərin yerini dəyişib təhrif edir…».*** *(ən-Nisa 46).* ***«Onlar sözlərin yerini dəyişib təhrif edir…».*** *(əl-Maidə 13,41).*

Təhrif – Təvil[78] – Kəlamçıların bir çoxu təhrif kəlməsinin yerinə təvil kəlməsini işlədirlər. Çünki Təvilin hamısı pis deyildir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – İbn Abbas – *radıyallahu anhu* – haqqında: «Allahım onu dində fəqih et! Ona təvili öyrət!» deyə buyurmuşdu[79]. ***Təvil*** – təfsir mənasıdadır və sözün son nəticədə əsaslandığı həqiqət mənasını bildirir. Pislənmiş təvil – sözün bəyənilən bir mənasını kənara qoyaraq ona bənzər digər dəlili bəyənilməyən, ehtimallara əsasən şərh edilməsinə deyilir. İsim və Sifətlərdə təvilə gəldikdə isə bidət əhlinin belə bir şeyə əl atmalarında məqsəd Uca Allahı yaradılmışlara bənzərlikdən təmizləməklə həddi aşmalarıdır. Bu isə öz növbəsində batil bir iddia olmaqla onları çəkindikləri təhlükənin bir başqa formasına, daha ağırına salmaqdadır. Məs: ***Yəd – Əl*** sözünü qüdrət mənasında təvil etdikləri vaxt Allahın əlinin olmasını deməkdən qaçmaq istəmişlər. Çünki yaradılmışların da əli vardır. ***Əl*** - sözü onlara mütəşabih görününcə onu qüdrət adlandıraraq təvil etmişlər. Bu da onların bir ziddiyətidir. Yəni onlar məqbul saydıqları məna haqqında müvafiq bir iddia qəbul etmək məcburiyyətindədirlər. Yəni özlərinin rədd etdikləri mənanı qəbul etməyə məcburdurlar. Axı qulların da qüdrəti vardır. (Belə olduqda Allahla yaradılmışlar arasında

[77] Buxari 4479.
[78] ***Təvil*** – sözü çevirmək, dəyişmək, sözə başqa məna vermək, ayə və hədisi zahiri mənasından çıxardıb Quran və Sünnənin demədiyi mənalara yozmaq deməkdir.
[79] Buxari, Müslim, Əhməd 1/266,314, İbn Məcə 166, Təbərani «əl-Kəbir» 10587,10617, Bəğavi «Şərhu Sunnə» 3942.

oxşarlıq olur). Əgər onların qəbul etdikləri qüdrət haqq və mümkün olan bir şeydirsə, onda Uca Allah üçün əli məqbul saymaq da eyni qaydada haqq və məqbuldur. Əgər Uca Allah haqqında əli qəbul etmək – onların iddialarına görə təşbihi (bənzətməni) zəruri etdiyi üçün batil və mümkün olmayan bir şeydirsə, eynilə qüdrəti də qəbul etmək batil və qeyri mümkündür[80].

2. *Tətil* – Allahın sifətlərini təmamilə inkar etmək və ya bəzilərini qəbul edib, bəzilərini inkar etmək. Tətil mütləq olaraq Təhrifdən daha şiddətlidir. Yəni o, yerdə ki, təhrif var orada tətil də vardır. Lakin əksi belə deyildir.

İki Qisimdir: 1) ***Böyük Tətil*** – Cəhmilər Allahın İsim və Sifətlərini təmamilə inkar edirlər. 2) ***Kiçik Tətil*** – Əşarilər, Mətrudilər kimi Allahın İsim və Sifətlərindən bəzilərini qəbul edib, bəzilərini isə inkar edirlər.

3. *Təmsil* (Muməssil) – Allahın sifətlərini məxluqatın sifətləri kimi olduğunu qeyd etmək. Buna həmçinin ***Təşbih*** – də deyilir. Bənzətmək, bənzər vermək. ***«Onun bənzəri heç bir şey yoxdur. O, eşidən və görəndir».*** *(əş-Şura 11).* Allah bu ayədə həm nəfy, həm də isbatı bir arada zikr etmişdir. Onun bənzərinin (misli) olmasını nəfy edərkən, Səmi və Bəsır (eşidən və görən) olduğunu isbat etmişdir. Bu da bu cür düşünənlərin fikirlərini alt-üst edir.

İki Qisimdir:

1. Yaradılmışı Yaradana (Allaha) bənzətmək – Yəni Allahın sifətlərindən, fellərindən, haqlarından hər hansı birini yaradılmışa da vermək.

1) Allahın sifətlərindən hər hansı birini yaradılmışa vermək – Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – i və ya ondan aşağı səviyyədə olan hər hansı bir yaradılmışı tərif və övməkdə hədi aşmaq. Necə ki, Abdullah b. Yəhya əl-Buhturini[81] tərif edən Mutənəbbi[82]. O, deyir: «Ey bənzəri olmayan kimsə, dilədiyin kimi ol! Və necə istəyirsən elə də ol! Sənə bənzər bir kimsə yaradılmamışdır».

2) Allahın fellərindən hər hansı birini yaradılmışa vermək – Allah ilə bərabər başqa bir yaradıcı olduğunu irəli sürən kimsənin Rububiyyət tövhidində Allaha şərik qoşması.

---

[80] Qahtani «Ulumul Quran».

[81] Məşhur şair olub. Əsrində şairlərinin lideri idi. Zəhəbi «Siyer» 13/487, ibn Kəsir «əl-Bidayə vən Nihayə» 11/81.

[82] Əsrinin şairi, ədəbiyyatçı olub. Əsl adı Əbu Tayyib Əhməd b. Hüseyn b. Həsən əl-Cufi əl-Kufi. Peyğəmbərlik iddiasında olduğu üçün Mutənəbbi ismi ilə tanınmışdır. Bir çox şirk və batil olan şerləri vardır. Tövbə etdiyi də söylənilir. Zəhəbi «Siyer» 16/199,201.

3) Allahın haqlarından hər hansı birini yaradılmışa vermək – Müşriklərin bütlərinin ilahlıq haqqı olduğunu irəli sürərək onlara tapınıb ibadət etmələri kimi.

2. Yaradanı yaradılmışa bənzətmək – Yəni yaradılmışa aid olan bəzi özəllikləri Allahın zatına və sifətlərinə vermək. «Allahın iki əli yaratdıqlarının əlləri kimidir», «Allahın Ərşə İstiva etməsi yaratdıqlarının öz taxtlarına oturub qalxmaları kimidir» və s. bənzəri sözlər kimi. İlk olaraq bu sözləri işlədən Hişam b. əl-Həkəm[83] olmuşdur. İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* – yaradanı yaradılmışa bənzətməyi kəsin ifadələrlə qadağan etmişdir. O, deyir: «Onun sifətləri yaratdıqlarının sifətləri kimi deyildir. Onun bilməsi bizim bilməyimiz kimi deyil. Qüdrəti var, lakin bizim qüdrətimiz kimi deyil. Görür, lakin görməsi bizim görməyimiz kimi deyil. Duyur, lakin duyması bizim duymağımıza bənzəməz. Danışır, lakin danışması bizim danışığımız kimi deyildir"[84]. «Allahın əli onların əlləri üzərindədir, lakin bu yaratdıqlarının əlləri kimi deyildir. O, əllərin yaradıcısıdır. Onun üzü yaratdıqlarının üzü kimi deyildir. O, bütün üzlərin yaradıcısıdır. Onun nəfsi yaratdıqlarının nəfsi kimi deyildir. Bütün nəfslərin yaradıcısı Odur. ***«Ona bənzər heç bir şey yoxdur. O, eşidən və görəndir».*** *(əş-Şura 11)*[85].

4. *Təkyif* (Mukəyyif) – Allahın sifətlərinin mahiyyəti, keyfiyyəti haqqında fikir yürütmək. Sifətlərin necəliyi haqqında suallar vermək. Allahın sifətlərini bilmək lazımdır, lakin keyfiyyəti haqqında fikir yürütmək olmaz. ***«Sənə Quranı nazil edən odur. Onun bir hissəsi quranın əslini, əsasını təşkil edən möhkəm, digər qismini isə mütəşabih*** *(mənaca bir-birinə oxşar, məğzi bəlli olmayan)* ***ayələrdir. Ürəklərində əyrilik olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədi ilə mütəşabih ayələrə uyarlar. Halbuki onların həqiqi izahını Allahdan başqa heç kəs bilməz». Elmdə qüvvətli olanlar isə: «Biz onlara inandıq, onların hamısı Rəbbimiz tərəfindəndir» deyərlər. «Bunları ancaq ağıllı adamlar dərk edər».*** *(Ali İmran 7).* Valid b. Müslüm deyir ki, əl-Əvzai, Sufyan b. Uyeynə, Məlik b. Ənəs – *rahmətullahi aleyhi* - dən İsim və Sifətlər haqqında olan hədislər barəsində soruşdum. Cavabları: «Bunları gəldikləri kimi alın, onlarla əlaqəli keyfiyyət düşünməyin»[86].

---

[83] Kufəli olan Hişam kəlamçılıqla tanınmış. Dövründə İmamiyyənin rəisi sayıldığı kimi İmamiyyənin bir qolu olan Hişamiyyənin qurucusudur. Hicri 190-da ölmüşdür. İmamət haqqında, Allahı cisimləndirrmə və yaratdıqlarına xüsusilə də insana bənzətmək kimi bir çox azğınlıqlar etmişdir. Bax: «Məqalətul İslamiyyə» 1/133,134.

[84] «əl-Fiqhul Əkbər» s. 59,302.

[85] «əl-Fiqhul Əbsat» s. 52,53.

[86] İmam Bəğavi «Şərhus Sunnə».

İmam Zuhri – *rahmətullahi aleyhi* – deyir: «Risalə göndərmək Allahdan, təbliğ etmək Rəsullardan, bizə düşən isə təslimiyyət göstərməkdir»[87]. Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir: «Kim qulları tanıdığı kimi Allahı tanıyarsa kafir olar»[88]. İbn əl-Cövzi – *rahmətullahi aleyhi* – İmam Əhməd – *rahmətullahi aleyhi* – ın Musaddəd əl-Bəsriyyəyə yazdığı məktubu belə xatırlayır: «Allahı onun özünü vəsf etdiyi kimi vəsf edirik, Allahın özü haqqında nəfy (inkar) etdiyini siz də nəfy edin»[89].

İSTİVA

İstiva – Allahın feli sifətlərindəndir. ***İstiva*** – üstə olmaq, yüksəlmək, çıxmaq deməkdir. Allahın yeddi səmanın üstündə yaratdıqlarından ayrı olaraq Ərşin üzərunə istiva etdiyinə və elmi ilə hər bir şeyi əhatə etdiyinə iman gətirilməlidir. Qatadə İbn ən-Numan - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Allah yaratmağı qurtardıqdan sonra Ərşin üzərinə istiva etdi»[90].

Əbu Muhəmməd AbdulQadir əl-Ceylani[91]: «Hər cür əskikliktən və qüsurdan münəzzəh olan Allah, yüksəklik yönündə (yuxarı tərəfdə) Ərşinə İstiva edəndir, mülkü əhatə edəndir» sözlərini açıqlayaraq demişdir: «Allahın hər yerdə olduğunu qeyd etmək düzgün deyildir. Əksinə Allah göydə, Ərşə İstiva etmişdir deyilməsi daha mötəbərdir. Allah buyurur: ***«Rahmən ərşə istiva etdi»****. (Ta ha 5).* İstiva kəlməsini hər hansı bir təvilə yol vermədən olduğu kimi işlətmək lazımdır. Belə ki, bu İstiva Ərşə edilən Zatı İstivasıdır. Nə Mucəssimə, nə də Kərramiyyənin dediyi kimi Ərşin üzərinə oturmaq və onunla doğrudan-doğruya təmasda olmaq (yəni ona, ərşə doğrudan) dəymək mənasında deyildir. Nə də Mutəzilənin dediyi kimi (Ərşi) istilə (***İstəvlə*** – zəbt etmək, hökmü altına almaq) və ona qələbə çalmaq mənasındadır. Nə də Əşariyyənin dediyi sifətlərin yüksəkliyi və ucalığı manasındadır. Çünkü Quran və Sünnədə olan dəlillər İstiva sözüylə bunları qəsd etməmişlər». Əhli Sünnə Allahın ərşinin üstündə olduğu inancında birləşmişlər (icma etmişlər). Onlardan

---

[87] İmam Bəğavi «Şərhus Sunnə».
[88] «əl-Əqidətul Təhaviyyə» s. 25.
[89] «əl-Mənaqib» İmam Əhməd 221.
[90] Zəhəbi "Uluv" 52, İbn Qeyyim "İctimai Cuyuşil İslamiyya2 s. 54, əl-Albani "Muxtəsər Uluv" s. 98, "Səhih". Başqa rəvayətdə: Allah sevdiyi şeyləi yaratmağı bitirdikdə Ərşə İstiva etdi. Təbəri 1/240-242, 607, İbn Məndə "Kitabu Tovhid" 3/93-94, 486, Suyuti "Durrul Mənsur" 1/94-98.
[91] İmam, alim, zahid, arif, Şeyxul-İslam Əbu Muhəmməd Muhyiddin AbdulQadir İbn Əbu Saleh Abdullah İbn Cəngi Dust əl-Ceyli əl-Hənbəli. Bağdadın şeyxi h. 471-ci il Ceylan qəsəbəsində doğulmuşdur. H. 571-ci ildə vəfat etmişdir. Əsərləri: «əl-Gunyə», «Tuhfetul Muttaqin», «Səbilul Arifin». Bax: İbn Rəcəb «Zeylu Tabaqatil Hanabilə» 1/290,310, «ən-Nucmuz Zahirə» 5/85,86, «Şəzəratuz Zəhəb» 4/119,202.

heç biri Allahın Ərşin üzərində olmadığını söyləməmişlər. Heç kimsənin onlardan bu mənada nə nass, nə də zahir olaraq bir söz nəql etməsi mümkün deyildir[92].

Bu kəlməni Müxaliflərin yozduqları kimi zəbt etdi, hökmü altına aldı, qüdrəti ilə və s. mənalar ilə dəyişməməliyik. ***İstiva*** – məlumdur, keyfiyyəti isə məchuldur. Ona iman gətirmək isə vacibdir. Əbu Nuaym Cəfər İbn Abdullah deyir ki, biz İmam Məlik – *rahmətullahi aleyhi* – ın yanında idik. Bir nəfər: «Ey Abdullahın atası! Allah Ərşə necə istiva etdi?» İmam Məlik – *rahmətullahi aleyhi* – bu sualı eşidəndə bərk qəzəbləndi. Başını aşağı salaraq, əlindəki çubuqla yerə sürtərək fikrə daldı. Sonra başını qaldırıb əlindəkini atdı və: «Necəliyi ağılla dərk olunmaz. İstiva Allah üçün məlumdur (yəni bilinməz deyildir). Buna iman vacib, bu haqda sual verməK bidətdir. Səni də bir bidətçi kimi görürəm və bu adamın qovulmasını əmr etdi»[93]. İbn Qeyyim – *rahmətullahi aleyhi* – deyir ki: «Allaha verilən İsim və Sifətlər tamamən ***Tovqifidir*** – Allah və Rəsulunun bildirməsi ilə bilinə bilər»[94]. İmam İshaq İbn Rahaveyh – *rahmətullahi aleyhi* – deyir ki: «Elm əhlinin inancına görə O, ərşə istiva etmişdir. Yeddinci yerin dibindəki hər şeyi də bilir»[95].

«İstiva Bilinməz Deyildir» sözü: Yəni dildə mənası bilinməz deyildir. Çünki mənası yüksəklik, üstə olmaq, yüksəlmək, çıxmaq deməkdir.

«Necəliyi Ağılla Dərk Olunmaz» sözü: Ağıllarımızla Allahın ərşinə istivasının necəliyini anlamağımız mümkün deyildir, deməkdir. Bunun yolu ancaq və ancaq nəqli dəlillər olan Quran və Sünnə (hədislərdir). Quran və Sünnədə Allahın ərşinə istivasının necəliyini bildirən hər hansı bir dəlil yoxdur. Buna görə də bu haqda bizdə dəlil olmadığı üçün bu mövzuda susub danışmamağımız daha məsləhətlidir. Sual ola bilər ki: «Allahın Sifətlərinin necəliyi varmıdır?». Cavab olaraq deyirik ki: «Allahın Sifətlərinin mənaları tərəfimizdən bilinməkdədir. Necəliyi isə bizim üçün bilinməzdir. Çünki Allah bizə, bu Sifətlərin mənalarını bildirmiş, necəliyini isə bildirməmişdir. Sələf mütləq olaraq necəliyi rədd

---

[92] «əl-Gunyə» s. 56,57, İbn Teymiyyə «Məcmuul Fətava» 5/85,86, Zəhəbi «Uluvv» (müxtəsər s. 284), İbn Qeyyim «İctimaul Cuyusil İslamiyyə» s. 175.

[93] Bu Söz İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* – dən də rəvayət edilir: "Mirkatul Məfatih Mişkətul Məsabih" 8/251, "Firəhul Emali" s.31, İbn Qudamə "İsbat" 104, Əbu Nuaym "Hilyətul Əvliyə" 6/325, Darimi "Raddu Alə Cəhmiyyə" s. 33, LəlƏkai "664, Beyhəqi "Əsmə" 408, 2/150-151, İbn AbdulBərr "Təhmid" 7/151, Zəhəbi "Uluv" s. 141, İbn Teymiyyə "Məcmuul Fətava" 5/365, İbn Həcər "Fəthul Bəri" 13/417, əl-Albani "Muxtəsər Uluv" 141, "Əqidətul Təhaviyyə" s. 281,302. Bu söz Ummu Sələmə – *radıyallahu anhu* – dan Movquf və ya Mərfu əsər olaraq rəvayət edilir. LəlƏkai "Usulu Sünnə" 663. Lakin daha çox İmam Məlik – *rahmətullahi aleyhi* – in sözü kimi məşhurdur. *Doğrusunu Allah Bilir!*

[94] Bədaiul Fəvaid 1/166.

[95] İmam Zəhəbi «Uluvv».

etməmişdir. Əsla, çünki bu bir tətildir. Allahın Sifətlərinin necəliyi vardır. Fəqət bu necəlik bizim üçün bir bilinməzdir. Çünki bir şeyin necəliyi, yalnız o, şeyi görməklə, ya bənzərini görməklə və ya onun haqqında gələn doğru xəbərlərlə bilinə bilər. Bu yolların heç biri Allahın Sifətləri haqqında mövcut deyildir. Sifətlər haqqında söz, zat haqında sözün bir budağıdır. Biz Allahın zatının necəliyinə varmadan qəbul etdiyimiz kimi, Sifətlərini də eyni onun kimi necəliyinə varmadan qəbul etməliyik. Sələflər deyirlər ki, müxaliflərdən biri sənə: «Allahın sifətlərindən hər hansı birinin necə olduğunu soruşarsa» ona belə de: «Yaxşı, Allah zatıyla necədir?» Heç şübhəsiz ki, Allahın zatının necəliyinə varmayacaqdır. O, zaman ona de: «Onun zatının necəliyini demək mümkün olmadığı kimi, Onun Sifətlərinin necəliyini deməkdə mümkün deyildir. Çünki sifətlər zata tabedirlər.

«Buna İman Vacibdir» sözü: Allahın özünə yaraşır bir şəkildə Ərşinin üzərinə İstiva etdiyinə inanmaq vacibdir. Çünki Allah özünü belə tanıtmışdır.

«Bu Haqda Sual Vermək Bidətdir» sözü: Bu isə İstivanın necəliyi haqqında sual vermənin bidət olduğu mənasına gəlməktədir. Çünki belə bir sualı Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - və səhabələrin zamanında verilməmişdir.

Allah, Qurani Kərimdə **7** yerdə: əl-Əraf **54**, Ta ha **5**, ər-Rad **2**, Yunus **3**, əs-Səcdə **4**, Furqan **59**, əl-Hədid **4**-də ***Alə*** – üzərinə ön qoşması ilə, ***«Rahmən ərşin üzərinə yüksəldi»***. *(Ta ha 5).* İki yerdə isə: əl-Bəqərə **29**, Fussilət **11**-də ***İlə*** – tərəf ön qoşması ilə, ***«Sonra səmaya tərəf üz tutaraq».*** *(əl-Bəqərə 29)*-də İstiva etdiyini bəyan etmişdi.

Müxaliflər İstiva kəlməsini bir çox mənalar ilə dəyişmişlər. Bunlardan ən məşhuru ***İstiva*** – sözünə ***Lə*** – şəkilçisi artıraraq ***İstəvlə*** – zəbt etmək, hökmü altına almaq mənasıdır. Heç bir qrammatika alimləri bu sözlərin eyni məna ifadə etdiklərini qeyd etməmişlər. ***İstiva*** – felin səkkizinci fəslinə aiddir və kökü ***Sin-Vav-Yə*** – dən ibarətdir. ***Əlif-Tə*** artırılaraq əmələ gəlib. ***İstəvlə*** – felin onuncu fəslinə aiddir və kökü ***Vav-Ləm-Yə*** – dən ibarətdir. ***Əlif-Sin*** artırmaqla düzəlir.

Şairin: ***Qad İstəvə Bişrun Aləl İraqi***
Min Ğayri Seyfin Və Dəmin Mihraqi
Bişr İraqı İstilə (zəbt etmdi, hökmü altına aldı),
Qılıncsız qan tökmədən.

Sözlərinə gəlincə bu beytin sənədi olmadığı kimi, onu kimin söylədiyi və ondan bu beyti kimin nəql etdiyi bilinməməkdədir. İbn Teymiyyə – *rahmətullahi aleyhi* – deyir: «Bunun ərəb şeri olduğuna dair səhih bir nəql

yoxdur. Dil (qramatika) imamlarından bir çoxu onu inkar etmiş və dildə bilinməyən uydurma bir beyt olduğunu söyləmişlər. Bilindiyi kimi Rəsulullah – *sallallahu aleyhi və səlləm* - bir hədis dəlil olaraq irəli sürülərsə şübhəsiz ki, onun səhih olması lazımdır. O, halda isnadı belə bilinməyən və dil imamlarının inkar etdiyi bir beytin nə hökmü ola bilər? Əbul Muzəffərin «***əl-İfsah***» adlı əsərində Xəlilə: «Dildə «***İstiva***» kəlməsinin «***İstəvlə***» mənasına gəldiyinə heç rast gəldinmi?» deyə soruşdular. O: «Bu həm ərəblərin bilmədiyi bir şeydir, həm də dillərində belə bir şey caiz (qəbul) deyildir. Xəlil dildə imamdır. O, halda İstivaya (dildə) bilinməyən bir məna yükləmək, batil bir məna yükləmək adlanır»[96].

Həmçinin bizə Qurani Kərimdən göründüyü kimi, sonra Ərşə yüksəldi. Müxaliflərin dediyi kimi olsa, sonra hökmü altına aldı – belə çıxır ki, əvvəl Ərş Allahın hökmü altında deyildi, həmçinin hökmü altına almaq acizliyin əlamətidir. Allah əvvəl aciz olub, sonra güc toplayaraq öz hökmü altına alıb. İkinci tərəfdən əgər Allah, onların dediyi kimi Ərşi hökmü altına alıbsa bəs qalan məxluqlar necə? Biz bilirik ki, Allah göyləri və yeri yaratmamışdan əlli min il əvvəl də hər bir şey Allahın hökmü altında olub və olacaqdır. İstivanın həqiqətini inkar edən hər kəs Muattıl olur. Yenə istivanı yaradılmışların bir-birlərinə olan istivasına bənzədən kimsə də Müşəbbih olur. Hər kimdə Allahın İstivasının bənzəri heç bir şey yoxdur deyərsə o, Muvahiddir (Tövhid əhlidir), Munəzzihdir (Allahı əskiklik və qüsur sifətlərindən təmizliyəndir).

ƏRŞ VƏ KURSİ

Əhli Sünnə Vəl Cəmaat - Ərş və Kursinin də haqq olduğuna inanırlar. ***Ərş*** **–** kəlməsi Qurani Kərimdə **21** yerdə qeyd olunur. ***«Şanlı ərşin sahibi də odur».*** *(əl-Buruc 15).* ***«Ərşin sahibi olan Allah».*** *(əl-Mumin 15).* ***«O, böyük ərşin sahibi olan Allahdan başqa ilah yoxdur».*** *(ən-Nəml 26).* ***«O, uca və kərim olan ərşin sahibidir».*** *(əl-Muminun 116).* ***Ərş*** *– Taxt deməkdir.* ***«Onun çox böyük əzəmətli ərşi*** *(taxtı)* ***də vardı».*** *(ən-Nəml 23).* ***«Yusif ata-anasını taxt*** *(öz taxtının)* ***üstünə qaldırdı».*** *(Yusif 100).*

Ərş mələklərin daşıdığı və tutacağı taxtdır. Ərşin tutacağı vardır. Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurur: «Qiyamət günü İnsanların çaşqın olan vaxtı ilk oyanan mən olacağam. Bir də baxıb görəcəm ki, Musa - *əleyhissəlam* - Ərşin dirəklərindən birindən tutub»[97].

[96] «Məcmul Fətava» 5/146. İbn Qeyyim "İctimaul Cuyuşil İslamiyya" s. 197-202 adlı əsərində İstiva barəsində bir çox şairlərin şerlərini də vermişdir. "Şərh Əqidətul Vasitiyyə" 1/378-379.
[97] Buxari 6991, 7427.

Aləmin üzərində Qübbə formasındadır Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «…Yazıqlar olsun sənə! Sən Allahın (böyüklüyünün və ucalığının) nə olduğunu bilmirsən? Şübhəsiz ki, Onun Ərşi göylərin (Başqa rəvayətdə: Yerlərin) üstündədir. (Allahın Ərşi) belədir deyib: «(Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - bu an) barmaqlarıyla işarə edərək: «Eynilə Qübbə kimidir. Kursünün yeni düzəldilmiş Dəvə palanının minənin ağırlığı (səbəbilə) qıcırdaması kimi qıcırdaması vardır» dedi[98].[99] Bütün məxluqatın tavanıdır. Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Allahdan Cənnəti istədiyiniz zaman Firdovsu diləyin. Çünkü o, Cənnətin orta yerində ən yüksək yerdədir. Onun üstündə Rahmənin Ərşi vardır. Cənnətin çayları oradan qaynayır»[100]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: "Allah bütün məxluqatı xəlq etməyi təqdir etdiyi zaman (Başqa rəvayətdə: Məxluqatı xəlq etməmişdən qabaq) Ərşinin üzərində, yanında olan (Başqa rəvayətdə: Kitabda – Lövi Məhfuzda) bunu qeyd etmişdir: Rəhmətim Qəzəbimi keçmişdir (Başqa rəvayətdə: Allah məxluqatı xəlq etdiyi zaman Öz nəfsi yanında: Rəhmətim Qəzəbimə qələbə çalmışdır[101])"[102].

Ərş – kəlməsini mülk, qüdrət kimi təhrif (dəyişmək) etmək istəyənlər bu ayələrə nə deyirlər. ***«Həmin gün Rəbbinin ərşini onların*** *(başı)* ***üstündə***

---

[98] Darimi "Rəddu Alə Bişri Mərisi" s. 105, İbn Əbi Asim "Sünnə" 55-576, İbn Huzeymə "Tovhid" s. 103-104, Təbərani "Kəbir" 1547, Darakutni "Sifət" s. 50-51, İbn Məndə "Tovhid" s. 188, 643, Ləlәkai 656, Beyhəqi "Əsmə" s. 417-418, 2/159, Zəhəbi "Uluv" s. 37-39, İbn Kəsir "Bidayə" 1/7-439, əl-Albani "Silsilə Daif" 2639, "Ziləlul Cənnə" 575,576, "Mişkət" 5727, "Daif Sünən Əbu Davud" 1017, "Şərh Əqidətul Təhaviyyə" s. 278,295, əl-Albani – *rahmətullahi aleyhi* – deyir ki: "Ərşin (Kursinin) qıcırdaması barədə Səhih rəvayət yoxdur". "Mişkət" 3/1596, "Silsilə Daif" 2/257, 2/307.

[99] İbn Kəsir – *rahmətullahi aleyhi* – nin söz açdığı hədisin mətini belədir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına bir qadın gələrək: "Allahın məni Cənnətə salması üçün dua et" dedi. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - Rəbbinə təzim etdikdən sonra buyurdu: Allahın Kursüsü (Başqa rəvayətdə: Ərşi) göyləri və yeri əhatə etmişdir. (Allah Kurüsün üzərinə oturar və ondan (Başqa rəvayətdə: Ərşdən) dörd barmaq belə boş yer qalmaz) Kursünün yeni düzəldilmiş Dəvə palanına minənin ağırlığı (səbəbilə) qıcırdaması kimi qıcırdaması vardır". İbn Kəsir 1/318, "əl-Bidayə" 1/11, İbn Əbi Asim "Sünnə" 574, Bəzzar "Musnəd" 1/317, İbn Həcər "Məcmuuz Zəvaid", Əbu Yəla "Musnəd", İbn Huzeymə "Təhmid" s. 106, Təbəri 5798, Ömər – *radıyallahu anhu* – yoluyla "Mərfu" olaraq Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* - Darimi "Rəddu Alə Bişri Mərisi" s. 74, Əhməd "Sünnə" 585, 593, Həkim, Tirmizi "Raddu Alə Mutəzilə", İbnul Covzi "Mutənahiyə" 1/4, Zəhəbi "Uluv" s. 39, Hədiz həm mətin, həm də sənədinə görə Muzadaribdir, əl-Albani "Silsilə Daif" 2/256-257, 866, "Zilәlil Cənnə" 1/252, 574 "Munkər" hədis. ***Həmçinin*** – Əbu Musa əl-Əşari – *radıyallahu anhu* – yoluyla: "Kursi iki ayağın qoyulduğu yerdir. Kursünün palanın qıcırdaması kimi qıcırdaması vardır". Əhməd "Sünnə" 588, Təbəri 5790, İbn Məndə "Raddu Alə Cəhmiyyə" s. 46, Beyhəqi "Əsmə" s. 404, 2/148, Zəhəbi "Uluv" s. 84, İbn Həcər "Təhzibut Təhzib" 7/356, əl-Albani "Silsilə Daif" 2/306,307, "Muxtəsər Uluv" s. 124.

[100] Buxari 6987, Tirmizi 2530, əl-Albani "Səhih".

[101] Tirmizi 2/271, Əhməd 2/433, İbn Məcə 4295, əl-Albani "Səhih Silsilə" 1629.

[102] Buxari 6986, 7115, Müslim 2751.

səkkiz mələk daşıyacaqdır». *(əl-Həqqa 17).* ***«Onun ərşi suyun üzərindədir».*** *(Hud 7).* İmran İbn Huseyn – *radıyallahu anhu* – rəvayət edir ki, Bəni Təmim qəbiləsindən bir qrup insan Rəsulullah – *sallallahu aleyhi və səlləm* – ın yanına gəldilər. Peyğəmbər: "...(əzəldən) Allah vardı və Ondan öncə heç bir şey yox idi. Ərşi də su üzərində idi. Sonra Allah göyləri və yerləri yaratdı. Sonra hər bir şeyin zikrini təqdir etdi (Başqa rəvayətdə: Əbu Rəzin əl-Ukayl – *radıyallahu anhu* – deyir ki: "Ey Allahın Rəsulu! Rəbbimiz bu məxluqatı yaratmamışdan əvvəl harada idi?". Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «O, tək başına heç bir şey olmadan O, vardı. Altı hava, üstü hava (boşluq) idi. Ərşi də su üzərində yaratdı[103])»[104]. Abbas İbn AbdulMuttalib – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - səhabələrə buyurdu: «Bilirsinizmi, səma ilə yer arasında nə qədər məsafə var?» Səhabələr: «Allah və Rəsulu daha gözəl bilir». Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Onlar arasında məsafə **500**-ildir. Həmçinin hər bir səma ilə (o, biri səma qatı arası) **500**-ildir. Hər bir səmanın qalınlığı da **500-il** yürümə qədərdir. Yeddinci səma ilə Ərşin arasında dəniz vardır (Başqa rəvayətdə: Yeddinci səma ilə kürsi arasında məsafə **500**-ildir. Kürsi ilə dəniz arasında da **500**-ildir. Ərş isə dənizin üzərində yerləşir. Allah isə Ərşin üzərindədir[105]). Bu dənizin dibi ilə səthi arası səma ilə yer arasında olan məsafə qədərdir. Allah bunların hamısından yuxarıdadır. Adəm övladlarının heç birinin əməli ondan gizli qalmaz»[106].[107] Mucahid – *rahmətullahi aleyhi* – deyir ki: "Yeddinci səma

---

[103] Tirmizi «Tuhvətul Əhvəzi» 8/528, İbn Məcə «Muqəddimə Fi Mə Ənkərat Həsən əl-Cəhmiyyə», Əhməd «Musnəd» 4/11, əl-Albani əs-Sunnənin təhricində 216 zəif.
[104] Buxari 6982.
[105] İmam Zəhəbi "Muxtəsər Uluv" 103, Darimi "Raddu Cəhmiyyə" 26, İbn Huzüymə "Tövhid" 105,376, Beyhəqi "Əsmə" 301.
[106] Tirmizi 3317, Əbu Davud 4723-4725, Əhməd 1/206-207, İbn Məcə 193, Beyhəqi "Əsmə" 401, əl-Albani "Zəif" 1247.
[107] Bu hədisi bu cür ləfsdə göstərilən qaynaqların heç birində tapa bilmədim. Bu qaynaqlarda gələn və əl-Albaninin "Zəif" 1247-adlandırdığı hədisin ləfsi budur: Abbas İbn AbdulMuttalib ﷺ rəvayət edir ki, Bathada Rəsulullah – *sallallahu aleyhi və səlləm* - ilə bərabər bir məclisdə isim. Bir bulud keçdikdə Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: "Buna nə ad verirsiniz?". Orada olanlar: "Səhab (bulud)" dedilər. Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: "Muznə" deyirsinizmi? Onlar: "Bəli" dedilər. Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: "Bəs – Anan" deyirsinizmi? Oradakılar: "Bəli, elə də deyirik" dedilər. Peyğəmbər: "Yerlə səma arasında nə qədər məsafə olduğunu bilirsinizmi?" deyə buyurdu. Onlar: "Xeyr" bilmirik. Peyğəmbər: "Yer ilə Səma arasında **71, 72** və ya **73-illik** məsafə vardır. Bunun üzərində olan ikinci səma da eynilədir. (Beləcə bütün səmaları zikr etdikdən sonra) buyurdu: Yeddinci səma üzərində elə bir dəniz vardır ki, səthi ilə dibi arasında olan məsafə iki göy arasında olan məsafə qədərdir. Sonra onların üzərində səkkiz (Mələk - *Allah Daha Doğru Bilir*) vardır ki, onların dıqnaqları ilə belləri (diz qapaqları) arasında olan məsafə iki səma arasında olan məsafə qədərdir. Onların bellərində altı ilə üstü iki səma arası məsafə qədər olan Ərş vardır. Uca və Böyük olan Allah bunların üzərindədir".

ilə Ərş arasında **70000** min hicab var. Musa - *əleyhissəlam* - yaxınlaşmağa davam edirdi. Hətta o, qədər yaxınlaşdı ki, Musa və Ərş arasında bir hicab qaldıqda o, öz yerini gördü və (Qədəri) yazan qələmin cırıltısını eşitdikdə buyurdu: "Ya Rəbbim! İzin ver Sənə baxım"[108]. Həsənul Bəsri – *rahmətullahi aleyhi* – deyir ki: "Məxluqatdan İsrafil - *əleyhissəlam* - qədər Allaha yaxın olan məxluq (mələk) yoxdur. Onunla Rəbbi arasında **70** hicab vardır və hər bir hicab (arasında) **500**-illik məsafə vardır. İsrafil - *əleyhissəlam* - bütün bunlardan yüksəkdədir. Onun başı Ərşin altında, çiyinləri isə yeddi səmanın sonundadır"[109].

Rəhmanın Ərşinin ağırlığı, böyüklüyü haqqında Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurur: «Yaratdıqlarının sayı qədər, özünün razı olacağı qədər, Ərşinin ağırlığı qədər və kəlmələrinin sayı qədər Allaha həmd edərək o, pak və nöqsansızdır»[110]. Rəsulullah – *sallallahu aleyhi və səlləm* - sıxıntı anlarında buyurardı: «Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur. O, çox böyükdür, Həlimdir. Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur. O, böyük Ərşin Rəbbidir. Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur. Göylərin Rəbbidir, yerin Rəbbidir. Kərim olan Ərşin Rəbbidir»[111]. Cabir – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Sad b. Muaz – *radıyallahu anhu* – barəsində buyurdu: "Onun ölümünə görə (Rəbbimin) Ərşi titrədi, səma qapıları açılaraq oradan **70** min mələk (enərək onun cənazəsində) iştirak etdi. İlk öncə (Qəbir) onu sıxdı, sonra isə bu sıxıntıdan qurtardı»[112].

Kursi Ərşdən sonra gəlib, ondan ayrıdır. Kursi dildə – döşək və ya üzərində otrulan hər şey deməkdir. ***«And olsun ki, biz Süleymanı imtahana çəkdik. Taxtının üstünə bir cinn oturtduq*** *(və ya ruhsuz bir cəsəd atdıq)*. ***Sonra o*** *(peşman olub tövbə etdi və yenidən öz mülkünə taxtına)* ***qayıtdı».*** *(Sad 34).* Allahın Kursisi isə onun iki ayağının qoyduğu yerdir. İbn Abbas – *radıyallahu anhu* – dedi: «Kursi iki ayağın qoyulduğu yerdir. Ərşin böyüklüyünü isə Allahdan başqa heç kəs bilməz»[113]. O, da

---

[108] Beyhəqi "Əsmə" 508, Zəhəbi "Uluv", əl-Albani "Səhih".
[109] İbn Qudamə" İsbat" 111, Zəhəbi "Uluv", Bəğavi "Təfsir".
[110] Müslim.
[111] Buxari, Müslim.
[112] Buxari 3808, Səhih Sünən Nəsəi 1942.
[113] İbn Abbas – *radıyallahu anhu* – nun sözü olaraq "***Movquf***" səhihdir: Əhməd "Sünnə" 586,1020,1021, İbn Əbi Şeybə "Kitabul Arş" 61, İbn Huzüymə "Tovhid" s. 107, 248, Həkim "Mustədrək" 2/310, 3116, Darakutni "Kitabul Nuzul" 36,37, 49-50, Təbəri 5789, Darimi "Rəddul Mərisi" s. 67,71-73, İbn məndə "Rəddul Cəhmiyyə" 15, Beyhəqi "Əsmə" s. 404, 2/148, İbn Kəsir 1/317, Zəhəbi "Uuv" 45, Əhməd Şakir "Umdətul Təfsir" 2/162, Heysəmi "Məcmuus Zəvaid" 6/323, əl-Albani "Muxtəsər Uluv" s. 102, "Şərh Əqidətul Təhaviyyə" s. 279, 299, ***Mərfu*** – Peyğəmbər sözü olaraq edilən rəvayət zəifdir. Bax: "Silsilə Daif" 906. ***Həmçinin*** – Əbu Musa əl-Əşari yolu ilə

Qurani Kərimdə yalnız bir yerdə qeyd olunur. ***«Onun kursisi göyləri və yeri əhatə etmişdi».*** *(əl-Bəqərə 255).* Kursinin elm olması haqda bəzi alimlər hədislər də gətirirlər. Lakin bu hədislərin hamsı zəifdir[114].

Ərş – ilə Kursinin müqayisəsini Əbu Zərr – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - belə izah edir. «Yeddi qat göy və yeddi qat yer, Allahın Kusisi yanında geniş səhraya atılmış bir halqa kimidir. Ərşin Kursiyə üstünlüyü isə bu geniş səhranın halqaya üstünlüyü kimidir»[115]. İbn Zeyd – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Yeddi qat göy və yeddi qat yer Kursi ilə müqayisədə qalxanın içərisinə atılmış yeddi dirhəmə oxşayır»[116]. İbn Abbas – *radıyallahu anhu* – dedi: «Yeddi səma və yeddi yer Rəhmanın əlinin içində (ovcunda) sizdən birinizin əlinin içində tutduğu xardal dənəsinə oxşar».

Sələflər deyirlər ki, müxaliflərdən biri sənə: «Allahın Ərşinə İstivasını, Ərşin üzərində, üstündə olmasıyla açıqlayırsınızsa deməli Allahı üstündə daşıyacaq bir taxta (Ərşə) möhtac olduğunu irəli sürmüş olursunuz». Buna cavab olaraq belə deyirik: «Allahın Ərşə də Kursiyə də ehtiyacı yoxdur. Allah Ərşə ehtiyacı olduğu üçün İstiva etməmişdir. Allah Ərşə də, başqa şeylərə də möhtac olmaqdan münəzzəhdir. Allahın böyüklüyünü, qüdrət, qüvvət və zənginliyinin mükəmməlliyini bilən hər kəs Allahı üstündə daşıyacaq bir taxta ehtiyacı olduğunu ağlının ucundan belə keçirməz. Necə keçirsin ki? Allahın izzəti və uluhiyyəti Ərş və Kursidən də çox ucadır. Ərş də, Kursi də və digər yaradılmışlar da Allaha möhtacdırlar və Onun qüdrəti və hökmü ilə daşınmaqdadır. ***«Əlbəttə, Allah aləmlərə möhtac deyildir».*** *(Ali İmran 97).* ***«Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə*** *(heç nəyə)* ***möhtac deyildir».*** *(Fatir 10).* Bütün bu yaradılmışlar O, olmadan nə var ola bilirlər, nə də ayaqda dura bilirlər. Necə ki, göyün

---

"Movquf" olaraq rəvayət edilmişdir. Əhməd "Sünnə" 588,1022, Təbəri 5790, İbn Əbi Şeybə "Kitabul Ərş" 60, Beyhəqi "Əsmə" s. 404, 2/148, əl-Albani "Muxtəsər Uluv" 124, "Silsilə Daif" 2/306,307.

[114] əl-Albani – *rahmətullahi aleyhi* – Kursinin elm olduğuna dair İbn Abbas – *radıyallahu anhu* – dan edilən rəvayət haqqında deyir ki: "Bu rəvayətin İbn Abbas – *radıyallahu anhu* – ya isnadı səhih deyildir". "Silsilə Səhih" 1/226. ***Həmçinin*** – Kursinin Ərş olduğu barədə Həsənul Bəsri – *rahmətullahi aleyhi* – dən rəvayət edilən soz də İbn Kəsir – *rahmətullahi aleyhi* – nin söylədiyi kimi zəif olub Ondan səhih olaraq gəlməmişdir. İbn Cərir 5796, İbn Kəsir 1/318, "Təhzibut Təhzib" 2/113, Qurtubi "Cəmiul Əhkəmul Quran" 3/180-181, əl-Albani – *rahmətullahi aleyhi* – deyir ki: "Kursinin öz mənasından başqa digər bütün mənaları (elm olması, Ərş olması) rəvayətləri zəifdir". "Səhih Silsilə" 1/226. «Fəthu Rabbil Bəriyyə bi Təlhisil Həməviyyə» Ərş və Kursi bölümü. Useymin – *rahmətullahi aleyhi* – nin şərhi ilə.

[115] Əhməd 5/178,179, Bəzzar 160, Nəsəi 9/180, İbn Əbi Şeybə "Kitabul Ərş" 58, İbn Hibban "İhsan" 361, Zəhəbi "Uluv" 105, Beyhəqi "Əsmə" 2/149, əl-Albani "Səhih" 109, 1/226, "Muxtəsər Uluv" s. 130, "Şərh Əqidətul Təhaviyyə" s. 280,300.

[116] İbn Cərir ət-Təbəri.

və yerin Onun əmri ilə ayaqda durması Onun (varlığının və qüdrətinin) əlamətlərindəndir. ***«Göyün və yerin Onun əmrində durması… Onun qüdrət əlamətlərindəndir».*** *(ər-Rum 25).* İmam Təhavi – *rahmətullahi aleyhi* – Əbu Hənifə – *rahmətullahi aleyhi* – nin Ərş və Kursi barəsində olan inancını bu sözlərlə ifadə edir: "Ərş və Kursi haqdır. Allahın Ərşədə, aşağı olan şeylərə də ehtiyacı yoxdur. Allah hər şeyi və bunun üzərindəki Ərşi də (elmi ilə) əhatə etmişdir. Özünü əhatə etməkdən isə yaratdıqlarını aciz buraxmışdır"[117]. Sələflər deyirlər: «Biz Allahın ehtiyac olmadan Ərş üzərinə İstiva və istiqrar etdiyini iqrar edirik. O, ehtiyac olmadan Ərşi də başqalarını da mühafizə edər»[118].

ALLAH - *Subhənəhu Və Təalə* - nin ULUV – UCALIQ SİFƏTİ VƏ SƏMADA OLMASI

Ərşin üzərində olmasına baxmayaraq, bütün yaratdıqları üzərində uca, onlardan ayrı olmasına baxmayaraq, onları görən, onların nə halda olduqlarını bilən, hər şeyi elmi ilə əhatə edən də odur. Heç bir şey ondan gizli qalmaz, kimsə onunla çəkişməz, ona qarşı çıxmaz, ona heç bir şeydə əngəl olmaz. Əksinə hər şey onun əzəməti önündə boyun əyər, izzəti qarşısında zəlildir. Hər şey onun hökmü, idarəsi altındadır. O, şanı etibarı ilə ən yüksəkdir. O, bütün kamil sifətlərin sahibidir, bütün əskikliklər ondan uzaqdır. ***Əzizdir, Cəlildir***, şanı mübarək və çox ucadır.

Uluv – Ucalıq deməkdir. Allahın zatı sifətlərindən olub iki qismə ayrılır:

1. *Sifətlərin Uluvvu* – Bu var olan hər kamil sifətin hər baxımdan ən ucasının və ən mükəmməlinin sadəcə Allaha aid olması deməkdir. İstər bu sifət ***Məcd*** (şərəf) və ***Kahr*** (kahr etmə) sifətlərindən, istərsə ***Cəmal*** (gözəllik) və ***Qadr*** (şan, şərəf, hörmət) sifətlərindən olsun heç fərq etməz.

2. *Zatın Uluvvu* – Bu isə Uca Allahın zatıyla bütün yaratdıqlarının üstündə olması deməkdir. Sələflər deyirlər ki: «Hər kim Allahın (zatıyla) göydə olduğunu inkar edərsə heç şübhəsiz ki, kafir olmuşdur»[119].

Allahdan bir şey istədikdə yuxarıdan istənilir, aşağıdan deyil. Çünki aşağı heç bir şeydə Rububiyyət və Uluhiyyət sifətlərindən deyildir. Həmçinin yüksəklik alçaqlığın ziddidir. Alçaqlıq da əskiklik sifətindəndir. Zatıyla yüksəkdə olan Allah isə bütün əskik sifətlərdən münəzzəhdir. Allahın zatıyla yüksəkdə, yuxarıda olduğunu göstərən üç İsmi vardır. Bunlar ***əl-Aliyy***[120], ***əl-Ələ***[121] və ***əl-Mutəalidir***[122]. Bunların üçü də Qurani

---

[117] əl-Albani "Şərh Əqidətul Təhaviyyə" s. 277,280.
[118] «Əqidətul Vasitiyyə» s. 73.
[119] Zəhəbi «Müxtəsər əl-Uluvv» s. 137.
[120] Bax: əl-Bəqərə 255, ən-Nisa 34, əl-Həcc 62, Loğman 30, Səba 23, əl-Mumin 12, əş-Şura 51.

Kərimdə zikr edilmişdir. Allah daima uca və böyükdür. Allahın uca və böyük olmasını isə: **1.** Qurani Kərim. **2.** Sünnə. **3.** Səhabələrin icması. **4.** Ağıl. **5.** Fitrət sübut edir.

Allahın səmada olmasına Quran və Sünnədə **18**-cür isbat vardır:

1. ***Min*** – dan, dən, ön qoşması ilə Allahın yüksəkdə olması - Fövq. ***«Onlar, onların fövqündə olan Rəblərindən qorxarlar».*** *(ən-Nəhl 50).*

2. ***Min*** – dan, dən, ön qoşması gəlmədən. ***«O, öz qulları üzərində hakim-mütləqdir».*** *(əl-Ənam 18 və 61).*

3. Ona doğru yüksəliş. ***«Mələklər və ruh onun dərgahına müddəti əlli min il olan bir gündə qalxarlar»****. (əl-Məaric 4).* Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurur: «Onların arasında gecələyən mələklər yuxarıya qalxarlar (uruc edərlər). Allah onlardan soruşar….»[123].

4. ***Saədə*** – ***Suud*** – qalxmaq sözündən. ***«Pak söz ona tərəf yüksələr».*** *(Fatir 10).* Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurur: «Allaha gözəl olandan (halaldan) başqa bir şey yüksəlməz»[124]. Əbu Musa əl-Əşari - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah yatmır. Ona yatmaq yaraşmaz. Mizanı (Başqa rəvayətdə: Ədaləti) endirsin və ya qaldırsın. Gündüzün əməlindən əvvəl gecənin əməli, gecənin əməlindən əvvəl gündüzün əməli ona (Allaha) yüksəlir (qaldırılır) Onun örtüyü (pərdəsi, hicabı) nurdur. (Əbu Bəkr - *radıyallahu anhu* – nun rəvayətində pərdəsi atəşdir). Əgər üzündəki pərdəni qaldırsa üzünün nurları yaratdığı hər bir şeyi yandırar»[125].

5. ***Rafaə*** – ***Yarfəu*** – qalxmaq sözündən. Bir çox məxluqatı özünə doğru yüksəldən. ***«Ya İsa! Həqiqətən mən sənin ömrünü tamam edib öz dərgahıma qaldıraram».*** *(Ali İmran 55).* ***«Xeyir! Allah onu öz dərgahına qaldırmışdı».*** *(ən-Nisa 158).*

6. Mütləq ***Uluv*** (ucalıq) həm zatı, həm də sifətləri ilə. ***«O, Alidir*** *(ucadır)* ***və Azimdir*** *(böyük)». (əl-Bəqərə 255).* ***«Allah hər şeydən uca və böyükdür»****. (əl-Həcc 62).*

7. Kitabın onun tərəfindən endirilməsi. Nazil olması. ***«O, yeri və uca göyləri yaradan Allah tərəfindən endirilmişdi».*** *(Ta ha 4).* ***«De ki, onu***

---

[121] Bax: ən-Nəziət 24, əl-Ələ 1, əl-Leyl 20.

[122] Bax: ər-Rəd 9.

[123] Buxari 555,3223,7429,7486, Müslim 632, Məlik 1/155, H. 82, əl-Albani "Səhih" 8019, "Mişkət" 626.

[124] Buxari 1410,6993,7340, Müslim 1014, İmam Əhməd 3/33,418, əl-Albani «Muxtasarul Uluvv» s. 86, 11, "İrva2 886, "Mişkət" 1/431, "Səhih" 5600,6152.

[125] Müslim 179/293, İmam Əhməd 4/395,401, İbn Məcə 195, Darimi «ər-Rədd aləl Mərisi» s. 173, Beyhəqi «Əsmə və Sifət» s. 402, əl-Albani «Muhtasarul Uluvv» s. 86, «Səhih Cəmius Səğir» 1860.

Ruhul-Qüds *(Cəbrail)* ***Rəbbindən haqq olaraq endirmişdi».*** *(ən-Nəhl 102).* ***«Həqiqətən biz Quranı dünya səmasına nazil etdik».*** *(Qədir 1).*

8. Bəzi məxluqların ona yaxın olması. ***«Rəbbinin yanında olanlar».*** *(əl-Əraf 206).* ***«Göylərdə və yerdə nə varsa onundur. Onun yanında olanlar isə…»*** *(əl-Ənbiya 19).* Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurur: «O, kitab onun yanında Ərşin üstündədir»[126]. ***«Fironun yoldaşı*** *(Asya dua edərək)* ***Ey Rəbbim! Öz dərgahında mənim üçün ev qərar et və məni Firon və onun əməlindən qurtar. Məni zalım qövmdən xilas et».*** *(Təhrim 11).*

9. *Fi* – da, də, ön qoşması ilə Allahın göydə olması. ***«Göydə olanın yeri titrədib sizi onun dibinə göndərməyəcəyinə əminsinizmi. Göydə olanın sizin üstünüzə daş yağdıran bir yel göndərməyəcəyinə arxayınsınızmı?»*** *(Mulk 16,17).* İbn Ömər – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Rəhman olan Allah Rəhm edənlərə Rəhm edər. Yerdə olanlara rəhm edin ki, səmada olan da sizə rəhm etsin»[127]. Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Siz mənə iman gətirmirsiniz (Etibar etmirsiniz). Mən səmada olanın əminiyəm (Səmada olan mənə etibar etdiyi halda). Səhər-axşam mənə səmalardan xəbərlər gəlir»[128].

Allahın göydə olması bu iki mənadan birini kəsb edir[129].

1) Burada göy ilə yüksəklik qəsd edilmişdir. Buna görə də məna: «Allah yüksəkdədir, yəni yüksəklik yönündədir». Göy, Qurani Kərimdə sabit

---

[126] Buxari, Müslim.

[127] Buxari, Müslim.

[128] Buxari 3344,3610,4351,5058,6931,7562, Müslim 1063, Huzeymə 2373, Əbu Davud 4764, əl-Albani "Muxtəsər Uluv" s.84, "Səhih" 2645, "İrva" 864.

[129] ***Yön (Tərəf, İstiqamət, Məkan)*** Bu bölümdə Allah üçün yön olub-olmadığı barədə danışacağıq. Allah üçün yön (məkan) təyin etmək doğru deyildir. Əgər yön (məkan) deməklə alçaqlıq (aşağı) qəsd edilmişsə bu Allah üçün qəbul edilməzdir. Çünki Allah zatıyla, sifətlərilə Ucadır. Əgər yön (məkan) deməklə yüksəklik tərəf qəsd edilmişsə, bu da Allah üçün qəbul edilməzdir. Çünki Allahı yaratdıqlarından heç bir şey əhatə edə bilməyəcək qədər Böyük və Ucadır. Kursisi göyləri və yerləri əhatə etmişkən yaratdıqları Onu necə əhatə edəbilər? Əgər yön (məkan) ilə Allahı əhatə etmək olmadan Onun Böyüklüyünə və Ucalığına yaraşır yüksəkli yönü qəsd edilmişsə, bu Allah üçün var olan həqiqətdir. Əgər səndən: Siz Allahın yaratdıqlarından bir şeyin Onu əhatə etmiş ola biləcəyini rədd edisiniz. Allahı Kitabında və Peyğəmbərin Sünnəsində: Allahın göydə olması – sözünə nə deyirsiniz?". Cavab: Allahın göydə olması göyün Onu əhatə etməsini bildirməz. Allahın göydə olmasını – göyün Onu əhatə etdiyini söyləyən kimsə sapıq, əgər başqasına nisbət edərək söyləmişsə yalançı və xətalıdır. Allahın böyüklüyünü, Onun hər şeyi (Elmilə) əhatə etdiyini, Qiyamət günü yer üzünün Onun ovcunda olacağını, göyü kitab səhifəsi kimi bükəcəyini bilən bir kimsə əsla yaratdıqlarından hər hansı bir şeyin Onu əhatə etdiyini ağlına belə gətirməz"[129]. ***Cism -*** Allahın Cism olması mümkün deyidir. Cism haqqında danışmaq və Allahın cism olub-olmadığını söyləmək Kitab, Sünnət və Sələfin sözlərində keçməyən bidətdir. Cism iki və daha çox maddədən əmələ gələn bir şeydir, kütlə. Əgər cisimdən hər bir parçası digərinə möhtac olan bir neçə parçalardan yaranan, sonradan var olmuş bir şey qəsd edilirsə bu ***Həyy*** və ***Qayyum*** olan Allah haqqında mümkün deyidir[129].

olan yüksəklik mənasındadır. Məs: ***«Göydən üstünüzə yağış yağdırmışdır».*** *(əl-Ənfal 11)*[130]. Yəni göyün özündən deyil, yüksəkdən su (yağış) endirir. Çünki yağış buluddan enər (yağar).

2) Ayədə keçən «***Fi – Səməi***» ləfsindəki *«**Fi**» «**Alə**»* mənasındadır ki, bundan da «Allah göyün üstündədir» olur. Qurani Kərimdə bir çox yerlərdə *«**Fi**»* (da, də içində), *«**Alə**»* (üstə, üzərində) mənasına gəlməkdədir. Məs: ***«Yer üzündə dolaşın».*** *(ət-Tövbə 2).* Yəni yerin üzərində dolaşın, içində deyil. *(Firon dedi)* ***Mən də sizin əl-ayağınızı çarpaz kəsdirib xurma ağaclarının kötüklərindən asacağam».*** *(Ta ha 71).* Yəni xurma ağacının üzərinə asacağam, içinə deyil.

10. *İstiva* – ucalması. ***«Rahmən ərşin üzərinə yüksəldi»****. (Ta ha 5).* ***«O, böyük əzəmətli Ərşin sahibi».*** *(əl-Muminun 86).*

11. Dua edərkən əllərin qaldırılması. Salman Farisi – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Həya və Kərəm sahibi olan Rəbbimiz əllərini ona tərəf qaldıran qulunun əllərini geri boş qaytarmaqdan utanır»[131]. Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir ki: «Uca Allaha əllər yuxarıya qaldırılaraq dua edilir. Aşağıdan dua edilməz. Aşağıda olmanın Rububiyyətdən və Uluhiyyətdən heç bir əlaqəsi yoxdur»[132].

12. Allahın dünya səmasına enməsi. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Rəbbimiz hər gecənin **1/3-**də dünya səmasına enir və buyurur: Mənə dua edənin duasını qəbul edərəm, məndən istəyənin istədiyini verərəm, bağışlanma diləyəni bağışlayaram»[133].

13. Rəsulullah – *sallallahu aleyhi və səlləm* - in vida həcci. Cabir b. Abdullah – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsululah – *sallallahu aleyhi və səlləm* - vida həcci zamanı xütbəsində buyurdu: «Mən sizə dində olan hər bir şeyi çatdırdımmı?» Səhabələr: «Bəli, ya Rəsulullah!» Allah Rəsulu şəhadət barmağını qaldıraraq: «Ya Rəbbim! Sən şahid ol ki, mən onlara hər bir şeyi çatdırdım»[134].

14. ***Əynə*** – harada? Sözünün işlədilməsi. Müaviyə b. əl-Həkəm əs-Sələmi – *radıyallahu anhu* – rəvayət edir ki, bir cariyəm var idi. Çöldə qoyun otarırdı. Bir gün canavar qoyunlardan birini yediyinə görə çox

---

[130] Bax: əl-Bəqərə 22, İbrahim 32, ər-Rəd 17, əl-Hicr 22, Ta ha 53, əl-Həcc 5, 63.
[131] Əbu Davud 1488, Tirmizi 3551, İbn Məcə 3865. Musnəd 5/438, əl-Albani "Səhih".
[132] Fikhul Əbsat s. 51.
[133] Buxari 1145, Müslim 168, 758, Əbu Davud 1315,4733, Tirmizi 446,3498, İbn Məcə 1366, Darimi 1478, Əhməd "Sünnə" 153, Ləlakai 745, Zəhəbi "Uluv" 78, əl-Albani "Ziləlul Cənnə" 492-503, "İrva" 450, "Səhih" 8165, Mişkət "1223.
[134] Müslim 1218, Əbu Davud 1905, İbn Məcə 3074, Darimi 1850, Zəhəbi "Muhtəsər Uluv" 2, əl-Albani "Uluv" 83, "İrva" 4/210-209, 1017, "Mişkət" 2/783-787, 2555.

qəzəbləndim. Hətta cariyəyə sillə də vurdum. Peşmançılıq çəkdim və hadisəni Rəsulullah – *sallallahu aleyhi və səlləm* - ə danışdım. Allah Rəsulu buyurdu: «Cariyəni yanıma çağır». Cariyə gəldikdə, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Sən möminəsən?» O, da bəli dedikdə Rəsulullah – *sallallahu aleyhi və səlləm* - buyurdu: «***Əynəallah*** – Allah haradadır?»[135].

15. Allahın səmada olmasını söyləyənin iman sahibi olması. Muaviyə b. əl-Həkəm əs-Sələmi – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - cariyədən soruşdu: «***Əynəallah*** – Allah haradadır?» Səma üzərində. Bəs mən kiməm? «Sən Allahın Rəsulu»[136]. Bəlkə də bizlərin Allah haradadır deyə sual verməyimizə gülə bilərlər. Lakin yaradılmışların ən mükəmməli, Rəbbimizi ən gözəl tanıyan Allah haqqında haradadır deyə sual verdiyini unutmuşlar? O, da cariyənin gözəl cavabını qəbul etmişdir.

16. Fironun Allahın səmada olmasını yalanlaması. ***Firon dedi: «Ey Haman! Mənim üçün bir qəsr tik ki, bəlkə göylərin yollarına yetişim və Musanın Rəbbini görüm. Doğrusu mən onu yalançı sayıram».*** *(əl-Mumin 36-37).* Yəni Firon, Musa – *əleyhissəlam* - ın İlahının səmada olmasına dair vermiş olduğu xəbərin yalan olduğunu sayırdı. Buna görə də Firon öz qövmünə bunu sübut etmək üçün Hamana onun üçün Qəsr tikməsini əmr edir və sonra: ***«Doğrusu mən onu yalançı sayıram».*** *(əl-Mumin 36-37).* O, halda belə bir sual ortaya çıxır: «Nisbət etibarı ilə kim Firona daha yaxın olur? Allahın səmada olmasını qəbul edən bizlər? Yoxsa???» Heç şübhəsiz ki, Firon, Musa – *əleyhissəlam* – ın İlahının səmada olmasını yalan saymışdı. Allahın ucalığını və səmada olmasını qəbul etməyənlər Firon, səmada olmasını qəbul edənlər isə Musa və Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in yolundadırlar.

17. Rəsulullah – *sallallahu aleyhi və səlləm* - in merac səfəri. Onun orada Peyğəmbərlərlə görüşməsi, Allahın dərgahında namazın fərz olması və s[137]. Zeynəb – *radıyallahu anhə* – möminlərin anası, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - in zövcəsi – o biri qadınların yanında daima fəxr ilə deyərdi: «Sizi atalarınız ərə verib, məni isə Allah yeddi qat səma üzərində evləndirib»[138].

---

[135] Müslim 537, «əl-Fiqhul Əbsat» s. 47,48.

[136] Müslim 537.

[137] Buxari, Müslim.

[138] Buxari 6984, Beyhəqi "Əsməu Və Sifət" səh: 315,316, №880, Suyuti "Durul Mənsur" 6/611,612, "Xasaisul Kubra" 2/368, İbn Qudamə "İsbat Uluv" səh 109, İbn Kəsir "Təfsirul Quran" 6/407, "Səhih Sünən Tirmizi" 3213.

18. Qiyamət günü Cənnət əhlinin öz Rəblərini görmələri. ***«O, gün neçə-neçə üz öz Rəbbinin camalına baxıb sevinəcəkdir».*** *(əl-Qiyamət 22-23).*

Mən deyirəm ki, Allah Qurani Kərimdə bir çox ayələrin sonlarında buyurur ki, bu ayələrdə ağıl sahibləri, hikmətli insanlar üçün ibrətlər vardır. Ağlı olmayan insan yalnız bu qədər dəlilləri inkar edib Allahın göydə olmasını qəbul etməyə bilər. Səhabələrin, Tabiinlərin, Sələfi Salihin alimlərinin və bütün haqq yolda olan müsəlmanların da qəbul etdiyi, Allahın səmada olmasıdır. Əbu Muti deyir ki, Əbu Hənifə – *rahmətullahi aleyhi* - dən: "Mən Rəbbimin səmada, yoxsa yerdə olduğunu bilmirəm deyən kimsə barəsində soruşdum". O, dedi: «Bu kimsə kafir olur». Çünkü Allah buyurur: ***«Rahmən ərşin üstünə yüksəldi»****. (Ta ha 5).* Onun Ərşi isə yeddi səmanın üstündədir. Mən: «Əgər o, Ərşin üzərindədir dediyi halda, bilmirəm Ərş səmadadır, yoxsa yerdədir" desə? O, dedi: «Yenə o, kafirdir. O, Allahın səmada olmağını inkar edir»[139].

Ağıl və Fitrət ilə isbata gəlincə, bütün insanlar təbiətləri və səlim qəlbləri ilə dua etdikləri zaman əllərini yuxarı qaldırırlar. Uca Allaha yalvarıb-yaxardıqda da qəlbləri ilə yuxarını qəsd edərlər. Bu Allahın onları yaratmamışdan əvvəl qəlblərində fitrət olaraq yerləşdirdiyi hislərdir. Onlar bunu bir insandan, müəllimdən öyrənməmişlər. Bu sadəcə qəlbdə olan Allahın ucalığını göstərən hislərdir.

MÜXALİFLƏRİN GƏTİRDİKLƏRİ BƏZİ ŞÜBHƏLƏR VƏ ONLARA VERİLƏN CAVABLAR

Müxaliflərin Şübhələri: Müxaliflər müsəlmanların qəlblərinə şübhə salmaq üçün bəzi ayələri dəlil gətirirlər. ***«Göydə olanın».*** *(Mulk 16-17).* Zahirini qəbul etsək, səmanın Allahı kölgələdiyini, Onu daşıdığını, Onu əhatə etdiyini desək düzgün olmaz. Bu sözləri söyləyən kimsə əgər bunu özündən demişsə sapıq, yox əgər başqasına nisbət edərək söyləmişsə o, təqdirdə yalançı və xətalı olmuşdur. Allahın böyüklüyünü: ***«Ən Uca və ən böyük varlıq da Odur!».*** *(əl-Bəqərə 255).* ***«O,*** *(hər şeydən)* ***Ucadır,*** *(hər şeydən)* ***Uludur!».*** *(əş-Şura 4).* Onun hər şeyi elmi ilə əhatə etdiyini (***Muhit***)[140]: ***«Halbuki Allah kafirlərin bütün işlərini biləndir».*** *(əl-Bəqərə 19).* ***«Allahın hər şeyi öz elmi ilə ehtiva etdiyini biləsiniz deyə…».*** *(ət-Talaq 12).* Qiyamət günü yer üzünün Onun ovcunda olacağını: ***«Halbuki Qiyamət günü yer bütünlüklə onun ovcunun içində olacaq, göylər isə onun sağ əli ilə büküləcəkdir».*** *(əz-Zumər 67).* Göyü də kitab səhifəsi

[139] Əbu İsmail əl-Ənsari əl-Faruk əsəri "Fikhul Əbsat" səh: 46, İbn Teymiyyə "Məcmuul Fətava" 5/48, Zəhəbi "Uluv" səh: 101,102, İbn Qudamə "Uluv" səh: 116.

[140] Bu İsim üçün bax: Ali İmran 120, ən-Nisa 108, 126, əl-Ənfal 47, Hud 92, Fussilət 54, əl-Buruc 20.

kimi bükəcəyini: ***«Göyü kitab səhifəsi kimi bükübqatlaycağımız gün*** *(Qiyamət gününü)* ***yadınıza salın».*** *(əl-Ənbiya 104). Göyün də Allaha ehtiyacı olduğunu:* ***«Onun izni olmadan yerə düşə bilməməsi üçün göyü tutub saxladığını görmürsənmi».*** *(əl-Həcc 65).* Bilən bir kimsə əsla yaratdıqlarından hər hansı bir şeyin Allahı kölgələdiyini, daşıdığını, əhatə etdiyini belə ağlına gətirməz.

Müxaliflərin Digər Şübhələri: ***«And olsun ki, insanı biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də biz bilirik. Biz ona şah damarından da yaxınıq».*** *(Qaf 16).* Bəli, bu ayəni oxuduqda biz fikirləşə biləik ki, Allah bizə şah damarımızdan da yaxındır. Lakin nə ilə yaxın olduğunu biz sonrakı ayədən başa düşürük. ***«Xatırla ki, sağında və solunda yazan iki mələk oturmuşdur».*** *(Qaf 17).* O, mələklər ki, insanın ağzından çıxan hər bir kəlməni qeyd edirlər.

Müxaliflərin Digər Şübhələri: ***«Göylərdə də, yerlərdə də yalnız o Allahdır. Sizin gizlində də, aşkarda da nəyiniz varsa onu, tutduğunuz əməlləri O bilir».*** *(əl-Ənam 3).* Bu ayə Allahın zatıyla göydə olduğu kimi, yerdə də olduğu mənasına gəlməz. Bu cür fikirləşən çox böyük xəta etmişdir. Qurani Kərimdə olan digər bir ayə bunu çox gözəl açıqlayır. ***«Göydə də ilah*** *(ibadət olunan)* ***yerdə də ilah Odur. O, hikmət sahibidir, biləndir».*** *(Əz-Zuxruf 84)*[141]. Şübhəsiz ki, Allah göylərdə də, yerlərdə də ibadət olunan ilahdır. Göydə də, yerdə də olan hər bir şey ilah olaraq yalnız Allaha ibadət və itaət edirlər. Çünki Allahın göylərin üzərində olması sizin gizlində də, aşkarda da etdiyinizi bilməsinə əngəl törətməz. Hər nə qədər Allah zatıyla göydədisə ilahlığı (tanrılığı) isə hər iksindədir. Bunun bir bənzəri də: «Filankəs Məkkədə də əmirdir, Mədinədə də». Yəni o, kimsə hər nə qədər bu şəhərlərdən birində olursa olsun əmirliyi hər iki şəhərdə də keçərlidir. İmam Məlik – *rahmətullahi aleyhi* – deyir ki: «Allah göydədir, elmi isə hər yerdədir»[142].

Müxaliflərin Digər Şübhələri: ***«Can boğaza yetişdiyi zaman, siz ona baxıb durursunuz. Biz ona sizdən daha yaxınıq, amma siz görmürsünüz».*** *(əl-Vaqiə 83-85).* Allah: «*Biz Ona Sizdən Də Yaxınıq*» buyurduqda, ölüm anında ***Ölüm*** – mələyinin ölən insana yaxın olduğunu buyurur. Bəs nə üçün Allah birinci şəxsin adından danışır? Mələklər Allahın elçiləridir və onladan danışıldıqda birinci şəxsisn adından danışılır. ***"Biz onu*** *(Cəbrailin dili ilə)* ***oxutduğumuz zaman oxunmasını diqqətlə dinlə".*** *(əl-Qiyamət 18).* ***"İbrahimin qorxusu çəkildikdə və ona*** *(İshaqın doğulacağı haqqında)* ***müjdə gəldikdə Lut tayfası barəsində***

[141] Təfsir İbni Kəsir.
[142] Əbu Davud «Məsailu İmam Əhməd» s. 263, İbn Əbdul Bərr «Təmhid» 7/138.

Bizimlə** (mələklərimizlə) **mübahisə etməyə başladı.** (Əzabın onlardan dəf edilməsini istədi)". (Hud 74).* Hər iki ayədə söhbət mələklərdən gedir. ***Həmçinin* -** Bu ayədə ölüm anı xüsusiləşdirilmişdi. Əgər biz desək ki, Allah bizə yalnız ölüm anında yaxındır, bu düz olmaz, çünkü Allah bizə hər an yaxındır. Ölüm anının xüsusiləşdirilməsi isə o, anda ölüm mələyinin yaxın olmasına görədir. Allahın bizə hər an yaxın olması isə Quran və Sünnə ilə sabitdir. Bu da duadır. ***«Bəndələrim məni səndən soruşsalar söylə ki, mən onlara yaxınam. Dua edib məni çağıranın duasını qəbul edərəm». *(əl-Bəqərə 186).* Burada söhbət Allahdan nə isə istəmək və Allaha ibadət etmək üçün olunan duadan gedir.

Qayda: İstək duası zamanı insan bir şeyə diqqət etməlidir! Allahın adlarından öz istədiyi şeyə münasib olanını istədiyindən qabaq çəkməlidir. Məs: «Ey Rahmən olan Allah! Mənə rəhm et, məni bağışla!» «Ey qoruyan, məni qoru!» və s. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurur: «Sizin dua etdiyiniz Allah sizdən hər hansı birinizin dəvəsinin boynundan da ona yaxındır»[143]. Allahın yaxın olması ucalığına və yuxarıda olmasına zidd deyildir. Çünkü bütün sifətlərində Allaha bənzər bir şey yoxdur. O, yaxın olması ilə də ucadır, ucalığı ilə də yaxındır. ***«Allah** (müşriklərin) **ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır».*** *(əs-Saffət 159).* Həsənul Bəsri – *rahmətullahi aleyhi* – deyir ki: "***Allahummə -*** kəliməsi özündə istənilən növ istəyi əhatə edir". Əbu Radca əl-Ataridi – *rahmətullahi aleyhi* – deyir ki: "***Allahummə* -** kəliməsində olam "***Mim***" hərifi özündə Allahın **99** İsmini əhatə edir". ən-Nadr b. Şamil – *rahmətullahi aleyhi* – deyir ki: "Kim ***Allahummə* -** deyərək Allaha dua etməyə başlayarsa artıq Allahı bütün İsimləriylə çağırmış olar".

Müxaliflərin Digər Şübhələri: ***«Məgər görmürsənmi ki, Allah göydə və yerdə nə varsa, hamısını bilir. Aralarında gizli söhbət edən üç adamın dördüncüsü, beş adamın altıncısı Allahdır. Onlar bundan az da, çox da olsalar və harda olsalar, Allah yenə də onların yanındadır. Sonra Qiyamət günü Allah onlara etdikləri əməlləri** (bir-bir) **xəbər verəcəkdir. Allah hər şeyi biləndir».*** *(əl-Mucadələ 7).* ***«Siz harda olsanız, o, sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir».*** *(əl-Hədid 4).* İlk baxışdan bu ayələr insana şübhə gətirə bilər. O, sizinlə bərabərdir buyuruğu: Allah yaradılmışlar ilə qarışmış, onların yanlarındadır demək deyil. Xeyr! Allah Ərşin üzərindədir, məxluqatın üzərində ***Raqibdir*** (nəzarət edəndir). Əgər ayələrin sonlarına fikir versəniz görərsiniz ki, Allahın bizimlə bərabər olması, Onun bizim etdiklərimizi bilməsi və görməsi ilədir. Elm, qüdrəti ilə hər bir şeyi idarə edən, əhatə edən, himayə

[143] Buxari, Müslim.

edən haqqında düşünmək ki, o məxluqlarla, naqislərlə, günahkarlarla birlikdədir. Bu ağla sığmazdır. Sufyan əs-Souri – *rahmətullahi aleyhi* – deyir ki: ***“...Allah yenə də onların yanındadır”.*** Yəni: Elimi ilə onlarladır”[144]. Sələflər (Səhabə və Tabiinlər) bu barədə icma etmişlər: “O, Ərşi üzərindədir, elimi isə hər bir yerdədir”[145]. İbn Kəsir – *rahmətullahi aleyhi* – bu ayənin təfsirində deyir ki: “Məhz bu səbəbə görə bir çox insanlar deyirlər ki, İcma vardır “*Yanında*” kəliməsinə görə. Yəni, burada qəsd olunan “Yanındadır Elimilə” deməkdir[146].

Əhli Sünnə Vəl Cəmaat alimləri Allahın yaratdıqları ilə bərabər olmasını, Zatı ilə deyil məhz elmi ilə onlarla bərabər olması şəkilində açıqlamışlar. Burada məqsəd sapıq Hüluliyyəçilərə cavab verməkdir[147]. Pak və nöqsansız olan Allahın yaratdıqlarıyla bərabər olması Ona yaraşır bir bərabərlik olub əsla yaradılmışların bir-birləriylə olan bərabərliyi kimi deyildir. Heç şübhəsiz ki, onların dəlilləri Allahın həm zatıyla yaratdıqlarının üstündə, həm də onlarla bərabər olduğunu ifadə etməkdədir. Bunların hər iksinin də sübut və dəlili güclüdür. Allahın bu buyurduğunda hər iksinə də dəlil vardır. ***«Göyləri və yerləri altı gündə xəlq edən, sonra ərşin üzərinə yüksələn*** *(istiva edən)* ***Odur. O, yerə girəni də, yerdən çıxanı da, göydən enəni də, göyə qalxanı da bilir. Siz harda olsanız O, sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!».*** *(əl-Hədid 4).* Bu ayədə Allah yaradılmışların (məxluqatın) ən üstündə, ən yüksəkdə olan Ərşə İstiva etdiyini bildirdiyi kimi, bizimlə bərabər olduğunu da bildirmişdir. Yüksəkliklə bərabərlik arasında bir ziddiyyət yoxdur. Bir şey həm zatı ilə yüksəkdə də ola bilər, həm də ona bərabərlik nisbət edilə də bilər. Əgər biz Allahın yaratdıqlarından olan Aya baxsaq görərik ki, o səmada yerləşdirilmişdir. Bununla bərabər o, səfərdə olan hər bir kəsə hara gedirsə getsin onunla birlikdədir. Halbuki Ay göydədir və

---

[144] Zəhəbi “Uluv” 139.
[145] Zəhəbi “Uluv” 572.
[146] Fəxrəddin Razi “Məfətihal Qeyb” ayənin təfsiri.
[147] ***Hululiyyə*** – Allahın Zatıyla hər yerdə olduğunu qeyd edənlərdir. Onlar Allahın ***Məiyyə*** – Birlikdə, bərabər olmaq sifətində həddi aşaraq Allahın ona yaxın olan (***əl-Mukərrəbun***) şəxslərə hulul etdiyini (yəni nüfuz etmək, girmək, iki şeyin bir şeymiş kimi birləşməsini) irəli sürən sapıq firqədir. Onlara görə kim nəfsini itaətlə tərbiyə edər, dünya ləzzətləri və şəhvətlərinə səbr edərsə Allaha yaxın olanların (***əl-Mukərrəbun***) məqamına yüksəlir. Sonra o, bəşəriyyət sifətlərindən təmizlənincəyə qədər, saflaşmaya və saflaşmış olanların dərəcəsinə yüksəlməyə davam edəcəkdir. Saflaşma əsnasında bəşəriyyətdən bir parça da belə qalmadıqda İsa b. Məryəmə hulul edən Allahın ruhu ona da hulul edər. O, zaman istədiyi kimi olan şeydən başqasını diləməz və əməllərinin tamamı Allahın feli olur, sonunda da Allaha birləşərək, Allah olur!? AbdulQahir əl-Bağdadiyyənin bölümünə görə **11** qurupdur. Bunlar: ***Hululiyyə, Səbəiyyə, Beyaniyyə, Cənahiyyə, Hatabiyyə, Şurayiyyə, Nemiriyyə, Rizamiyyə, Mukannaiyyə, Hulmaniyyə, Hallaciyə və Azafira.*** Hululiyyə eyni zamanda müşəbbihlərin (bənzədənlərin) həddi aşanlarıdır. Rafizilər içərsində də Allahın imamlara Hulul etdiyini deyənlər də vardır. Bax: «Məqalətul İslamiyyə» 1/81,82, «Fərq Beynəl Firaq» s. 198,205.

bizimlə bərabər hərəkət etməkdədir. Ayın bərabər olması onun işıq saçması və görülməsinə görədir. Ay isə Allahın ayələrindən ən kiçiyidir. Bir qadın Allah haradadır? deyə soruşuduqda İmam Əbu Hənifə: «Allah səmadadır, yerdə deyil» cavabını verdi. Bəs Allah: ***«Siz harda olsanız, o sizinlədir».*** *(əl-Hədid 4)* sözünə nə deyirsən?» sualına isə belə cavab verdi. «Bu sənin bir kimsəyə məktub yazıb mən səninlə bərabərəm deməyin kimidir. Halbuki sən onun yanında deyilsən»[148].

Müxaliflərin Digər Şübhələri: Ubadə b. Samit – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İmanın ən üstünü harada olursansa ol, Allahın səninlə bərabər olduğunu bilməkdir»[149]. Bu hədis, bu ləfzlə hədis alimləri tərəfindən zəif qəbul edilmişdir. Əyyub Səhtiyani – *rahmətullahi aleyhi* – Mutəzilə və Cəhmilər barədə deyir ki: "Onların (etiqadının) əsası: Səma üzərində heç nə yoxdur – deməkdir"[150]. ***«O, Əvvəldir, Axırdır, Zahirdir, Batindir».*** *(əl-Hədid 3).* Muqatil b. Həyyan – *rahmətullahi aleyhi* – deyir ki: "Sən ***Əvvəlsən***, səndən əvvəl heç bir şey yoxdur. Sən ***Əxirsan***, səndən sonra heç bir şey yoxdur. Sən ***Zahirsən***, Sən hər bir şeyin üzərindəsən (sənin üstündə heç bir şey yoxdur). Sən ***Batinsən***, sən hər bir şeydən yaxınsan (Səndən o, tərəfə heç bir şey yoxdur). Yəni, gücü və elimi ilə hər bir şeyə yaxındır, Özü isə Ərşin üzərindədir və O, hər bir şeydən xəbərdardır"[151].

ALLAH *- subhənəhu və təalə -*nin MƏİYYƏ – BİRLİKDƏ OLMAQ SİFƏTİ

Məiyyə – birlikdə olmaq sifəti iki cürdür:

1. *Ümumi* – yəni Allah elmi ilə, qüdrəti ilə, tədbiri ilə (işləri düzüb qoşmaq və idarə etməsi ilə) hamı ilə bərabərdir. Zatı ilə yox. Heç bir şey ondan gizli deyildir. ***«Çünki mən sizinlə bərabərəm. Eşidirəm və görürəm».*** *(Ta ha 46).* ***«Bir də səbr edin. Allah səbr edənlərlə bərabərdir».*** *(əl-Ənfal 46).* ***«Həqiqətən Allah ondan qorxub pis əməllərdən çəkinənlər və yaxşı işlər görənlərlədir».*** *(ən-Nəhl 128).* Aişə – *radıyallahu anhə* - deyir: «Bir qadın ərindən şikayət etmək üçün Rəsulullah – *sallallahu aleyhi və səlləm* – in yanına gəlir. Mən otağın bir

---

[148] Beyhəqi «əl-Əsma və əs-Sifət» 429, Zəhəbi «Uluvv» müxtəsər: s. 135.

[149] Təbərani "Kəbir", "Əvsat", Huzeymə "Məcmuuz Zəvaid" 25, Əbu Nuaym "Hilyətul Əvliya" 6/124, Beyhəqi "Əsmə" 2/172, Suyuti "Cəmius Sağir" 1/49, əl-Albani "Daif Cəmius Səğir" 1002, "Silsilə Daif" 2589. Lakin Abdullah İbn Muaviyə əl-Ğadiri – *radıyallahu anhu* – dan gələn rəvayətdə: «Nəfsin təmizlənməsi (yaxşılığı) harada olursansa olsun Allahın onunla bərabər olduğunu bilməsidir» Beyhəqi «Sünnən Kubra» 4/95, əl-Albani «Səhih Hədislər Silsiləsi» 1046.

[150] Zəhəbi "Muxtəsər Uluv" 132, Əhməd "Musnəd" 6/457, 27627, İbn Batta "İbanə" 3/194.

[151] Beyhəqi "Əsmə" 2/173.

küncündə olmağıma baxmayaraq onların nə barədə söhbət etdiklərini eşitmədim. Lakin Allah eşidib ayə nazil etdi. ***«Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin danışığınızı eşidir. Həqiqətən Allah eşidən və görəndir».*** *(əl-Mucadələ 1)»*[152].

2. *Xüsusi* – yəni Allah elmi, qüdrəti ilə yalnız Peyğəmbərlərlə, möminlərlə, müsəlmanlarla birlikdədir. ***«Müşriklərin hamısı səninlə vuruşduğu kimi siz də onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir».*** *(ət-Tövbə 36).* ***«Allah həqiqətən möminlərlədir».*** *(əl-Ənfal 19).* Rəsulullah – *sallallahu aleyhi və səlləm* – Əbu Bəkr - *radıyallahu anhu* - ilə mağarada olarkən Əbu Bəkr - *radıyallahu anhu* - müşrikləri gördükdə qorxaraq: «Allaha and olsun ey Allahın Rəsulu, onlardan biri ayağının altına baxsa bizi mütləq görəcəkdir. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – ona Allahın buyurduğu şəkildə: ***«Qəm yemə, Allah bizimlədir».*** *(ət-Tövbə 40).* «Üçüncüləri Allah olan iki kişi barəsində sən nə düşünürsən»[153]. O, halda buradakı bərabərlik yardım və düşmənlərdən qorumaq mənasındadır. ***Həmçinin*** **–** Allah Musa və Harun - *əleyhissəlam* – a müraciət edərək: ***"****(Allah)* ***buyurdu: "Qorxmayın, Mən də sizinləyəm,*** *(hər şeyi)* ***eşidirəm və görürəm!".*** *(Ta ha 46).* ***Həmçinin*** **-** Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah zatıyla yüksəkdə olmasına baxmayaraq namaz qılanın qarşısındadır. Onun üzünə baxar»[154]. Yüksəkliklə, qarşıda olmaq arasında bir ayrılıq yoxdur. Bir şey həm yüksəkdə həm də qarşıda ola bilər. Çünki qarşıda olmaq yerdə olmaq demək deyil. Məs: Doğan günəşə baxan kişi, onun yəni günəşin qarşısında olduğunu söyləyir. Lakin günəş göydədir. İbn Teymiyyə – *rahmətullahi aleyhi* – deyir ki: "Allahın məxluqatı ilə bərabər olması ayələrdən aslı olaraq dəyişilir. ***«Göyləri və yerləri altı gündə xəlq edən, sonra ərşin üzərinə yüksələn*** *(istiva edən)* ***Odur. O, yerə girəni də, yerdən çıxanı da, göydən enəni də, göyə qalxanı da bilir. Siz harda olsanız O, sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!».*** *(əl-Hədid 4).* Ayədən açıq-aydın görsənir ki, Allahın məxluqatı ilə bərabər olması Allahın insanları görməsi, onlardan xəbərdar olmasıdır. (Elmi, eşitməsi, görməsi, bilməsi) Allahın bəndələrilə olması elmilədir və bu fikirdə ilk əsr imamları olmuşlar"[155].

---

[152] Buxari.
[153] «əl-Lulu Vəl Mərcan» 1540, Buxari, Müslim, Əhməd 1, Tirmizi 3096.
[154] Buxari 406,753,1213,6111, Müslim 547, Məlik 1/173, Əhməd 2/6,29, Nəsai 2/51, İbn Məcə 731, Beyhəqi «Əsmə və Sifət» s. 465. əl-Albani «Səhihul Tərğib» 1/186,188, «Səhihul Cəmius Səğir» 753.
[155] "Fətava əl-Həməviyyə".

Nəticə: 1) Allahın yaratdıqları ilə bərabər olması Quran, Sünnə və Saleh Sələflərin icması ilə sabitdir. 2) Allahın yaratdıqları ilə bərabər olması Onun Ucalığına və Əzəmətinə yaraşır tərzdə olan bir haqqdır və bu yaradılmışların bir-birilərilə bərabər olmalarına bənzəməz. 3) Allahın yaratdıqları ilə bərabər olmasının mənası, Allahın məxluqatından elmi, eşitməsi, görməsi, bilməsi ilə xəbardar olmasıdır. 4) Buradan belə anlaşılmaz ki, Allah yaratdıqları ilə eyni məkanı paylaşdırır. 5) Allahın yaratdıqları ilə bərabər olması Onun Ərşin üzərinə İstiva etməsinə zidd deyildir. Əgər səndən: «Bərabərlik Allahın zatı sifətlərindəndir, yoxsa feli sifətlərindəndir?» deyə soruşularsa cavabımız: «Ümumi bərabərlik Allahın zatı sifətlərindəndir. Çünki bunlar əzəldən əbədi Allahda vardır. Xüsusi bərabərlik isə Allahın feli sifətlərindəndir».

ALLAH - *Subhənəhu Və Təalə* - nin KƏLAM SİFƏTİ

Bu xüsusda da insanlar çaşqınlığa düşmüşlər. Əhli Sünnə vəl Cəmaata görə Allah hər zaman istədiyi vaxt danışır. Müxaliflərin dediyi kimi, Allahın kəlam sifəti ondan ayrı və məxluq deyildir. Kəlam Allahın zatı sifətlərindəndir. Allah dilədiyi kimi hərf və səslə danışır. Allah, Adəm və Həvva – *əleyhimussəlam* - ilə səslə danışmış, Musa – *əleyhissəlam* - ilə vasitəsiz danışmış, həmçinin də Qiyamət günü qulları ilə tərcüməçi olmadan danışacaqdır. ***«Allahdan daha doğru danışan kim ola bilər».*** *(ən-Nisa 87,122).* ***«Rəbbin sözü düzgün və ədalətli şəkildə tamam oldu».*** *(əl-Ənam 115).* ***«Biz Peyğəmbərlərin bəzisini digərindən üstün etdik. Allah bunlardan bəzisi ilə danışmışdır».*** *(əl-Bəqərə 253).* İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir: «Allah öz kəlamı ilə danışır. Kəlam Onun əzəli sifətidir», «Allah danışır, lakin bizim danışmağımız kimi deyildir»[156]. ***«Xatırla ki, o zaman*** *(Qiyamət günü)* ***Allah buyuracaq: Ya Məryəm oğlu İsa! Sənmi insanlara: Allahla yanaşı məni və anamı da özünüzə ilah bilin! demişdin?»*** *(əl-Maidə 116).* Allahın Qiyamət günü İsa – *əleyhissəlam* - ilə danışması onun ilah olmamasını sübut etmək üçün olacaqdır.

«Rəbbi onlara *(Adəm və Həvvaya)* ***müraciət edib buyurdu: Məgər mən sizə bu ağaca*** *(yaxınlaşmağı)* ***qadağan etməmişdimmi?».*** *(əl-Əraf 22).* Buradakı səsləniş, nida onların günah etmələrindən sonra olmuşdur. Həmçinin Qiyamət günü Adəm – *əleyhisəlam* - ilə danışması. Əbu Səid əl-Xudri - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah (Qiyamət günü): «Ey Adəm!» deyə

---

[156] «Fikhul Əkbər» s. 58,59.

buyurur. Adəm: «Ya Rəbbim! Mən sənin qarşındayam. Əmr et, hər əmrini yerinə yetirim və hər xeyir bütünlüklə sənin əlindədir» deyə cavab verir. Allah ona səslə: «Soyundan Cəhənnəmə girəcəkləri seçib çıxarmağı əmr edir!». Adəm: «Ya Rəbbim! Cəhənnəmə girənlərin sayı nə qədərdir?» deyə soruşur. Allah: «Hər min nəfərdən **999**-zu! Hər bir hamiləli qadının bari-həlmini (vaxtından əvvəl) yerə qoyması və uşaqların saçlarının ağaracağı zaman o, zamandır. ***«İnsanları sərxoş görərsən, halbuki onlar sərxoş deyillər. Bu ancaq Allahın əzabının şiddətli olmasındandır!».*** *(əl-Həcc 2).* Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in bu cavabı oradakılara (səhabələrə) çox ağır gəldi. Elə ki, hətta üzlərinin rəngi də dəyişdi. Oradakılar: «Ya Rəsulullah! (Cəhənnəmdən qurtulan) Bu mindən bir nəfər kimdi?» deyə soruşdular. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sevinin ki, sizdən bir nəfərə Yəcuc və Məcucdan min nəfər» deyə buyurdu. Sonra sözünə davam edərək: «Nəfsim əlində olan Allaha and olsun ki, mən sizlərin Cənnət əhlinin dördə birini təşkil edəcəyinizə ümüd edirəm» deyə buyurdu. Sonra Allaha həmd etdik və təkbir gətirdik. Sonra yenə də: «Nəfsim əlində olan Allaha and olsun ki, mən sizlərin Cənnət əhlinin üçdə birini təşkil edəcəyinizə ümüd edirəm» deyə buyurdu. Bundan sonra biz yenə də Allaha həmd etdik və təkbir gətirdik. Sonra Peyğəmbər: «Nəfsim əlində olan Allaha and olsun ki, mən sizlərin Cənnət əhlinin yarısını təşkil edəcəyinizə ümüd və arzu edirəm» deyə buyurdu. Çünki ümmətlərə nisbətdə sizin məsəliniz qara öküzün dərsi üzərindəki ağ bir tük kimidir (Başqa rəvayətdə: «Ağ öküzün dərsi üzərindəki qara tük kimi») və ya Eşşəyin ön ayaqlarının iç tərəfində olan dairə formasında möhür kimi»[157].

«Musaya vəd etdiyimiz vaxt gəlib çatanda Rəbbi onunla *(arada heç bir vasitə olmadan)* ***danışdı».*** *(əl-Əraf 143).* ***«Allah Musa ilə sözlə danışdı».*** *(ən-Nisa 164).* Musa – *əleyhissəlam* - ilə heç bir mələyin köməyi olmadan, vasitəçi olmadan danışmışdır. ***«Biz Musanı Tur dağının sağ tərəfindən səslədik».*** *(Məryəm 52).* ***«Yadına sal ki, bir zaman Rəbbin Musaya belə buyurmuşdu: Get o, zalım tayfanın yanına».*** *(əş-Şuəra 10).* İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir: ***«Allah Musa ilə sözlə danışdı».*** *(ən-Nisa 164)* ayəsində buyurduğu kimi Musa Allahın kəlamını eşitdi. Şübhəsiz Allah Musa ilə danışmadan öncə də Mutəkəllim (danışıcı) idi», «Allah Musa ilə əzəli sifəti olan kəlamıyla danışmışdır»[158]. Başqa bir yerdə: «Biz Allahın Musa ilə danışdığına da iman, təsdiq və təslimiyyət

---

[157] Buxari 3348,4741,6530,7483, Müslim 222, Əhməd 2/166, 3/32-33, Tirmizi 3168,3169, əl-Albani "Səhih Cəmius Sağir" 8142, "Mişkət" 5541.

[158] «Fikhul Əkbər» s. 58,59.

olaraq söləyirik»[159]. Əbu Yəla, İmam Əhməd – *rahmətullahi aleyhi* – belə dediyini rəvayət edir: «Mən atamdan, Allah Musa ilə danışdıqda səs ilə onunla danışmadı deyən bir topluluq haqqında soruşdum». Atam: «Allah bir səs ilə danışdı və biz bu hədisləri gəldikləri kimi rəvayət edirik»[160].

«Allah həmin gün onlara xitab edib belə buyuracaqdır: Peyğəmbərlərə nə cavab verdiniz?» *(əl-Qəsəs 65).* ***«Rəhmli Allahda*** *(onlara)* ***salam deyiləcəkdir».*** *(Yasin 58).* Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurur: «Qiyamət günü Allah ilə qulun arasında heç bir tərcüməçi (vasitə) olmadan Allahın danışmadığı heç bir qul yoxdur»[161].

Möminlərdən fərqli olaraq Allahın Qiyamət günü ***«Allah onlarla danışmaz…».*** *(əl-Bəqərə 174).* ***«Allah ilə olan əhdlərini və andlarını ucuz bir qiymətə satan şəxslərə axirət nemətlərindən heç bir pay yoxdur. Allah Qiyamət günündə onları dindirməz….».*** *(Ali-İmran 77).* Onlarla danışmaması onlar üçün bir əzabdır. ***Allah buyurar: «Orada zəlil, məyus vəziyyətdə durub qalın və mənə heç bir şey deməyin».*** *(əl-Muminun 107).*

Bu ayələrdən göründüyü kimi Allah kəlam sifətinə malikdir və yaradılmış məxluqların səs və həriflərinə bənzəməz. Onun danışması vəhiydir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurur: «Allah bir əmri vermək istədikdə vəhy ilə danışır»[162]. Allahdan daha doğru söz söyləyən olmadığı üçün hər bir şeyi hər baxımdan gözəl bilən də odur.

QİYAMƏT GÜNÜ MÖMİNLƏRİN RƏBLƏRİNİ GÖRMƏLƏRİ[163]

Əhli Sünnə Vəl Cəmaat yəni Sələfi Salihin ittifaq ilə bu fikirdədirlər ki, Qiyamət günü möminlər öz Rəblərini heç bir əziyyət çəkmədən görəcəklər. Əbu Səid əl-Xudri - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – in zamanında bir qurup insanlar: «Ya Rəsululah! Qiyamət günü Rəbbimizi görəcəyikmi?» Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Yanında bulud olmayan açıq bir havada günəşi görməyə çətinlik çəkirsinizmi? Bədirlənmiş ayı **14-**cü günündə yanında bulud olmayan açıq havada görməyə çətinlik çəkirsinizmi?» Xeyr, Ya Rəsulullah! O, buyurdu: «Günəşi və ayı görməkdə əziyyət çəkmədiyiniz kimi Allahı görməkdə də

[159] «Əqidətul Təhaviyyə» əl-Albani təhqiqi ilə s. 293.
[160] «Tabaqatul Hanabilə» 1/185.
[161] Buxari, Müslim.
[162] İbn Xuzeyfə «Kitabu Tövhid» 1/348, «Kitabus Sunnə» 1/227.
[163] Geniş Məlumat üçün bax: İbn Qeyyim "Hədiyul Ərvah – Cənnətdəki Həyat".

əziyyət çəkməyəcəksiniz»[164]. Abdullah b. Qeys - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İki Cənnət vardır ki, qabları və içindəki (digər əşyaları) da gümüşdəndir. Digər iki Cənnət daha vardır ki, qabları və içindəki digər əşyaları da qızıldandır. Ədn Cənnətindəki topluluğun Rəblərinə baxmalarının qarşısında Allahın üzündəki o, əzəmət örtüyündən başqa bir şey olmayacaqdır»[165]. Adiy b. Hatim - *radıyallahu anhu* – rəvayət edir ki, Mən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanında ikən bir nəfər gəlib yoxsulluqdan şikayət etdi. Sonra digər bir nəfər gəldi və yol kəsən quldurlardan şikayət etdi. Peyğəmbər: "Ey Adiy! Hirə şəhərini gördünmü?" deyə buyurdu. Adiy: "Xeyr, yalnız eşitdim" dedim. Peyğəmbər: "Əgər ömrün uzun olsa dəvə üzərində bir qadının Allahdan başqa kimsədən qorxmadan Kəbəyə gəlib təvaf edəcəyini görəcəksən" deyə buyurdu. Öz-özümə: "Bizim Tai qəbiləsinin yol kəsənləri varaaa! (Onların əlindən hara gələ bilər)" dedim. Peyğəmbər: "Əgər ömrün uzun olsa Kisranın xəzinələrinin fəth ediləcəyini görəcəksən" deyə buyurdu. Mən: "Kisra b. Hurmuzmu?" dedim. Peyğəmbər: "Bəli, Kisra b. Hurmuz və əgər ömrün uzun sürərsə qızıl və gümüş dolu kisəsini çıxarıb zəkat vermək istəyən adamı görürsən. Lakin zəkat alacaq kimsə olmayacaqdır (tapmayacaqdır). Hər biriniz mütləq bir gün gələcək aranızda heç bir pərdə, tərcüməçi olmadan Allahla qarşılaşacaqsınız. O, zaman Allah: "Səni təbliğ edən bir Peyğəmbər göndərmədimmi?" deyə buyuracaq. O: "Bəli, göndərdin" deyəcəkdir. Allah: "Mən sənə mal vermədimmi? İkram etmədimmi?" deyə soruşacaq. Qul: "Bəli, Ey Rəbbim, verdin" deyib sağına baxacaq Cəhənnəmdən başqa bir şey görməyəcəkdir, soluna baxacaq Cəhənnəmdən başqa bir görməyəcəkdir". Adiy - *radıyallahu anhu* – deyir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in belə buyurduğunu eşitdim: "Bir xurmanın yarısı da olsa onu sədəqə verib özünüzü Cəhənnəmdən qoruyun. Kim yarım xurma tapmazsa gözəl bir sözlə qorunsun". Adiy: "Allahdan başqa kimsədən qorxmadan Kəbəni təvaf etməyə gedən dəvə üstündə yaşlı qadın gördüm. Kisra b. Hurmuzun xəzinələrini ələ keçirənlər arasında mən də var idim. Əgər sizin də ömrünüz uzun olarsa Əbul Qasımın xəbər verdiyi kisəsini çıxaran o, adamı görəcəksiniz" dedi[166]. Muhəmməd b. Cəfər əl-Qattani, İmam Suyuti – *rahmətullahi aleyhi* – dən rəvayət edir ki: "Qiyamət günü Cənnətə möminlərin Rəblərini görmələri ağıl ilə mümkündür, Quran, Sünnə və

[164] Buxari 4581, Müslim 183, Darimi "Sünən" 6/81, H.2804.
[165] Buxari 4878,4879,4880, Müslim 180.
[166] Buhari "Mənakib" 25, Fəthul Bâri 6/610-611.

İcma bunu təsdiq edir. *Quran*: ***«O, gün üzlər Rəbbinin gül camalına baxıb sevinəcəkdir».*** *(əl-Qiyamə 22-23).* ***"Yaxşı işlər görənləri Cənnət və daha artıq mükafat gözləyir...".*** *(Yunus 25-26).* ***«Qiyamət günü onlarla Rəbləri arasında hicab çəkiləcək və onlar Rəblərini görməyəcəklər».*** *(əl-Mutəffifin 15).* ***Sünnə***: Sünnəyə gəldikdə isə **20**-dən çox səhabədən gələn səhih hədislər bunun dəlilidir. ***İcma***: Sələf alimləri bidət əhli meydana gəlməmişdən öncə möminlərin Rəbblərini Cənnətdə görmələri üzərinə icma etmişlər[167]. İbn Kəsir – *rahmətullahi aleyhi* – deyir ki: ***«O, gün üzlər Rəbbinin gül camalına baxıb sevinəcəkdir».*** *(əl-Qiyamə 22-23).* Onlar (möminlər) açıq-aydın öz Rəbblərini görəcəklər. Onlar öz Rəbblərinə baxacaqlar. Necə İmam Buxari – *rahmətullahi aleyhi* – "Səhih" əsərində: "Siz öz Rəbbinizi açıq-aydın görəcəksiniz". Mühəddislərə əsasən möminlərin Qiyamət günü Rəbblərini görmələri bizlərə "*Mutavatir*" yollarla çatmışdır. Bu rəvayətləri isə nə inkar, nə də rədd etmək olmaz"[168]. İbn Əbil İzz əl-Hənəfi – *rahmətullahi aleyhi* – deyir ki: "Allahı görmək – barədə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in hədisləri və səhabələrin sözləri *Mutavatirdi*"[169]. İbn Qeyyim – *rahmətullahi aleyhi* – deyir ki: "Peyğəmbər və səhabələrdən Allahı görmək barədə gələn rəvayətlər *Mutavatirdi*"[170]. İmam Təbəri – *rahmətullahi aleyhi* – deyir ki: "Möminlərin Qiyamət günü Rəblərini görmələri *Mutavatir* hədislərlə səhabələrdən bizə çatmış və zikr edilmişdir..."[171]. ***Mutavatir*** – Əbu Bakr, Əbu Hureyrə, Əbu Səid, Cərir b. Abdullah, Suheybə, İbn Məsud, Əli, Əbu Musa əl-Əşari, Adiy b. Xatim, Ənəs b. Məlik, Bureydə b. Həsib, Əbu Razin əl-Aqili, Cabir b. Abdullah, Əbu Umama, Zeyd b. Sabit, Ammar b. Yəsir, Aişə, İbn Ömər, Umara b. Ruvayba, Salman Farsi, Huzeyfə b. Yəmən, İbn Abbas, Abdullah b. Amr b. əl-Ass, Ubey b. Kəb, Fudeyl b. İyad, Ubadə b. Samit – *Allah Onların Hər Birindən Razı Olsun* - [172] Yəhyə b. Məin – *rahmətullahi aleyhi* – deyir ki: "Mən **17** hədis bilirəm Allahı görmək barədə və onların hər biri də səhihdir"[173]. Beyhəqi – *rahmətullahi aleyhi* – deyir ki: "Biz *Ruyətullahın* haqq olduğu barədə hədislər rəvayət etdik: Əbu Bəkr, Huzeyfə, İbn Məsud, İbn Abbas, Əbu Musa və s. səhabələrdən – *Allah Onlardan Razı Olsun* -. *Ruyətullahın* olmaması barədə bizlərə səhabələrdən heç bir rəvayət gəlməmişdir. Əgər

---

[167] Qattani "Nazmul Mutanasira Minəl Hədis əl-Mutavati", "Mətailul Musirat".
[168] İbn Kəsir "Muxtəsər Təfsir".
[169] "Əqidətul Təhaviyyə".
[170] "Hədiyul Ərvah" 355.
[171] Təbəri "Təfsir Təbəri" 8/503.
[172] "Hədiyul Ərvah" 355-384.
[173] "Hədiyul Ərvah" 386, "Fəthul Bəri" 13/434,7009, Ləlakai "Usulu Etiqad" 3/495,867.

onlar arasında bu məsələdə ziddiyət olsaydı bizə xəbər çatardı. Onlar Allahı Qiyamət günü görmək barəsində ittifaq etmişlər”[174]. İbn Abdul Bərr – *rahmətullahi aleyhi* – deyir ki, İmam Məlik – *rahmətullahi aleyhi* – dən soruşurlar ki: “Allahı Qiyamət günü görəcəyikmi?”. O: “Bəli, ***«O, gün üzlər Rəbbinin gül cəmalına baxıb sevinəcəkdir».*** *(əl-Qiyamə 22-23).* Digər qrup haqqında: ***«Qiyamət günü onlarla Rəbləri arasında hicab çəkiləcək və onlar Rəblərini görməyəcəklər».*** *(əl-Mutəffifin 15)*[175]. Vaki b. Cərrah – *rahmətullahi aleyhi* – deyir ki: “Möminlər Onu Cənnətdə görəcəklər, möminlərdən qeyrisi onu görməyəcəkdir”[176]. İshaq b. Rahaveh – *rahmətullahi aleyhi* – Ruyatullahın haqq oluğunu söyləyənlər barəsində danışdıqda deyir ki: “Onlar haqqı söyləmişlər, buna müxalif olaraq inkar edən yalnız bidət əhli və dini savadı az olanlar olmuşlar”[177]. İmam Əhməd – *rahmətullahi aleyhi* – nin yanında *Ruyətullahı* iknar edən bir kimsədən söz edildi. İmam qəzəblənərək dedi: Kim desə ki, Qiyamət günü Rəbbimizi görməyəcəyik kafirdir, kim olursa olsun Allahın qəzəbi və lənəti onun üzərinə olsun. Məgər Allah buyurmadı: ***«O, gün üzlər Rəbbinin gül cəmalına baxıb sevinəcəkdir».*** *(əl-Qiyamə 22-23).* Məgər Allah buyurmadı: ***«Qiyamət günü onlarla Rəbləri arasında hicab çəkiləcək və onlar Rəblərini görməyəcəklər».*** *(əl-Mutəffifin 15)*[178]. Hənbəl b. İshaq – *rahmətullahi aleyhi* – rəvayət edir ki, İmam Əhməd – *rahmətullahi aleyhi* – dedi: “Kim desə ki, Qiyamət günü Allah görülməyəcək – Cəhmidir, Allah və Rəsulunu inkar edən kafirdir”[179]. Əbu Davud əl-Misri – *rahmətullahi aleyhi* – deyir ki, Nəim b. Həmməd – *rahmətullahi aleyhi* – ilə bərabər oturmuşduq. Nəim, Muzəni – *rahmətullahi aleyhi* – soruşdu: “Sən Quran barəsində nə deyirsən?”. O: “Allahın kəlamıdır”. Həmməd: “Yəni, Məxluq deyildir?”. Muzəni: “Bəli, yaradılmamışdır”. Nəim: “Sən düşünürsən ki, Qiyamət günü Allahı Qiyamət günü (möminlər Cənnətdə) görəcəklər?”. Muzəni: “Bəli” deyə cavab verdi[180].

Əhli Sünnətdən Üç Görüş – İbn Qeyyim – *rahmətullahi aleyhi* – deyir ki: “Allahın görülməsi ilə bağlı Əhli Sünnətdən üç görüş vardır: 1. Allahı sadəcə möminlər görəcəkdir. 2. Məhşərdə Allahı mömin, kafir hər kəs

---

[174] “Hədiyul Ərvah” 386.
[175] əl-İntiqa 36.
[176] “Hədiyul Ərvah” 385.
[177] “Hədiyul Ərvah”.
[178] “Hədiyul Ərvah”.
[179] “əl-Qovl Əhməd b. Həbəl Fi Cərh və Tadil” 4303, “Hədiyul Ərvah” 392.
[180] “Hədiyul Ərvah” 393.

görəcəkdir. Sonra kafirlərə pərdələnəcək və bir daha görməyəcəklər. 3. Münafiqlər görəcəklər, kafirlər isə yox”[181].

MÜXALİFLƏRİN GƏTİRDİKLƏRİ BƏZİ ŞÜBHƏLƏR VƏ ONLARA VERİLƏN CAVABLAR

Müxaliflərin Şübhələri: ***«O, gün üzlər Rəbbinin gül camalına baxıb sevinəcəkdir».*** *(əl-Qiyamə 22-23).* Müxaliflər qeyd edirlər ki: “Bu ayədə ***Baxmaq*** deyil, ***Gözləməkdir***. ***Cavab:*** Deyilir ki: Gözləmək qəlb ilə bağlı olan bir şeydir. Cənnətdə isə gözləmək ola bilməz, çünki o, əlaqəlidir narahatçılıq və kədərlə. Halbuki Cənnət əhli bu hissləri keçirməyəcəkdir. Onlar Cənnətin füsünkarlığından həzz alıb dincələcəklər və nəinsə intizarında olub gözləməyəcəklər. Həmçinin ayədə keçən ***İlə*** kəliməsi burada gözləmək deyil, Baxmaq olduğuna dəlildir”. Bəziləri də qeyd edirlər ki: Baxmaq kəlməsindən qəsd – Allahın onlara verəcəyi mükafata baxacaqlar deməkdir. ***Cavab:*** *Subhənəllah!* Məgər ayədə Allah buyurur ki: “Onlar Allahın onlara nə mükafat verəcəyinə baxacaqlar”. Kim bu cür təfsir verib. Ayələri təvil etmək olmaz. Allah buyurur: ***«O, gün üzlər Rəbbinin gül camalına baxıb sevinəcəkdir».*** *(əl-Qiyamə 22-23).* Müxaliflərin söylədiyi kimi əgər bu mümkün olmasaydı, onda belə çıxır ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in bilmədiyi bir məsələni müxaliflər bilirdilər və onlar Allahdan daha çox xəbərdar idilər. *Allah Qorusun*!

Müxaliflərə Cavab: Bu ayə altı kəlmədən ibarətdir ki, bunların beşi Allahın görülməsinə dəlalət edir. ***«O, gün üzlər Rəbbinin gül camalına baxıb sevinəcəkdir».*** *(əl-Qiyamə 22-23).*

1. ***Vucuhun*** – üzlər: Müxaliflər qeyd edirlər ki, bu ayədə olan görmək qəlbnəndir. Lakin bu səhv fikirdir. ***Raəə*** – sözü ərəb dilində iki cürdür: **1).** ***Bəsariyyə*** – gözlə. **2).** ***Qulubun*** – qəlblə. Allah: “***Qulubun*** – qəlblər o, gün sevinəcək” deyə buyurmadı. Əksinə Allah buyurdu: ***Vucuhun*** – üzlər o, gün sevinəcək. Gözlər də üzdə olduğu üçün nəzər salacaqdır. Bir məsələ də var ki, qəlb nəzər sala bilməz, gözlər isə nəzər sala bilər. Ayədə keçən üzlər kəliməsi ona dəlildir ki: Möminlər üzlərində yerləşən iki gözlərilə baxacaqlar. ***“Biz sənin üzünün göyə tərəf çevrildiyini gördük və Biz səni razı qalacağın qibləyə tərəf döndərəcəyik. Sən üzünü Məscidulharama tərəf çevir! Harada olursunuzsa olun, üzünüzü ona tərəf çevirin!”.*** *(əl-Bəqərə 144).* Bu ayədə də üzünün göyə tərəf

[181] “Hədiyul Ərvah” 347.

çevrildiyini Allah buyurur. Aydındır ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – səmaya baxdığı zaman iki gözü ilə baxardı”.

2. ***Yəuməizin*** – o, gün: Məgər qəlb Allahın olduğunu bilmir. Hətta kafir belə olsa çətin anlarında əllərini göyə qaldıraraq dua edir. Lakin Allahın o, günü xüsusiləşdirməsi məhz möminlərin öz Rəbblərini görəcəyinə işarədir.

3. ***Nədira*** – üzlər ağ, sevinc içində: Nə üçün Allah möminləri ayırdı, onları sevinc içərisində olacaqlarını buyurdu. Çünkü möminlərdən fərqli olaraq kafirlər o günü öz Rəbblərini görməyəcəklər. ***«Qiyamət günü onlarla Rəbləri arasında hicab çəkiləcək və onlar Rəblərini görməyəcəklər».*** *(əl-Mutəffifin 15)* İmam Şafii – *rahmətullahi aleyhi* – deyir ki: «Bu buyuruqla Allah bizlərə qarşı pərdələnməyəcəyini, ona baxacaq və onu görməkdə hər hansı bir çətinliklə qarşılaşmayacaq bir topluluq olacağını bildirmişdir»[182].

4. ***İlə*** – tərəf: Yəni, Rəblərinə tərəf baxacaqlar. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər– *sallallahu aleyhi və səlləm* – in zamanında bir qurup insanlar: «Ya Rəsulallah! Qiyamət günü Rəbbimizi görəcəyikmi?» deyə soruşdular. (Peyğəmbər): «Bədirlənmiş ayı yanında bulud olmayan açıq havada görməkdə şübhə edirsinizmi?». Onlar: «Xeyr, Ya Rəsulallah!» dedilər. (Peyğəmbər): «Yanında bulud olmayan açıq havada günəşi görməkdə şübhə edirsinizmi?». Onlar: «Xeyr, Ya Rəsulallah!» dedilər. (Peyğəmbər): «Sizlər onu (Allahı) beləcə görəcəksiniz?» deyə buyurdu. Qiyamət günü insanlar bir yerə toplanacaqlar. Allah: «(Dünyada ikən) Kim nəyə ibadət edirdisə onun ardınca düşsün!» deyə buyurur. Onlardan kimiləri günəşin, kimiləri ayın, kimiləri də tağutların[183] ardınca düşürlər. Bu ümmət isə münafiqləri də içində olduqları halda (yerlərində) durub qalırlar. Allah onların yanlarına (tanıdıqlarından başqa bir surətdə) yaxınlaşıb: «Mən sizin Rəbbinizəm!» deyə buyurur. Onlar da: «Rəbbimiz gələnə qədər bizim yerimiz buradır. Buradan heç bir yana tərpənməyəcəyik. Rəbbimiz gəldikdə isə biz onu tanıyacağıq (sən bizim Rəbbimiz deyilsən)» deyirlər. Bundan sonra Allah (ikinci dəfə) onların yanına gəlir və: «Mən sizin Rəbbinizəm!» deyə buyurur. Onlar da: «Bəli, sən bizim Rəbbimizsən!» deyirlər[184].

5. ***Nazira*** – nəzər salacaqlar: Müxaliflər şübhə salmaq üçün bu ayəni dəlil gətirirlər. ***«Gözlər onu dərk edə bilməz, lakin o, gözləri dərk edər».***

---

[182] əl-İntiqa s. 79.

[183] ***Tağut*** – tüğyan sözündəndir. Həddi aşmaq deməkdir. İbn Qeyyim – *rahmətullahi aleyhi* – deyir: “Tağut bəndənin ibadətdə, itaətdə və tabeçilikdə ifrata varması, həddi aşmasıdır. Allah və Rəsulunu buraxıb onların əvəzində ibadət etdiyi, itaət etdiyi və ardınca getdiyi kimsə deməkdir”.

[184] Buxari 806, Müslim 182.

(əl-Ənam 103). Baxış (nəzər) bölünür qəlbin baxışına və bir də göz baxışına. ***"Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər** (qəlb gözü) **kor olar". (əl-Həcc 46).*** Bu ayədə qəsd olunan qəlb baxışıdır. Ərəblər deyirlər ki: "Filankəs bəsirətli (gözüaçıqdır) öz sənətində". Bu sözlə ərəblər o, kimsənin öz sənətinin mahir biləni olduğunu söyləmiş olurlar. Həmçinin Ərəblər deyirlər ki: "Filankəs qəlbi ilə gördü və ya gözü ilə gördü". Bütün bu kəlimələr Ərəblərdə işlədilir və dəlildir ki, göz baxışından başqa qəlb (gözü) baxışı da vardır. Əgər biz Allahı gözlərimizlə dərk etmək qabiliyyətinə malik deyiliksə bu o, demək deyil ki, biz Onu görə bilmərik. Göz ilə Allahı görmək, Onu dərk etmək deyildir, həmçinin Allahı qəlb ilə bilmək (anlamaq) Onu büstbütün dərk etmək deyildir. Sözsüz ki, nə bu dünyada, nə də axirətdə Allahı heç bir məxluq dərk edə bilməz. Lakin insan baxdığı, bir şeyi görə bilər, lakin dərk etməyə bilər. Ağıllar onu bilirlər, lakin bilməkləri ilə onu dərk edə bilmirlər. İbn Abbas - *radıyallahu anhu* – deyir ki: "***Gözlər onu dərk edə bilməz*** - Onu əhatə edə bilməzlər" deməkdir[185]. Qatadə - *radıyallahu anhu* – deyir ki: "O, gözlər onu idrak edə bilməyəcək qədər böyükdür"[186]. Atəyyə - *rahmətullahi aleyhi* - deyir ki: "Allaha baxarlar, əzəmətindən dolayı gözlər Onu əhatə edə bilməz"[187]. Çünki hər bir şeyi Elimi ilə əhatə edən Allahı bir şeylər tərəfindən əhatə edilə biləcəyini söyləmək caiz deyildir. Buna görə də dərk etmək tamamilə ayrı bir şey, görmək isə tam başqa bir şeydir. ***«Onlar taxtlar üstündə** (əyləşib) **tamaşa edəcəklər». (əl-Mutəffifin 24)*** İmam Əhməd – *rahmətullahi aleyhi* – deyir ki: «Allahın axirətdə görülməyəcəyini iddi edən bir kimsə kafirdir və Quranı yalanlayan bir kimsədir»[188].

<u>Müxaliflərin Digər Şübhələri</u>: «Musa təyin etdiyimiz vaxtda** (Tur-i Sinaya) **gəldikdə Rəbbi onunla** (arada heç bir vasitə olmadan**) danışdı.** (Musa) **"Ey Rəbbim! Özünü** (camalını) **mənə göstər. Sənə baxım!" – dedi. Allah: "Sən Məni əsla görə bilməzsən. Lakin** (bu) **dağa bax. Əgər o yerində dura bilsə, sən də Məni görə bilərsən" - buyurdu. Rəbbi dağa təcəlli etdikdə** (Allahın nuru dağa saçıldıqda) **onu parça-parça etdi. Musa da bayılıb düşdü. Ayılandan sonra isə: "Sən paksan, müqəddəssən!** (Bütün eyib və nöqsanlardan uzaqsan!) **Sənə** (bu işimdən ötrü) **tövbə etdim. Mən iman gətirənlərin birincisiyəm!" – dedi». (əl-Əraf 143). Müxaliflərin dediyinə görə bu ayədə olan ***Lən Tərani –***

---

185 Qurtubi 7/54-55, "Durrul Mənsur" Təfsir Yunus 26.
186 İbn Kəsir 2/167.
187 Qurtubi 19/110.
188 «Tabaqatul Hənbəliyə» 1/59,145.

kəlməsi əbədiyyən nəfy (inkar) ifadə edər. Bu görmənin heç vaxt həqiqət olmayacağına dəlalət edir. ***Cavab:*** Bu ayə elə onların özləri üçün bir dəlildir. Bu dil baxımdan da doğru deyildir. Allah Qurani Kərimdə Yəhudilər haqqında buyurur: ***«Yəhudilər deyirlər ki, bizim yerimiz Cənnətdir. Orada bizə gözəl nemətlər hazırlanıb.*** *(Ya Muhəmməd!)* ***Sən onlara*** *(yəhudilərə)* ***de: Əgər*** *(sizin iddianıza görə)* ***Allah yanında axirət evi*** *(Cənnət)* ***başqa insanlara deyil, yalnız sizə məxsusdursa və bu sözünüz doğrudursa*** *(Allahdan)* ***ölüm istəyin!*** *(Cənnətin yalnız özünə aid olduğunu iddia edən kimsə ona qovuşmağa səbəb olan ölümü mütləq arzular)****.*** *(Əlbətdə)* ***onlar öz əməllərini bildiklərinə görə ölümü əsla istəməzlər».*** *(əl-Bəqərə 95-96).* Ayədən də görüldüyü kimi ***Lən -*** onlar ölümü bu dünyada təmənna etməyəcəklər. Digər bir ayədə isə: ***«Onlar müraciət edib deyəcəklər: Ey Məlik! Qoy Rəbbin bizi öldürsün*** *(bu əzabdan qurtaraq).* ***O, isə*** *(min ildən sonra onlara)* ***Siz*** *(həmişəlik burada)* ***qalacaqsınız».*** *(əz-Zumər 77).* Cəhənnəmdə isə ölümü təmənna etdiklərini görürük. ***Həmçinin -*** Musa - *əlehissəlam* - Allahın Rəsulu, onun kəlimi olduğu halda, Allah haqqında nəyin imkansız olduğunu daha yaxşı bilirdi. Əgər onun görülməsi imkansız olsaydı belə bir istəklə Allaha müraciət etməzdi. Peyğəmbərlərin həyatlarına baxsaq görərik ki, onlar Allaha layiq olamayan bir şeylə müraciət etdikdə Allah onları dərhal düzəldərdi. Məs: Nuh - *əlehissəlam* - öz oğlu üçün kömək istədikdə, İbrahim - *əlehissəlam* - öz atası üçün, Muhəmməd – *sallallahu aleyhi və səlləm* – öz əmisi üçün kömək istədikdə Allah onlara qadağan etdi. Musa - *əlehissəlam* – a isə bu qadağanı qoymadı, əksinə: «Tur dağına bax» deyə buyurdu. Buna görə də Allah: «Sən məni əsla görə bilməzsən» – buyurduğunun mənası, dünyada məni görə bilməyəcəksən deməkdir. ***"Allahdan qorxun və*** *(Qiyamət günü)* ***Onun hüzuruna gedəcəyinizi bilin!".*** *(əl-Bəqərə 223).* ***"****(Möminlərin)* ***Ona qovuşacaqlarını gün*** *(Cənnətdə bir-birinə)* ***xeyir-duaları*** *(və ya Allahın onlara verəcəyi xeyir-dua)* ***"Salam"dır!*** *(Allah)* ***onlar üçün çox qiymətli*** *(tükənməz, gözəl)* ***mükafat hazırlamışdır".*** *(əl-Əhzab 44).* ***"Ey insan! Sən*** *(ölənə qədər)* ***Rəbbinə doğru çalışıb çabalayırsan. Sən Ona qovuşacaqsan!".*** *(əl-İnşiqaq 6).* Qramatika alimləri ittifaq ediblər ki: "***Qovuşmaq*** **–** diri bir varlığa nisbət edilirsə - ***Görmə -*** mənasındadır"[189].

Müxaliflərə Cavab: «Qiyamət günü onlarla Rəbləri arasında hicab çəkiləcək və onlar Rəblərini görməyəcəklər». *(əl-Mutəffifin 15).* Bu kafirlər üçün ən böyük əzabdır. Allah kimi Özündən hicab ilə pərdələmişsə o, kimsə mütləq əzab görəcəkdir. İbn Kəsir, İmam Şafii –

[189] "Hədiyul Ərvah" 346.

rahmətullahi aleyhi – nin sözlərini zikr edərək deyir ki: “Bu ayə dəlildir ki, möminlər ilə Rəbləri arasında hicab olmayacaqdır”[190]. Rabiya b. Suleyman – *rahmətullahi aleyhi* – deyir ki, İmam Şafii – *rahmətullahi aleyhi* – nin dərsində idim. Ona: ***«Qiyamət günü onlarla Rəbləri arasında hicab çəkiləcək və onlar Rəblərini görməyəcəklər»*** ayəsi barəsində nə deyərsiniz deyə bir kağız parçasında sual verildi. Şafii: ***«Qiyamət günü onlarla Rəbləri arasında hicab çəkiləcək və onlar Rəblərini görməyəcəklər» -*** möminlər (Rəbblərindən) mükafat olaraq Onu görəcəklər...”[191].

Müxaliflərə Cavab: “Yaxşı işlər görənləri Cənnət və daha artıq *(əlavə)* ***mükafat gözləyir...”.*** *(Yunus 25-26).* ***Artıq*** *(əlavə)* – Cənnətdə isə bu mükafat Rəbbinin Vəchinə baxmaqdır. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – bu ayəni oxudu: Yaxşı işlər görənləri Cənnət və daha artıq mükafat gözləyir – Cənnət əhli Cənnətə, Cəhənnəm əhli Cəhənnəmə girdiyi zaman bir Carçı: Ey Cənnət əhli! Sizə Allahın bir sözü vardır. Sizə verdiyi vədi yerinə yetirmək istəyir” deyə səsləyər. Onlar: “Tərəzilərimiz ağır gəlmiş, üzlərimizi ağartmış, bizi Cənnətə salmış və Cəhənnəmdən uzaqlaşdırmışdır”. Bu zaman Allah pərdəni qaldırar. Onlar üçün Rəblərinə baxmaqdan daha sevimli bir şey verilməmişdir. ***Artıq*** *(əlavə)* – budur”[192]. Əbu Musa - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Allah Qiyamət Günü bir Munadi (Carçı) yollayar. Munadi uzaq və yaxın olan hər bir kəsin eşidəcəyi bir səslə: “Ey Cənnət əhli! Allah sizə ən gözəlini vəd etmişdir? Ən gözəli Cənnət, ***Artıq*** (əlavə) – isə Allahın vəchinə baxmaqdır”[193]. Əbu Bəkr əs-Sıddıq, Xuzeyfə - *radıyallahu anhum* – dan Cənnətdə olan ***Artıq*** *(əlavə)* nədir deyə soruşduqda onlar: “Bu Allahın Kərim vəchinə baxmaqdır” demişlər[194]. Darakutni və İbn Mərvədi - *rahmətullahi aleyhi* -, Suheyb - *radıyallahu anhu* – dan rəvayət edirlər ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “***Artıq*** – Allahın Vəchinə baxmaqdır”[195]. Əbu Hureyrə - *radıyallahu anhu* – deyir ki: “Ölümü dadmadıqca Rəbbinizi görməyəcəksiniz”[196]. Təbəri - *rahmətullahi aleyhi* - rəvayət edir ki: “Əbu Bəkr, Huzeyfə, Amir b. Sad, Əbu İshaq, Əbu Musa, Əbu Leylə, Həsənul Bəsri, AbdurRahman b. Mehdi, Suheyb ər-Rumi, Qatadə, Kab b. Ucra,

---

[190] “Hədiyul Ərvah” 350, Ləlakai “Usuli Etiqad”.
[191] “Hədiyul Ərvah” 350.
[192] Müslim 181, Tirmizi 3/81, İbn Məcə 17, İbni Kəsir “Nihayə” 2/481, İbni Cərir 11/74.
[193] İbn Kəsir “Nihayə” 2/481, İbn Cərir “Təfsir” 11/74.
[194] Qurtubi 8/330, İbn Cərir 11/74, “İbn Qeyyim “Hədiyul Ərvah” 348.
[195] “Durrul Mənsur” Yunus 26, Təfsir “Cəlaleyn” 2/98.
[196] “Hədiyul Ərvah” 385, Ləlakai “Usulu Etiqadi” 3/499, 865,

Ubey b. Kəb – *Allah Onlardan Razı Olsun* – deyirlər ki: ***"Yaxşı işlər görənləri Cənnət və daha artıq** (əlavə) **mükafat gözləyir...".** (Yunus 25-26).* Ayənin təfsirində ***Artıq** (əlavə)* – Allahın vəchinə baxmaqdır" deyə təfsir etmişlər[197]. Mucahid, Səid b. Museyyib, Həsənul Bəsri – *Allah Onlardan Razı Olsun* – deyirlər ki: "***Artıq*** *(əlavə)* – Allahın vəchinə baxmaqdır"[198]. Hişam b. Həsən - *rahmətullahi aleyhi* - deyir ki: "Allah (möminlərə) Cənnəti göstərəcəkdir. Onlar Cənnətin ləzzətlərini Allahı gördükləri zaman unudacaqlar"[199]. Səid b. Cubeyr - *rahmətullahi aleyhi* - deyir ki: "Cənnətin ən hörmətli sakinləri səhər-axşam Rəblərini görənlərdir"[200]. İmam Əhməd - *rahmətullahi aleyhi* - deyir ki: "Kim Allahın (Qiyamət günü) görülmədiyini etiqad edərsə o, kimsə kafirdir. (Başqa rəvayətdə: Zındıqdır)"[201]. Ukbə b. Xabis - *rahmətullahi aleyhi* - deyir ki: "Bir gün Əbu Nuaym - *rahmətullahi aleyhi* – nin yanına gəldik. Evindən düşərək bizim yanımıza gəlib oturdu. Üzündən qəzəbli olduğunu gördük". O: "Şureyh b. Abdullah ən-Nəhai deyir ki: De, mühacirlər bizə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən rəvayət edirlər ki, (möminlər Cənnətdə) Allahı görəcəklər, bu Yəhudi balası (Bişr əl-Marisi) deyir ki: Allahı görməyəcəyik"[202]. Sufyan b. Uyeynə - *rahmətullahi aleyhi* – deyir ki: "Kim – Quran Allahın kəlamıdır, Allahı Cənnəttə görəcəklər - deyə etiqad etməzsə o, kimsə Cəhmidir"[203].

Müxaliflərə Cavab*: «Etdikləri əməllərin mükafatı olaraq** *(Allah dərgahında)* **möminlər üçün göz oxşayan** *(onları sevindirəcək)* **nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz».** *(əs-Səcdə 17).* Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Əziz və Cəlil olan Allah: Mən yaxşı qullarım üçün heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və heç bir insanın qəlbindən keçirmədiyi şeylər hazırladım" buyurdu. Allah Kitabında bunu təsdiqləyən dəlil bu ayədir: "Etdiklərinin əvəzi olaraq onlar üçün nə kimi şeylər saxlandığını heç kimsə bilməz"[204]. Bütün bu nemətlər ***- Heç Bir Gözün Görmədiyi, Heç Bir Qulağın Eşitmədiyi Və Heç Bir İnsanın Qəlbindən Keçirmədiyi Şeylər - möminlər üçün Cənnətdə hazırlanmışdır. Bu nemətlər içərisində ən böyük nemət isə Uca və Böyük Rəbbinin Cəmalına tamaşa etmək nemətidir. Möminlər illər

---

197 "Təfsir Təbəri" 4/412, Darimi "Raddu Alə Cəhmi" 102,103.
198 "Muxtəsər İbn Kəsir Təfsir" 3/460,463, №789,790.
199 "Hədiyul Ərvah" 387, İbn Batta "İbana" 3/40.
200 "Hədiyul Ərvah" 387.
201 "Hədiyul Ərvah" 391,392.
202 "Hədiyul Ərvah" 388.
203 "Hədiyul Ərvah" 389.
204 Buxari 13/465, Müslim 2824.

boyu etdikləri ibadətlərinin bir mükafatı olaraq Rəbblərinin Cəmalına tamaşa etmək arzusundadırlar. Allah Peyğəmbərlərini, Elçilərini, Saleh qullarını Onun Cəmalına baxmaq nemətindən heç vaxt məhrum etməz. Allah bizlərə Onun gözəl Cəmalına baxmağı nəsib etsin! Amin! Ya Rəbbim, Amin!

ALLAH - *Subhənəhu Və Təalə* - nin ƏL SİFƏTİ

Allah dedi: «Ey İblis! Sənə Mənim iki əlimlə yaratdığıma səcdə etməyə mane olan nə idi? Təkəbbür göstərdin, böyüklərdənmi olmuşdun?"» *(Sad 75).* ***«Allahın əli onların əllərinin üstündədir».*** *(əl-Fəth 10).* Ancaq bu yaratdıqlarının əlləri kimi deyildir, bir üzüv (orqan) da deyildir. O, əllərin yaradıcısıdır. ***«Onun bənzəri heç bir şey yoxdur».*** *(əş-Şura 11)*[205]. ***«Hökm əlində olan Allah nə qədər uca və nə qədər uludur. O, hər şeyə qadirdir».*** *(əl-Mulk 1).*

Əhli Sünnə Vəl Cəmaatın bu ayələrdə mövqeyi ayələri olduğu kimi qəbul etmək, onları müxaliflər kimi qüdrət, nemət kimi mənalarla təvil etməməkdir. Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir: «Allahın əlindən məqsəd qüdrətdir və ya nemətdir deyilməz. Çünki bu durumda Allahın sifətləri iptal olunmuş olur. Bu isə Mutəzilə və Qədəriyyənin görüşüdür. Lakin Allahın əli Onun necəliyi bilinməyən sifətidir. Abdullah b. Amr - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah üç şeyi əli ilə yaratmışdır. Adəmı, Tövratı əli ilə yazmışdı və Ədn Cənnətindəki (ağacları da) əli ilə əkmişdi»[206]. İbn Ömər - *radıyallahu anhu* – dan gələn rəvayətdə isə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurur: «Allah dörd şeyi əli ilə yaratmışdır. Ərşi, qələmi, Adəmi və Ədn Cənnətini. Sonra digər yaratdıqlarına ol demiş, onlar da olmuşlar»[207]. Kab - *radıyallahu anhu* – deyir ki: "Allah üç şeydən başqasını əli ilə yaratmamışdır. Adəmi əli ilə yaratmış, Tövratı əli ilə yaratmış, Ədn Cənnətindəki (ağacları da) əli ilə əkmişdir və ona danış demiş, o da möminlər qurtulmuşdur – demişdir"[208]. Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allah Firdousu əli ilə bina etmiş və hər müşrikə, içki içənə və təkəbbürlüyə oranı haram etmişdir"[209].

---

205 «Fikhul Əbsat» s. 52,53.
206 Darakutni «əs-Sifət» s 45, Beyhəqi «əl-Əsmə və əs-Sifət» s 403 Mərfu hədis.
207 Darimi "Rəddu Alə Cəhmi" 35, Təbəri 21/238, Zəhəbi «əl-Uluv» sənədi ceyyid (yaxşı, gözəl), əl-Albani «Muxtasarul-Uluv» s 105 səhih.
208 Beyhəqi "əl-Bas vən Nuşur" 213, Həkim 2/392, İbn Əbi Şeybə "Musənnəf" 13/141.
209 Əbu Nuaym "Sıfət əl-Cənnəh" 1/89, 2/27, Hilyə 3/94-95.

Allah Qurani Kərimdə bəzi ayələrdə ***<u>Yəduhu</u>*** – bir əl, ***<u>Yədeyyə</u>*** – iki əl, bəzi yerlərdə isə ***<u>Əydinə</u>*** – əllərmizi deyə buyurmuşdu. Çox vaxt iki əza ilə edilən bir işi bir əza ilə edilməsi demək də mümkündür. Məs: Gözümlə gördüm, qulağımla eşitdim və s. Məqsəd isə iki göz və qulaqdır. ***«Oğru kişi və qadının gördükləri işin əvəzi kimi Allahdan cəza olaraq əllərini kəsin».*** *(əl-Maidə 38).* Məqsəd isə iki əldir. ***«Əgər ikiniz də Allaha tövbə etsəniz».*** *(ət-Təhrim 4).* Məqsəd isə ikinizin qəlbidir. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allahın əli elə doludur ki, gecə və gündüz ondan davamlı axar. Siz Allahın göyləri və yeri yaratdıqdan bəri (əliylə) xərclədiyi (verdiyi) şeyləri görmürsünüzmü? Bütün bu verdikləri onun sağ əlindəkiləri heç bir şəkildə əskiltməmişdir»[210].

<u>Allahin Hər İki Əli Də Sağdır</u>: Bu İbn Xuzeymə «ət-Tövhid» 1/159, İmam Əhməd bax: Əbu Yəla «Təbəqatul Hənəbilə» 1/313, Beyhəqi «əl-Əsmə vəs-Sifət» 2/55,56, İbn Teymiyyə «Məcmuul Fətava» 6/397,400, əl-Albani «Məcəllətul Asalə» s 68, «Səhih Hədislər Silsiləsi» 3136 və s. alimlərin görüşüdür. Doğru olan görüşdə elə budur!

<u>Allahin İki Əlindən Biri Sağ, Digəri Sol Əldir</u>: Bu Darimi «ər-Rədd alə Bişril Mərisi» s. 155, Suleyman ət-Təmimi «Kitabut Tövhid» s. 193, Həsən Sıddıq Xan «Katfus Samər» s. 66 və s. alimlərin görüşüdür.

İbn Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Şübhəsiz ki, adil olanlar (Qiyamət günü) Rahmənin sağında nurdan minbərlər üzərində olacaqlar. Rahmənin hər iki əli də sağdır. Onlar hökümlərində, ailə haqlarında və əlləri altında olanlarla adil davrananlardır»[211]. İbn Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah ilk olaraq qələmi yaratmış və onu sağ əli ilə tutmuşdur. Onun hər iki əli də sağdır»[212]. İbn Ömər, Ubadə İbn Sabit və İbn Abbas - *radıyallahu anhum* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Heç şübhəsiz ki, Allahın ilk yaratdığı şey qələmdir». Ona: «Yaz!» deyə buyurdu. Qələm: «Ya Rəbbim! Nə yazım» dedi. Allah: «Qiyamətin qopacağı vaxta qədər hər bir şeyin qədərini yaz!» deyə buyurdu[213]. Əbu

---

[210] Buxari, Müslim, Əhməd 2/242,Tirmizi 3045, İbn Məcə 197, İbn Xuzeymə «ət-Tövhid» 90, əl-Albani «Səhihul Cəmius Səğir» 8066, «Ziləlul Cənnə» 1/348.

[211] Müslim 1827, Əhməd 2/160, Nəsai 8/221,222, əl-Albani «Səhihul Cəmius Səğir» 1953, «Məxtəsər Səhih Müslim» 1207.

[212] İbn Əbu Asim «əs-Sünnə» 106, əl-Albani «Səhih Hədislər Silsiləsi» 3136, «Ziləlul Cənnə» 1/49

[213] Əbu Davud 2155,3319, Tirmizi 3319, Musnəd 5/317, İbn Əbi Asim "Sünnə" 102-107, əl-Albani "Ziləlul Cənnə" 1/48-50, "Mişkət" 94, "Səhih Silsilə" 133. Şeyx, mühəddis əl-Albani – *rahmətullahi aleyhi* – nin bu hədis ilə əlaqəli gözəl bir təhrici vardı. Bu təhricdə «Ona yaz dedi» sözünün başında

Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Allah, Adəmi yaradıb ona ruhundan üflədiyi zaman hər iki əli də bağlı olduğu halda Adəmə: «Hansını istəyirsən seç al ey Adəm!» dedi. Adəm də: «Rəbbimin sağ əlini seçdim. Lakin onun hər iki əlidə mübarək sağ əldir» dedi. Daha sonra onu açdıqda içində Adəm və zuriyyəti olduğu və onlardan hər bir insanın ömrünün orada yazılı olduğu ortaya çıxdı[214].

Əhli Sünnə Vəl Cəmaat Allahın ovcunun olmasına da iman edirlər. Səhih hədislərdə ***Ovuc*** – ləfzi də keçməkdədir. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Elə bir kimsə yoxdur ki, halal bir şeydən sədəqə vermiş olsun və Allah onu sağ əli ilə alıb qəbul etsin. Bu bir xurma olsa da belə. Lakin Allah halaldan başqasını qəbul etməz. Necə ki, sizdən biriniz tayını və ya dəvə balasını böyüdüb yetişdirdiyi kimi sədəqə də Rahmənin ovcunda böyüyüb (çoxalır). Nəhayət dağ kimi vəya dağdan da böyük olur»[215].

Həmçinin - barmaqlarının olmasına da iman edirlər. Muaz b. Cəbəl - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Rəbbimi (yuxuda) ən gözəl surətdə gördüm və Rəbbimin ovcunu iki çiynimin (kürək sümüyümün) arasına qoyduğunu gördüm. Onun barmaq uclarının (başqa rəvayətdə əllərinin) soyuqluğunu qəlbimdə hiss etdim»[216]. Abdullah b. Amr b. əl-As - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Adəm oğullarının qəlbləri Rahmənin barmaqlarından iki barmağı arasında tək bir qəlb kimidir. Onları istədiyi kimi çevirir»[217]. İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, bir Yəhudi Rəsulullah – *sallallahu aleyhi və səlləm* – ə dedi: «Ey Muhəmməd (Başqa rəvayətdə: Ey Əbul Qasım!) Şübhəsiz ki, Allah Qiyamət günü göyləri bir barmağına, yeddi qat yeri bir barmağına, dağları bir barmağına, ağacları bir barmağına və yaratdıqlarını bir barmağına alıb buyuracaq: «Bu gün Məlik mənəm». Bu sözlərdən sonra Rəsulullah – *sallallahu aleyhi və səlləm* – qabaq dişləri

---

bir «***Fə***» və ya «***Summə - Sonra***» olmasını təhric etmişdir. Buna görə də o, qələmin ərşdən öncə yaranmış olduğunu, ərşin isə yazmadan öncə yradılmış olduğunu təhric etmişdir".

[214] İbn Əbu Asim «əs-Sünnə» 206, İbn Hibban «əl-İhsan» 6167, Beyhəqi «Əsmə və Sifət» 2/56 s. 324, Tirmizi başqa ləfzlə rəvayət edir 3076, əl-Albani «Ziləlil Cənnə» 1/91.

[215] Buxari 1410, Müslim 1014, Əhməd 2/331,418, Tirmizi 661,662, Nəsai 5/56,58, İbn Məcə 1842, əl-Albani «İrvalul Ğəlil» 3/393,395, 886, «Mişkətul Məsabih» təhqiqi 1/431,432, «Səhihul Cəmius Səğir» 5600, 6152.

[216] İmam Əhməd 5/243, Tirmizi 3235, İbn Əbu Asim «əs-Sünnə» 465,471, əl-Albani «Ziləlul Cənnə» 1/203,205.

[217] Müslim 2654, Əhməd 2/168,173, Tirmizi 2140, İbn Məcə 3834, əl-Albani «Səhih Hədislər Silsiləsi» 1689, "Ziləlul Cənnə" 1/100,103,222, "Mişkət" 89,102, "Sahih Cəmius Sağir" 1685. Lakin bu o, demək deyil ki, Adəm övladının qəlbləri Allahın barmaqları ilə təmas edib (bitişib).

görünəcək şəkildə gülümsəmiş və: ***«Allahı lazımınca qiymətləndirməyənlər. Halbuki Qiyamət günü yer bütünlüklə onun ovcunun içində olacaq, göylər isə onun sağ əli ilə büküləcəkdir».*** *(əz-Zumər 67).* Ayəsini oxudu[218]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah Qiyamət günü yeri ovcunun içinə alır, göyü isə sağ əlinə alıb buyuracaqdır: Mənəm hökmdar, bəs yerin hökmdarları haradadır?»[219]. İbn Ömər – *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurdu: «Allah Qiyamət günü bütün göyləri bükər. Sonra onları sağ əli ilə tutar. Məlik mənəm, zalımlar haradadır? Təkəbbürlülər haradadır? Deyə buyurar. Sonra sol əliylə göyləri bükər. Sonra: Məlik mənəm, zalımlar, təkəbbürlülər haradadır?» deyə buyurar[220]. Əbu Musa əl-Əşari - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah əllərini gecə açır ki, gündüz günahkarı tövbə etsin, gündüz əllərini açır ki, gecə günahkarı tövbə etsin. Bu da günəşin batdığı yerdən doğuncaya qədər davam edər»[221].

ALLAH - *Subhənəhu Və Təalə* – nin İTYAN – GƏLİŞ, MƏCİ – GƏLMƏK SİFƏT

«Yoxsa onlar Allahın bulud kölgələri içində mələklərlə gəlməsini və işin tamam olmasını gözləyirlər». *(əl-Bəqərə 210).* ***«(Məkkə müşrikləri) özlərinə mələklərin, yoxsa Rəbbinin, yaxud da Rəbbinin bəzi qiyamət əlamətlərinin gəlməsinimi gözləyirlər».*** *(əl-Ənam 158).* ***«Sənin Rəbbin gələndə mələklər səf-səf durarlar».*** *(əl-Fəcr 22).*

Müxaliflər bu ayələri əzabın gəlməsi, mələklərin gəlməsi kimi qeyd edirlər. Bu cür təvilə yer yoxdur. Çünki biz bilirik ki, mələklər yalnız Allahın əmri ilə enirlər. ***«Biz dünyaya yalnız sənin Rəbbinin əmri ilə enirik».*** *(Məryəm 64).* Həmçinin ayədən də açıq-aydın görünür ki, mələklər və Rəbbin gəlişi eynidir. Mələklərin səf-səf durması isə təzim etmək məqsədilədir. Hökm vermək üçün isə Allah Qiyamət günü gələcəkdir. Bütün bunlar Allahın felləridir və onlar heç bir yaradılışın enməsinə, qalxmasına, yüksəlməsinə bənzəməz. ***«Ona bənzər heç bir şey yoxdur».*** *(əş-Şura 11).*

---

[218] Buxari 4811,7414,7451,7513, Müslim 2786,2788,4992, Əhməd 1/457, Tirmizi 3238, əl-Albani «Ziləlul Cənnə» 1/238,240, «Mişkətul Məsabih» 5524.

[219] Buxari 4812,6519,7382,7413, Müslim 2787,4994, Əhməd 2/374, İbn Məcə 192, Darimi 2799, əl-Albani «Ziləlul Cənnə» 1/241,242, "Mişkət" 5522, «Səhih Cəmius Səğir» 8125.

[220] Müslim 4995.

[221] Müslim.

ALLAH - *Subhənəhu Və Təalə* - nin NÜZUL – ENMƏ SİFƏTİ

əz-Zəhəbi – *rahmətullahi aleyhi* – deyir ki: «Allahın Nüzul sifətinə aid olan hədislərin hamısı mutəvatirdir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən **28**-səhabənin rəvayət etdiyi bu hədisi Əhli Sünnə ittifaq ilə qəbul etmişlər[222]. Buna görə də inkar və rədd edilməsinə yer yoxdur. Allahın Nüzul etməsi, İstivası kimi yaradılışların istivasına bənzəmədiyi kimi, yaradılışların nüzuluna da bənzəməz»[223]. Allahın dünya səmasına enməsi Onun diləməsinə və hikmətinə bağlı feli sifətlərindən olub ucalığına və böyüklüyünə yaraşır həqiqi bir enməkdir. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Rəbbimiz hər gecənin **1/3**-də dünya səmasına enir və buyurur: Mənə dua edənin duasını qəbul edərəm, məndən istəyənin istədiyini verərəm, bağışlanma diləyəni bağışlayaram»[224]. Allahın Nüzul - enmə sifətini Allahın əmrinin, rəhmətinin enməsi kimi təhrif edeənlər çox böyük xətaya yol vermişlər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – enməyi Allaha izafə etmişdir. Enməni başqasına nisbət etmək açıq mənaya olan təhrifdir. Əgər bundan məqasəd: Xüsusi bir əmr və xüsusi bir rəhmətdir ki, hər zaman olması mümkün deyildir deyilərsə - bu zaman cavabımız: Əgər bu təvil doğru olarsa belə hədis əmr və rəhmətin endiyi ən son nöqtə dünya səması olduğunu göstərir. O, halda bu xüsusi rəhmətin dünya səmasına enməsinin bizim üçün nə xeyiri vardır ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bunu bizə xəbər versin?". Hədis dünya səmasına enənin: Mənə dua edənin duasını qəbul edim, Məndən istəyənin istədiyini verim, Bağışlanma diləyəni bağışlayım – dediyini göstərir. Allahdan qeyrisi bunu söyləyə bilməz. Çünki Allahın əmrinin, rəhmətinin enməsi gecənin **1/3**- xas olan bir şey deyildir. Tərsinə Allahın əmri və rəhməti hər zaman enər. Fudeyl İbn İyad – *rahmətullahi aleyhi* – deyir ki: "Cəhmilərdən biri sənə: Mən (gecənin **3/1** dünya səmasına enən) Rəbbə iman etmirəm (Belə Allahı mən qəbul etmirəm)" deyərsə ona: Mən istədiyini edən Rəbbimə iman etdim" deyə cavab ver[225]. İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* – ın Allahın (gecənin **3/1** dünya səmasına

---

[222] 28 Səhabədən gələn ***Mutəvatir*** hədisdir. Bir çox alim buna işarə etmişdir: İbn AbdulBərr "Təhmid" 7/128, Darkutni "Kitabul Nuzul", İbn Teymiyyə "Məcmuul Fətava" 5/322, Zəhəbi "Uluv" s. 73,79, əl-Albani "İrva" 450, "Şərh Əqidətul Təhaviyyə" s. 222,245, "Ziləlil Cənnə" 1/216-222.

[223] əz-Zəhəbi «əl-Uluvv il-Aliyyul Ğaffar» s.73,79.

[224] Buxari 1145, Müslim 168, 758, Əbu Davud 1315,4733, Tirmizi 446,3498, İbn Məcə 1366, Darimi 1478, Əhməd "Sünnə" 153, Lələkai 745, Zəhəbi "Uluv" 78, əl-Albani "Ziləlul Cənnə" 492-503, "İrva" 450, "Səhih" 8165, Mişkət "1223.

[225] Buxari "Xalqu Afalul İbad" səh 36.

enməsi) barədə soruşurlar o: "O, Necə? – sualı olmadan (dünya səmasına) nazil olur"[226]. İmam Şafii – *rahmətullahi aleyhi* – deyir ki: "Sünnə barədə mənim sözüm – hansı ki, bir çox (alimlər) bunun üzərində idilər: Sufyan əs-Souri, İmam Məlik və s. ki, Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına və Muhəmmədin Onun Rəsulu olduğuna, Allahın Ərşin üzərində olduğuna, yaratdıqlarına istədiyi kimi yaxınlaşan və dünya səmasına istədiyi kimi nazil olandır"[227]. İmam Əhməd – *rahmətullahi aleyhi* – deyildi ki: "Allah yeddi səma üzərində, Ərşin üzərinə istiva etmişdir. Yaratdıqlarından ayrıdır, lakin elimi və qüvvəsi hər yerdədir". İmam: "Bəli, O, Ərşi üzərindədir və Onun elimindən heç nə gizli deyildir"[228]. İmam Əhməd – *rahmətullahi aleyhi* –: ***"O, sizinlə bərabərdir"*** ayəsi barədə soruşdular. İmam: "Bu hər bir şeyi əhatə edən Onun elmidir, Rəbbimiz isə Ərşin üzərinə (İstiva) etmişdir..."[229].

Sələflər deyirlər ki, müxaliflərdən biri sənə: «Allah dünya səmasına necə enir?» deyə soruşsa ona belə cavab ver: «Allah bizə enməsini bildirmişdir, fəqət necə endiyini bildirməmişdir».

ALLAH - *Subhənəhu Və Təalə* - nin ÜZ – SİFƏTİ

Əhli Sünnə Vəl Cəmaat Allahın üzünün olduğuna da inanırlar. Allahın üzü, Onun sabit zatı sifətlərindən olub ona yaraşır həqiqi bir üzdür. Müxaliflər Allahın üz sifətini Allahın savabı kimi təhrif edirlər. Savab yaradılmışdır və Allahdan ayrıdır, Üz isə Allahın sifətlərindən olub yaradılmamışdır və Ondan ayrı deyildir. Elə isə necə ola bilər ki, üz savab mənasında təfsir edilsin. Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir: «Onun əli, üzü və nəfsi vardır. Allahın kitabında bildirdiyi üz, əl, nəfs onun keyfiyyəti bilinməyən sifətlərindəndir[230]. ***«Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin üzü qalar».*** *(ər-Rahmən 27).* ***«Onun simasından başqa hər şey məhvə məhkumdur».*** *(əl-Qəsəs 88).* ***«Allahın üzünə*** *(rizasını diliyərək)* ***zəkat verənlərin*** *(mükafatı)* ***qat-qat artacaqdır».*** *(ər-Rum 39).* Əli - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – mənə buyurdu: Yatağına girəndə bu sözləri de: «Nazil etdiyin şərdən qorunmaq üçün sənin kəramətli üzündən və kamil kəlamlarından kömək diləyirəm»[231]. Əbu Musa - *radıyallahu anhu* – rəvayət edir ki,

---

[226] Sabuni "Əqidətus Sələf" s. 42,59, Beyhəqi "Əsmə" s. 456,572, 2/200, Aliyyul Kari "Fikhul Əkbər" s. 38,60, əl-Albani "Şərh Əqidətul Təhaviyyə" s. 223.
[227] Zəhəbi "Uluv" 443, İbn Qudamə "Lumatul Etiqad".
[228] Hələl "Sünnə", Zəhəbi "Uluv" 176.
[229] Lələkai "Usulu Etiqad" 3/402, "Muxtəsər Uluv" 190.
[230] «Fiqhul Əkbər» s. 59,302.
[231] Beyhəqi «Əsmə və Sifət» 1/307.

Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah yatmır. Ona yatmaq yaraşmaz. Mizanı (Başqa rəvayətdə: Ədaləti) endirsin və ya qaldırsın. Gündüzün əməlindən əvvəl gecənin əməli, gecənin əməlindən əvvəl gündüzün əməli ona (Allaha) yüksəlir (qaldırılır) Onun örtüyü (pərdəsi, hicabı) nurdur. (Əbu Bəkr - *radıyallahu anhu* – nun rəvayətində pərdəsi atəşdir). Əgər üzündəki pərdəni qaldırsa üzünün nurları yaratdığı hər bir şeyi yandırar[232]. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «(Allahım!) Səndən, üzünə baxmaq ləzzətini və Səninlə qarşılaşma arzusunu mənə lütf etməni diləyirəm»[233]. Heç bir üz ona bənzəmədiyi kimi, onun üzü də heç bir üzə bənzəməz.

ALLAH - *Subhənəhu Və Təalə* - nin GÖZ – SİFƏTİ

Əhli Sünnə Vəl Cəmaat Allahın, Kitab və Sünnə ilə sabit zatı sifətlərindən olan iki gözü olduğuna da iman edirlər. ***«….Gəmi gözümüzün qabağında*** *(nəzarətimiz altında)* ***üzüb gedirdi».*** *(əl-Qəmər 14).* Ənəs İbn Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Elə bir Peyğəmbər yoxdur ki, ümmətini yalançı, bir gözü kor Dəccəldən çəkindirməsin. Diqqət edin. Dəccəlin bir gözü kordur[234]. Sizin Rəbbiniz isə tək göz deyildir»[235]. Əbu Rəzin əl-Ukaylı - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «(Rəbbimiz) daralmış, ümüdsiz düşmüş halınıza baxar»[236]. ***«…Gözümün qabağında boya-başa çatdırılasan deyə, öz tərəfimdən sənə bir sevgi yaratdım».*** *(Ta ha 39).* ***«O Allah ki, səni namaza duranda da görür, səcdə edənlər içində olanda da».*** *(əş-Şuəra 218-219).* Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qul namaza durduğu zaman Rəhmanın iki gözü önündə durur»[237].

---

[232] Müslim 179/293, İmam Əhməd 4/395,401, İbn Məcə 195, Darimi «ər-Rədd aləl Mərisi» s. 173, Beyhəqi «Əsmə və Sifət» s. 402, əl-Albani «Muhtasarul Uluvv» s. 86, «Səhih Cəmius Səğir» 1860.
[233] Əhməd 5/191, Həkim 1900, Təbərani «Məcmul Kəbir» 4803,4932, əl-Albani «Səhihut Tərğib» 1/346, «Ziləlul Cənnə» 1/185. Ammar İbn Yəsir - *radıyallahu anhu* – yolu ilə: Əhməd 4/264, Nəsəi 3/54-55, İbn Əbi Asim "Sünnə" 424,425, əl-Albani "Kəlimətu Tayyib" 105, "Səhih Sünən Nəsəi" 1/281, "Ziləlil Cənnə".
[234] Hədislərdə Dəccəlin sağ gözünün kor olduğu haqqında məlumatlar vardır. Lakin sol gözünün kor olması haqında da hədislər vardır. Sağ gözünün kor olduğu haqqında olan hədislər sənəd baxımından daha sağlamdır.
[235] Buxari 7131,7408, Müslim 2933, Tirmizi 2245, Əbu Davud 4316, əl-Albani "Səhih Cəmius Sağir" 3402,5578,5789, "Şərh Əqidətul Təhaviyyə" s. 500.
[236] Həsən hədis. Əhməd 4/12, İbn Məcə 181, Darakutni «əs-Sifət» 30, Beyhəqi «Əsmə və Sifət» 2/221, İbn Huzeymə "Tovhid" s. 122-125,153, əl-Albani «Səhih Hədislər Silsiləsi» 6/2/736,2810, «Əqidətul Vasitiyyə» Useyminin şərhi ilə 2/26.
[237] Çox zəif hədis. əl-Albani «Zəif Hədislər Silsiləsi» 1024, «Daifut Tərğib» 289.

ALLAH - *Subhənəhu Və Təalə* - nin RİCL VƏ QADƏM - AYAQ SİFƏTİ

Əhli Sünnə Vəl Cəmaat Allahın Ricl və Qadəm ayaq sifətinin olmasına da iman edirlər. ***«O, gün Cəhənnəmə doldunmu?» deyərik. O: «daha varmı?» deyər».*** *(Qaf 30).* Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «….Allah Cənnətə sən mənim rəhmətimsən, mən səninlə qullarımdan istədiyimə rəhmət edirəm». Cəhənnəmə də: «Sən mənim əzabımsan. Mən səninlə qullarımdan istədiyimə əzab edirəm. Hər birinizə dolusu qədər var. Amma Cəhənnəm dolmaq bilməz. Nəhayət Allah ayağını onun üzərinə qoyar, o da: Bəsdi, Bəsdi! Deyib Cəhənnəm dolar. (Cəhənnəmi doldurmaqla) Allah heç bir kəsə zülm etməz. Cənnətə gəlincə Allah onun boşluqlarını doldurmaq üçün bir neçə varlılıqlar yaradır»[238].

Allahın Cəhənnəm atəşinə ayağını qoymaqda hikmətə gəlincə: ***«Mən Cəhənnəmi bütün cinlər və insanlarla dolduracağam» – sözü təmamilə yerinə yetdi.*** *(Hud 119)* buyurduğu kimi oranı dolduracağını vəd etmişdi. Günahsız kimsələrə əzab etməməsi onun rəhməti və ədalətindəndir. Cəhənnəm son dərəcə geniş və dərin olduğundan Allah vədini gerçəkləşdirmək üçün ayağını qoyacaq, bu vaxt Cəhənnəm hər iki tərəfdən bir-birinə qovuşmuş olacaqdır. Cənnətdə isə Allah hər bir insana geniş yer verəcəkdir, lakin boş yerlər qaldıqda Allah yeni varlılıqlar yaradacaqdır. ***«O, gün ayaq ortaya çıxarılır».*** *(Nun 13, 42).* Əbu Səid əl-Xudri - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Rəbbimiz (qiyamət günü) ayağını ortaya çıxarır (göstərir) və bütün mömin kişi və qadınlar onun qarşısında səcdəyə qapanırlar. (Yalnız) dünyada ikən göstəriş və riyakarlıqla səcdə edənlər qalırlar. (Onlardan hər biri) səcdə etməyə çalışarlar. Lakin onların onurğa sümükləri tək bir sümük halına düşər (əyilməz) və (onlar səcdə edə bilməzlər)»[239].

ALLAH - *Subhənəhu Və Təalə* – nin MƏKR VƏ KEYD (HİYLƏYƏ QARŞILIQ VERMƏK) SİFƏTİ

«Onlar *(İsaya inanmayanlar)* ***hiyləyə əl atdılar. Allah da onların hiyləsinə qarşı əvəz verdi. Allah bütün hiyləgərlərdən tədbirlidir*** *(hiyləgərlərə ən yaxşı cəza verəndir)****».*** *(Ali İmran 54).* ***Həqiqətən*** *(Məkkə müşrikləri Quranın nurunu söndürmək üçün)* ***hiylə qurdular. Mən də***

[238] Buxari, Müslim.
[239] Buxari 4919.

(hiylələrinə qarşı) ***onlara cəza verirəm».*** *(ət-Tariq 15,16).* ***Onlar bir hiylə qurdular. Biz isə özləri də bilmədən*** *(gözlənilməyən bir əzabla)* ***hiylələrinin cəzasını verdik».*** *(ən-Nəml 50).*

Sələflərdən bəziləri Allahın qullarına olan Məkrini (yəni hiyləyə qarşılıq verməsini) onların bilmədikləri bir yerdən nemətlər ilə dərəcə-dərəcə əzaba yaxınlaşdırılması diyə açıqlamışlar. Onlar yeni bir günah etdikdə O, da onlara yeni bir nemət ehsan edər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bir kimsə günah etməyə davam etdiyi müddətdə və Allahın ona dünyadan sevdiyi şeyləri verdiyini görəcək olsan bil ki, bu Allah tərəfindən (o, kimsəyə) dərəcə-dərəcə əzaba yaxınlaşdırılmasıdır. ***«Kafirlərə edilmiş xəbərdarlığı unutduqları zaman*** *(küfürlərini daha da artırmaq məqsədilə)* ***hər şeyin*** *(bütün nemətlərin)* ***qapıların onların üzünə açdıq. Kafirlər özlərinə verilən*** *(dünya)* ***nemətlərinə sevindikləri vaxt onları qəflətən yaxaladıq və onlar*** *(hər şeydən)* ***məhrum oldular».*** *(əl-Ənam 44)*[240]. Allah hiyləyə qarşılıq verənlərin ən xeyirlisidir.

«Onlar *(İsaya inanmayanlar)* ***hiyləyə əl atdılar. Allah da onların hiyləsinə qarşı əvəz verdi. Allah bütün hiyləgərlərdən tədbirlidir*** *(hiyləgərlərə ən yaxşı cəza verəndir)****».*** *(Ali İmran 54).* Bu ayə Yəhudilərin İsa – *əleyhissəlam* – ı öldürmək istədikləri üzərinə nazil olmuşdur. Xain Yahuza adında biri İsa – *əleyhissəlam* – ı öldürmək üçün onu təqib edənlərlə birlikdə (İsa – *əleyhissəlam* – ın) olduğu yerə gəlir. Lakin Allah, İsa – *əleyhissəlam* – ı səmaya yüksəldir. Xain Yahuzanı isə İsa – *əleyhissəlam* – a bənzədir. Xain Yahuza evi axtarıb İsa – *əleyhissəlam* – ı orada tapmadıqda çölə çıxır. Onunla gələnlər Yahuzanın İsa olduğunu görüb bu inancla onu öldürürlər[241].

ALLAH - *Subhənəhu Və Təalə* – nin SEVİNMƏK VƏ GÜLMƏK SİFƏTİ

Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah hər ikisi də Cənnətə düşən və biri digərini öldürmüş iki nəfərin halına gülər. Səhabələr: «Bu necə ola bilər Ya Rəsulullah!» deyə soruşdular. Peyğəmbər: «Onlardan biri Allah yolunda vuruşaraq (digəri tərfindən) öldürülərək şəhid olur və (Cənnətə düşür). Lakin sonra Allah onu öldürənə tövbə və hidayət nəsib edir. O, da Allah yolunda vurşur və şəhid olur» deyə buyurdu[242].

---

[240] İmam Əhməd «Musnəd» 4/145, əl-Albani «Səhih Silsilələr» 413.
[241] İbn Kəsr 11/37 heç bir qaynaq zikr etmədən göstərir.
[242] Buxari, Müslim.

«Uca Allah - Gülər» hədisi ilə əlaqədar olaraq Əhli Sünnə Vəl Cəmaat bu hədisin və başqalarının ifadə etdiyi şəkildə – Uca Allah haqqında Onun zatına yaraşır bir şəkildə gülmək xüsusiyyətini qəbul etməkdədirlər. Onun gülməsi nə zatında, nə səbəblərində, nə də başqa bir xüsuslarda yaratdıqlarından heç birisinin gülməsinə bənzəməz. ***«Ona bənzər heç bir şey yoxdur».*** *(əş-Şura 11).* Bu da Uca Allahın rəhmətinin kamilliyi, qullarına ehsan və lütfünün genişliyindəndir. Müsəlman Allah yolunda savaşır, kafir tərəfindən öldürülürsə, müsülman kimsə şəhit olmaq lütfünə nail olur. Daha sonra Uca Allah o, müsülmanı öldürənə rəhm edir, onu İslama yönəldir və ona da Allah yolunda şəhit olmağı nəsib edir. Beləcə hər iksi də Cənnətə düşürlər.

Əbu Səid əl-Xudri - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «…Allah öz qulları üzərində haqq-hesabı çəkib bitirdikdən sonra Cənnət ilə Cəhənnəm arasında bir nəfər qalır. Bu kimsə Cənnətə girən ən son Cəhənnəmlik olacaqdır. (Başqa rəvayətdə: «Bu kimsə Cənnət əhlinin Cənnətə ən son girəni olacaqdır»). Onun üzü Cəhənnəmə tərəf yönəlmiş olacaqdır. O, kimsə: «Ya Rəbbim! Üzümü Cəhənnəmdən çevir onun isti küləyi (qoxusu) məni zəhərləyib öldürür, atəşi isə məni yandırır». Allah: «Əgər sənin istədiyin yerinə yetsə bundan sonra məndən başqa bir şey istəyəcəksənmi?» deyə buyurur. O, kimsə: «İzzətinə and olsun ki, xeyr!» deyərək Allaha (bu işdə) and və söz verir. Allah onun üzünü Cəhənnəm atəşindən çevirir. O, kimsə üzünü Cənnətə tərəf çevirdikdə oranın gözəlliyini görüb Allahın dilədiyi müddət qədər susduqdan sonra: «Ey Rəbbim! Məni Cənnətin qapısına yaxınlaşdır» deyir. Allah: «Məgər sən and içməmişdin ki, Məndən bu istədiyindən başqa bir şey istəməyəcəksən?». O, kimsə: «Ey Rəbbim! Yaratdıqlarının ən bədbəxti olmamaqdan ötrü!» deyir. Allah: «Əgər sənin bu istədiyin də yerinə yetsə bundan sonra məndən başqa bir şey istəyəcəksənmi?» deyə buyurur. O, kimsə: «İzzətinə and olsun ki, xeyr!» deyərək Allaha (bu işdə) and və söz verir. Allah onu Cənnətin qapısına yaxınlaşdırır. O, kimsə Cənnətin qapısına yaxınlaşdıqda orada olan gözəlliyi, içindəki sevinci və rəngarəngliyi gördükdə Allahın dilədiyi müddət qədər susduqdan sonra: «Ey Rəbbim! Məni Cənnətə sal!» deyir. Allah: «Vay sənə ey Adəm oğlu! Nə qədər sən öz sözündən dönürsən! Məgər sən and içməmişdin ki, Məndən bu istədiyindən başqa bir şey istəməyəcəksən?». O, kimsə: «Ey Rəbbim! Məni yaratdıqlarının ən bədbəxti etmə!» deyəcəkdir. Allah gülər və ona Cənnətə girməyə izn verər və ona: «Dilədiyini istə!» buyurar. O, da arzuladığı şeyləri tükənənə qədər istəyəcəkdir. Arzuladığı şeylər tükəndikdən sonra Allah: «Bunu da, bunu

da (əlavə et) buyuraraq ona istədiklərini xatırladacaqdır. Sonda bütün istədikləri bitdikdən sonra Allah: «Bunların hamısı və bir o, qədər də sənindir!» deyə buyurur[243]. Ənəs b. Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah qulunun tövbə etməsi ilə sizdən hər hansı birinizin bu halından daha çox sevinir». Bir kimsə otsuz boş bir quru ərazidə dəvəsi ilə gedirdi. Dəvənin üzərində də o, kimsənin yeyəcək və içəcək şeyləri də vardır. (Başqa rəvayətdə: «Çöllük bir əraziyə çatdıqda ona şirin bir yuxu gəldi. Dəvəsi üzərindən enərək bir ağac tapıb altında mürgüləmək üçün uzandı). Oyandıqda bir də baxdı ki, dəvəsi yeyəcək və içəcək şeylərlə birlikdə yoxdur. Dəvəsini axtarmaq üçün oyana-buyana qaçır. Nəhayət dəvəsini axtarıb tapmaqdan ümüdünü kəsdikdə yatdığı yerə qayıdaraq: «Artıq buradan ölənə qədər ayrılmayacağam!» deyib yan tərəfi üstə uzanaraq yatdı. (Ayıldıqda) Bir də baxdı ki, dəvəsi başı üzərində dayanıb. Dəvəsinin ipindən tutaraq sevincinin şiddətindən: «***Allahummə Ənnə Abdi Və Ənə Rabbukə*** – Allahım Sən mənim qulumsan, mən də Sənin Rəbbinəm!» deyə şükr edir. «Sizdən hər hansı biriniz (itmiş dəvəsini) üzərində yemək və içəcəyi ilə birlikdə tapmasından daha çox, Uca Allah tövbə etmiş mömin qulunun tövbəsindən ötrü sevinir»[244].

Bu hədisdə Uca Allaha xas olan sevinmək sifətindən söz açılmışdır. Buna dair söyləniləcək sözlər də digər sifətlər haqqında söyləniləcək sözlər kimidir. Bu sifət Uca Allaha yaraşır şəkildə onun feli sifətlərindəndir. Burada «sevinmək» deyə ifadə edilən bu məna qulun tövbə edib, Allaha doğru döndüyü təqdirdə meydana gəlir. Bu eyni zamanda Allahın tövbə edən quldan razı olmasını və tövbəsinin qəbul etməsini də əhatə edir. Lakin bir şeyi yadda saxlamalıyıq ki, Allahın yaratmış olduğu qulların sevinməsi müəyyən şəkillərdə olur. Kimi zaman hansısa bir xoş sözdən, xoş hadisədən və s. baş verir. Lakin Uca Allah bütün bunlardan münəzzəhdir. Onun sevinməsinin nə zatında, nə səbəblərində, nə də başqa bir xüsuslarda yaratdıqlarından heç birisinin sevinməsinə bənzəməz.

Quran və Sünnə ilə bizə məlum olan sevinmək, gülmək və s. kimi Allaha xas olan sifətləri bəzi azmışlar (müxaliflər) nəfi və tətil etməkdədirlər. Bu azmışların Rəbləri haqqında olan pis zənnləridir ki, onları bu nöqtəyə gətirib çıxarmışdır. Çünki onlar bu kimi sifətlərin məxluqatda da olduğunu bilib, Allaha aid olan bu sifətləri nəfi və tətil etmişlər. Lakin Uca Allah onların bu bənzətmələrindən də və tətillərindən

---

[243] Buxari, Müslim.
[244] Buxari, Müslim.

də uca və münəzzəhdir. ***«Ona bənzər heç bir şey yoxdur».*** *(əş-Şura 11).* ***«Allah*** *(müşriklərin)* ***ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır».*** *(əs-Saffət 159).*

ALLAH - *Subhənəhu Və Təalə* – nin TƏƏCCÜBLƏNMƏK – HEYRƏT ETMƏK SİFƏTİ

«Bəli sən onlara *(müşriklərin Allahın qüdrət əlamətlərini gördükləri halda qiyamətə inanmamalarına)* ***təəccüblənirsən, onlar isə*** *(sənin bu imanına)* ***istehza edirlər».*** *(əs-Saffət 12).*

Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah zəncirlərlə Cənnətə girəcək bir topluluğun halına təəccüb (heyrət) edər»[245]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah filan kişi ilə filan qadından dolayı təəccüb (heyrət) edər»[246]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, bir gün bir nəfər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına (aclıqdan üzülmüş və əldən düşmüş) bir halda gəlir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – zövcələrinə (yeməyə bir şeyin olub-olmaması haqında) xəbər göndərir. Lakin onların hər biri: «Sudan başqa heç bir şey yoxdur!» deyə xəbər göndərirlər. Bundan sonra Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizlərdən kim bu kimsəni (qonaq) müsafir olaraq evinə dəvət edər?». Ənsarlardan biri (Əbu Təlhə): «Mən!» deyə cavab verdi. Müsafiri (qonaqı) götürüb (evə) zövcəsinin yanına gəldi və: «Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in qonağına hörmət et!» dedi. Zövcəsi: «Bizdə uşaqlar üçün hazırladığım yeməkdən başqa bir şey yoxdur» deyə cavab verdi. Onda o: «(Axşam) yeməyini hazırla, lampanı da yandır. Əgər uşaqlar yemək istəsələr onların (başlarını qatıb) yatızdır» dedi. Zövcəsi ərinin dediyi kimi etdi. (Axşam) Yeməyini hazırladı, lampanı yandırdı və uşaqları da yatağına göndərdi». (Qonaqlarla birlikdə stol başına əyləşdikdən sonra) yerindən qalxaraq lampanı düzəldirmiş kimi onu söndürür. Ər-arvad qonaq ilə bərabər yeməkdən yeyirmiş kimi (əllərini qaba uzadıb, lakin boş geri qaytarırdılar. Qonaq isə özü bütün yeməyi yeyib qurtarır). Sonunda onlar (ər-arvad) ac olaraq sabahlayırlar. Səhəri ev sahibi Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına gəlir. Peyğəmbər: «Allah sizin bu əməlinizə təəcub (heyrət) edir!» deyə buyurdu. Sonra Allah bu ayələri nazil etdi: ***«Mühacirlərdən əvvəl***

[245] Buxari.
[246] Buxari.

(Mədinədə) ***yurd salmış və*** *(Peyğəmbərə qəlbən)* ***iman gətirmiş kimsələr*** *(ənsar)* ***öz yanlarına*** *(şəhərlərinə)* ***mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd, qəzəb duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar.*** *(Allah tərəfindən)* ***nəfsinin xəsisliyindən, tamahından qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə*** *(Cənnətə)* ***qovuşanlardır!».*** *(əl-Həşr 9)*[247].

ALLAH - *Subhənəhu Və Təalə* – nin QISQANMAQ SİFƏTİ

Rəvayət edilir ki, bir gün Sad b. Ubadə - *radıyallahu anhu* – qışqıraraq: «Əgər mən yad bir kişini öz arvadımla görsəydim onu qılıncla doğrayardım (vurardım)». (Bunu eşidən) Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – səhabələrə: «Sadın qısqanclığı sizi təəcübləndirirmi? Həqiqətən mən ondan da qısqancam, Allah isə məndən də qısqancdır» deyə buyurdu. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Şübhə yox ki, Allah qısqanır. Allahın qısqanması mömin bir qulun Allahın haram (qadağan) etdiyi şeyləri etməsi ilədir»[248]. İbn Məsud – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allahdan daha qısqanc bir kəs yoxdur. Allah bu qısqanclığına görə açıq və gizli olan bütün çirkin əməlləri haram etmişdir. Təriflənməyi Allahdan daha çox sevən bir kimsə yoxdur. Buna görə Uca Allah Öz nəfsini tərifləmişdir. Allahdan daha çox dəlil sevən yoxdur. Bax, bunun üçün də bir çox müjdələyən və qorxudan Peyğəmbərlər göndərmişdir (Başqa rəvayətdə: Bax buna görə də Allah peyğəmbərlərini göndərmiş və kitablarını endirmişdir)[249].

ALLAH - *Subhənəhu Və Təalə* – nin QƏZƏBLƏNMƏK SİFƏTİ

Allah - *subhənəhu və təalə* – qəzəblənirmi? Uca Allahın kitabını səhifə-səhifə çevirmiş olsaq bu sualın cavabını tapmış olarıq. Allah buyurur: ***«Onun barəsində bədgüman, bədniyyət olan münafiq kişi və qadınları, müşrik kişi və qadınları əzaba düçar etsin. Onların bədniyyətliyi öz başlarında çatlasın! Allahın onlara qəzəbi tutmuş və Allah onlara lənət etmişdir. Allah Cəhənnəmi onlar üçün hazırlamışdır. Ora necə də pis***

---

[247] Buxari.
[248] Buxari 5223.
[249] Buxari 7416, Müslim 1499.

məskəndir». *(əl-Fəth 6).* ***«Ey iman gətirənlər! Allahın qəzəbinə düçar olmuş bir qövmlə dostluq etməyin».*** *(əl-Mumtəhinə 13).* ***«Sizə verdiyimiz ruzilərin təmizindən*** *(halalından)* ***yeyin, lakin bunda həddi aşmayın.****(israfçılıq, xəsislik və nankorluq etməyin, ehtiyacı olana şəri qayda üzrə kömək göstərin),* ***yoxsa qəzəbimə düçar olarsınız».*** *(Ta ha 81).* Həmçinin Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in sünnəsində varid olmuş səhih hədisdə insanlar qorxaraq şəfaət üçün Peyğəmbərlərin yanına gedəcəklər, hər bir Peyğəmbər isə: «Şübhəsiz ki, Rəbbimiz bu gün bərk qəzəblənmişdir. O, dərəcədə ki, nə bundan qabaq belə bir qəzəb etmişdir, nə də bundan sonra belə bir qəzəb edəcəkdir»[250]. Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir ki: «O, (Allah) qəzəb də edər. Razı da olur. Onun qəzəbi cəzalandırması, rizası da mükafatlandırması kimi deyilməz»[251].

O, halda müsəlmanın üzərinə düşən Rəbbinin bu sifətə sahib olduğunu qəbul etmək onu müxaliflərin təvil etdikləri kimi təvil etməməkdir[252]. Allah və Rəsulunun və bu ümmətin sələfinin Allahın sifətləri xüsusunda izlədikləri yol budur. Müsəlmana da bu xüsusda onların yolunu izləmək düşər. Çünkü qurtuluş bu yoldadır.

İSİM VƏ SİFƏTLƏR TÖVHİDİNƏ ZİDD OLAN ETİQADLAR (SÖZ VƏ ƏMƏLLƏR)

1. Allahın isimlərini bütlərə qoymaq. Məs: Allahın ***əl-İlah*** adını, ***əl-Lat*** adı ilə dəyişərək öz bütlərinə qoymuşlar. ***əl-Lat*** – Taif şəhərində ağ dağın adı idi. Sukayf qəbiləsindən olanlar bu bütləri ilə fəxr edirdilər. İbn Hişam – *rahmətullahi aleyhi* – deyir: «Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in əmri ilə Muğirə b. Şöbə və Əbu Sufyan b. Hərb - *radıyallahu anhum* – onu yandırıb dağıdırlar. Sonralar isə onun yerində Məscid tikirlər». ***əl-Əziz*** adını, ***əl-Uzza*** – İbn Cərir – *rahmətullahi aleyhi* – deyir: «Məkkə ilə Taif arasında, Nəxl adlanan yerdə ağac adı idi». İbn Hişam deyir: «Məkkənin fəthi günü Xalid b. Valid - *radıyallahu anhu* – oranı dağıdır». ***əl-Mənnan*** adını, ***əl-Manat*** – Məkkə ilə Mədinə arasında, Hudeydə adlanan yerin adı idi. Aişə - *radıyallahu anhə* – deyir: «Əli - *radıyallahu anhu* – Məkkənin fəthi günü oranı dağıdır»[253]. ***«Bir deyin görək Lat və Uzza nəyə qadirdir. Digəri üçüncüsü olan Manat da həmçinin…..O, bütlər sizin və atalarınızın qoyduqları adlardan başqa bir şey deyildir.***

---

[250] Buxari, Müslim.
[251] Fikhul Əbsat s. 56.
[252] ***Əşarilər*** – Allahın Qəzəb sifətini ***Ukubət*** (cəzalandırmaq) kimi təvil edirlər.
[253] Buxari.

Allah onlara dair bir dəlil endirməmişdir». *(ən-Nəcm 19-23).* ***«Allahdan başqa ibadət etdikləriniz sizin və atalarnızın qoyduğu adlardan başqa bir şey deyildir. Allah isə heç bir dəlil endirməmişdir. Hökm ancaq Allahındır. O, sizi yalnız Onun özünə ibadət etməyə çağırır».*** *(Yusuf 40).*

2. Allaha layiq olmayan adı vermək. Məs: Yəhudi və Xristianların dediyi kimi Ata, oğul və bizim dilimizdə işlənən o, kişiyə qurban olum və s. ***«Şübhəsiz ki, Allah Məryam oğlu İsadır deyənlər kafir oldular. Halbuki, Məsih belə demişdir. Ey israil oğulları! Mənim də sizin də Rəbbiniz olan Allaha ibadət edin».*** *(əl-Maidə 72).*

3. Allaha naqis sifətlər vermək. Məs: Yəhudilər və Xristianlar dedilər ki, Allah xəsisdir, göyləri və yeri xəlq etdikdən sonra dincəldi və s. ***Yəhudilər dedilər: «Allahın əlləri bağlıdır. Bu dedikləri sözə görə onların öz əlləri bağlandı və lənətə gəldilər. Xeyr! Allahın əlləri açıqdır, istədiyi kimi lütf və ehsan edər».*** *(əl-Maidə 64).* ***«O, nə mürgü nə də yuxu bilər».*** *(əl-Bəqərə 255).* Finhas adlı bir yəhudi Əbu Bəkr - *radıyallahu anhu* – onu İslama dəvət etdikdə demişdir: «Allaha and olsun ki, ey Əbu Bəkr! Biz fəqir (kasıb) olmadığımızdan Allaha ehtiyacımız yoxdur. O, isə fəqir birisidir. Əgər möhtac olmayan bir varlıq olmasaydı bizdən borc tələb etməzdi» ***«Allah kasıbdır, biz isə dövlətliyik! deyənlərin sözlərini Allah, əlbəttə eşitdi. Biz onların dediklərini və Peyğəmbərləri haqsız yerə öldürdüklərini yazacaq və*** *(Qiyamət günü)* ***onlara: «Atəşin əzabını dadın!» deyəcəyik».*** *(Ali İmran 181)*[254]. Allah bütün bu deyilənlərdən münəzzəhdir.

4. Allahın Sifətlərinə keyfiyyət isnad edib və onun Sifətlərini Allahın yaratdıqlarına bənzədən – ***<u>Müşəbbihlər</u>*** (bənzədənlər). Bunlar müşriklərdən də pisdirlər. Müşriklər yerdəkiləri Allaha şərik qoşurlar, onlar isə Allahı yaratdıqlarına bənzədirlər. ***«Allah ona aid etdikləri sifətlərdən uzaqdır».*** *(əs-Saffət 159).* ***"Ona bənzər heç bir şey yoxdur. O, (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!".*** *(əş-Şura 11).* ***"Heç yaradan*** *(Allah)* ***yaratmayana bənzəyərmi?! Məgər düşünmürsünüz?!".*** *(ən-Nəhl 17).* ***"O, göylərin və yerin, onların arasında olan hər şeyin Rəbbidir! Yalnız Ona ibadət et və Onun ibadətinə səbirli ol! Heç*** *(Allahın özündən başqa)* ***Ona bənzərini*** *(Onun adını daşıyan başqa birisini)* ***görmüsənmi?*** *(Müşriklər öz bütlərinə tanrı, ilahi desələr də, heç zaman onlara Allah adını verməzlər)****".*** *(Məryəm 65).*

5. Allahın İsim və Sifətlərini qismən və ya tamamilə inkar edən – ***<u>Muattila</u>*** (Cəhmilər). Onların iddialarına görə Allahın İsim və Sifətlərini

---

[254] İbn Cərir ət-Təbəri təfsir kitabında. Sənədi zəifdir.

qəbul etmək Allahı yaratdıqlarına bənzətmək deməkdir. ***Bunlar Da İki Qismdirlər***:

1) Allahın İsimlərini qəbul edərək mənasız olduğunu qeyd edirlər. Bütün bunlara ***Sifəti Səlbiyyə*** – Uca Allahın zatına və varlığına yaraşmayan, uca Allah haqqında imkansız olan vəsflərdir. ***Səlb Etmək*** – qaldırmaq, uzaqlaşdırmaq mənasındadır. Bunlar da ***Sifəti Səlbiyyə*** və ***Sifəti Subutuyyə***[255] başlıqları altında sayılan on dört sifətin ziddidir. Bunlar ***Adəm*** (yoxluq), ***Hudus*** (sonradan var olmaq), ***Fəna*** (varlığının sonu olması, bəlli bir müddətdən sonra yox olub getməsi), ***Təaddüt*** (ortağı, şəriki, köməkçiləri olması), ***Muşabəhət*** (sonradan yaradılmış bir şeyə bənzəməsi, bənzəri və oxşarı olması), Başqalarına möhtac olmaq, Ölü və ya cansız olmaq, ***Cahil*** (elmsiz, biliksiz), ***Aciz*** (gücsüz olmaq), İradəsiz olmaq, Görməmək, kor olmaq, Eşitməmək, kar olmaq, Danışmaması, Yaratmamaq.

2) Bütün İsim və Sifətləri inkar edənlər.

Əvvəla bütün bunlar batil fikirlərdir. Çünki Allah Qurani-Kərimdə bir çox ayələrdə İsim və Sifətlərinin olduğunu buyurduğu halda, digər ayələrdə heç bir şeyin İsim və Sifətlərində ona bənzəmədiyini buyurmuşdu. Əgər bu İsim və Sifətləri qəbul etmək, onu yaratdıqlarına bənzətməyi irəli sürmüş olsaydı, Allahın ayələrinin bir qisminin digərini yalanladığını qəbul etməli olardıq. Allahın ***Səmi*** – (eşidən) olduğunu bilirik. Eşitmək isə məna etibarı ilə səsləri qəbul (idrak) etmək deməkdir. Lakin Allahın eşitməsinin həqiqi mənası bizim tərəfimizdən bilinməzdir. Çünki biz iki şəxs gördükdə: Bu ikisinin insanlıq xüsusiyətləri olan eşitmək, görmək və danışmaq kimi xüsusiyətlərinin eyni olduğunu fikirləşmirik. Məs: İnsanın ayağı, əli olduğu kimi hər hansısa bir heyvanın da əli, ayağı vardır. İnsanın da gücü var, heyvanında, İnsanında eşitmə, görmə orqanı var, heyvanında. Bu sifətlər eyni adı daşıyırlar. Lakin keyfiyyət və forma cəhətdən bir-birindən çox fərqlənirlər. Bundan da belə bir nəticə çıxır ki, adların eyni olması, onların keyfiyyət və formalarının eyni olması demək deyildir. Çarpayının üstünə istiva etmək ilə dəvənin üstünə istiva etmək arasında fərqlər vardır. Bütün bunlar yaradılanlar arasında fərqli olduğu halda, Yaradıcı (Allah) ilə yaradılan (məxluq) arasında belə bir fərq daha açıq və daha böyükdür. Allah Öz sifətləri barəsində bizə xəbər vermişdir, lakin onların forma və keyfiyəti barəsində

---

[255] ***Sifəti Səlbiyyə* -** Qidəm (qədimlik), Bəqa (əbədilik), Vahdəniyyə, Muxalifə Lil Xalq Vəl Həvədis, Ğinə (Qiyamu Bin Nəs). ***Sifəti Subutiyyə*** – Uca Allahın zatına yaraşır və zatından ayrılmayan, əzəli və əbədi olan vacib sifətlərdir. Allah bu sifətlərlə əzəldən bəri vəsflənmişdir. Bu sifətlərin heç biri sonradan qazanılmış sifətlər deyildir. Bu sifətlər – ***Həyat*** (Furqan 58), ***Elm*** (Ali İmran 29), ***İradə, Qüdrət, Bəsir, Səmi, Kəlam, Təkvin*** (yoxdan var etməsi).

bir xəbər yoxdur. Sən nə qədər onları təsəvvür etməyə çalışsan Allah daha Uca və Böyükdür. Bütün bunlar da vacib edir ki, Müsəlman bir kimsə nə qəlbi, nə dili, nə də qələmi ilə Allahı təsəvvür etməyə çalışmasın.

6. İnsanlar arasında olan bəzi müraciətlər. Məs: Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizdən heç kim öz (qulluqçusuna) Rəbbinə su ver, Rəbbini doydur, Rəbbinə dəstəmaz aldır və s deməsin. (Ey kölələr!) Sizdən də heç kimsə Rəbbim deyə xitab etməsin. Həmçinin qulum deyə xitab etməsin. Oğlum, qızım desin»[256].

MUHƏMMƏDƏN RƏSULULLAH

Mənası – Onun Allah tərəfindən göndərilmiş Peyğəmbər olduğuna inanmaq, onu sevməyin vacib olduğuna, əmr etdiyi şeylərdə ona itaət etməyə, verdiyi xəbərlərdə onu təsdiq etməyə və heç bir sözü onun sözündən irəli keçirməməyə inanmaq deməkdir. Bu iki şəhadət kəliməsi bir-birindən ayrılmazdır. Buna görə də həm azanda, həm də təşahüddə bir yerdə zikr edilir. əl-İnşirah surəsinin 4-cü ayəsində: ***«Sənin ad-sanını, şan-şöhrətini ucaltmadıqmı?»*** (Yerdə, göydə səndən söhbət gedər, xütbələrdə adın çəkilər). Mücahid – *rahmətullahi aleyhi* – deyir: «Mən xatırlanacaq olsam mütləq sən də xatırlanacaqsan. Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur və Muhəmməd Allahın qulu və rəsuludur»[257].

Muhəmməd Allahın qulu və bütün insanlara, hətta cinlərə göndərdiyi Rəsulu olduğuna dair dilin söylədikləri sözə uyğun olaraq, qəlbin dərinliyindən bunu təsdiq etmək deməkdir. ***«Ya Peyğəmbər! Həqiqətən, biz səni*** *(ümmətinə)* ***bir şahid, bir müjdəçi və bir qorxudan kimi göndərdik! Biz səni Allahın izni ilə ona tərəf çağıran və nurlu bir çıraq olaraq göndərdik!»*** *(əl-Əhzab 45-46).*

Buna görə də keçmişə dair verdiyi bütün xəbərlərdə, gələcəyə dair verdiyi bütün xəbərlərdə, halal və haram qıldığı bütün xüsuslarda onu təsdiq etmək, verdiyi əmrləri yerinə yetirmək, qadağan etdiklərindən uzaq olmaq. ***De ki: «Əgər Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızın üstünü örtüb sizi bağışlasın. Allah bağışlayan və mərhəmətlidir».*** *(Ali-İmran 31).* Əbu Hureyrə, AbdurRahmən b. Səhr - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* - in belə buyurduğunu eşitdim: «Sizə nəyi qadağan edirəmsə ondan uzaq durun, nəyi sizə əmr etmişəmsə ondan

---

[256] Müslim.
[257] İbn İshaq «Fadlus Saləti alən-Nəbi» s.86. əl-Albani mursəl hədis.

bacardığınız qədər istifadə edin. Şübhə yox ki, sizdən əvvəlki ümmətləri çoxlu sual verməleri və Peyğəmbərlərinə müxalif olmaları məhv etdi»[258].

Ona itaətin Allaha itaət olduğuna, ona üsyan etməyin Allaha üsyan olduğunu bilmək deməkdir. ***«Peyğəmbərə itaət edən şəxs Allaha itaət etmiş olur. Kim üz döndərsə bil ki, biz səni onların üzərində gözətçi göndərmədik».*** *(ən-Nisa 80).*

Çünkü Allahın risaləsini bizə təbliğ edən odur. Allah onun ilə dini bitirən, dinin təbliğini bitirmədən onun ruhunu almadı. O, ümmətini gecəsi gündüzü kimi aydın olan bir yolun üzərində buraxıb getdi. Ondan sonra bu yoldan həlak olandan başqası azmaz. ***«Onun əmrinə qarşı çıxanları başlarına gələcək bir bəladan, yaxud da düçar olacaqları bir əzabdan qorxsunlar»*** *(ən-Nur 63).* İmam Əhməd – *rahmətullahi aleyhi* – deyir: «Bu bəlanın nə olduğunu bilirsiniz? Bəla – şirkdir. Çünkü bir kimsə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in sözlərindən bəzilərini rədd edəcək olursa, qəlbinə bir miqdar azmaq düşər və sonda da məhv olar»[259].

O, Allahın quludur, ona ibadət olunmaz. Muhəmmədin Rububiyyətdə, kainatın idarə edilməsində, ya da ibadətdə haqq sahibi olduğuna heç bir şəkildə inanmamalıyıq. Əksinə o, quldur, ona ibadət edilməz, o bir rəsuldur. O, Allahın istədiyindən artıq nə özünə, nə də hər hansı bir kimsəyə nə fayda, nə də zərər vermək gücünə malikdir. ***De ki: «Mən sizə demirəm ki, mənim yanımda Allahın xəzinələri vardır. Mən qeybi də bilmirəm və sizə də demirəm ki, mən mələyəm. Mən özümə gələn vəhyə tabe oluram». De ki: «Kor görənlə bir olurmu? Məgər düşünmürsünüz!»*** *(əl-Ənam 50).* ***«Peyğəmbərləri onlara cavab olaraq demişdilər: «Biz də sizin kimi adi bir insanıq. Lakin Allah öz bəndələrindən dilədiyinə nemət bəxş edər. Allahın izni olmadan biz sizə heç bir dəlil gətirə bilmərik».*** *(İbrahim 11).* ***«De ki: «Mən də sizin kimi ancaq bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız yalnız tək olan Allahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümüd bəsləyirsə yaxşı iş görsün və rəbbinə etdiyi ibadətdə heç kəsi şərik qoşmasın»*** *(Kəhf 110).*

Ona əmr edilən şeylərə uyan bir əmirdir. ***De ki: «Mən sizə nə bir zərər, nə də bir xeyir vermək qüdrətinə malik deyiləm!» De ki: «Məni Allahdan heç kəs qurtara bilməz və mən ondan başqa heç bir sığınacaq tapa bilmərəm!»*** *(əl-Cinn 21-22).* ***De ki: «Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Əgər qeybi bilsəydim, sözsüz ki,*** *(özüm üçün)* ***daha çox xeyir tədarük edərdim və mənə pislik də toxunmazdı. Mən iman gətirən bir tayfanı qorxudan və***

[258] Buxari, Müslim.
[259] Şeyx Useymin «Üç əsas» şərhi.

müjdələyənəm» *(əl-Əraf 188).* Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və sələm* – buyurdu: «Məni Xristianların İsa – *əleyhissəlam* – ı öydükləri kimi öyməyin. Mən bir qulam, deyin Allahın qulu və rəsulu. Məni tərif etməkdə həddi aşmayın. Məni Allahın layiq bildiyi dərəcədən artıq yüksəltməyin. Rəbbim məni necə vəsf edibsə elə də vəsf edin»[260]. Cündab b. Abdullah - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ölümündən beş gün qabaq buyurdu: «Nə badə məndən sonra əvvəlkilər kimi Peyğəmbərlərinin qəbirlərini ibadətgaha çevirəsiniz. Mən bunu sizə qadağan edirəm»[261]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İlahi mənim qəbrimi ibadət olunan büt etmə. Öz Peyğəmbərlərinin qəbirlərini məscidlərə (ibadət olunan yerə) çevirən bir qövmə Allahın şiddətli əzabı tutar[262]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah Peyğəmbərlərinin qəbirlərini ibadətgaha çevirən Yəhudilərə və Xristianlara lənət etsin»[263]. Beləliklə, bizə aydın oldu ki, nə Allahın Rəsulu, nə də ondan daha aşağı mərtəbədə olan yaradılmışlardan heç birisi ibadətə layiq deyildir. İbadət ancaq bir və tək olan Allaha edilir.

O, bütün yaradılmışların ən xeyirlisidir. Ən fəzilətli və Allah dərgahında ən dəyərli insandır. Dərəcə etibarı ilə ən yüksək və Allaha ən yaxın olandır. ***«Biz səni aləmlərə ancaq bir rəhmət olaraq göndərdik».*** *(əl-Ənbiya 107).* Yalnız azmışlar Allahın rəhmindən üz döndərərlər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qiyamət günü insanların seyyidi mənəm, qəbri açılacaq ilk kişi mənəm. İlk şəfaət edən və şəfaəti qəbul olunacaq ilk kişi də mən olacağam»[264].

Ona kitab vermiş, dinin əmini etmiş, risalətini təbliğ etməkdə və onu səhf etməkdən, xəta etməkdən qorumuşdu. ***«O, kefi istəyəni danışmır. Bu ancaq nazil olan bir vəhydir».*** *(ən-Nəcm 3-4).*

Onun risalətinə iman etmədikcə, Peyğəmbərliyini qəbul etmədikcə heç bir kimsənin imanı səhih olmaz. Ona iman edən Cənnətə, ona üsyan edən Cəhənnəmə girər. ***«Allaha and olsun ki, onlar öz aralarında baş verən mübahisələrdə səni hakim təyin etmədikcə və verdiyin hökmlərə görə öz nəfslərində sıxıntı duymadıqca və sənə tam şəkildə itaət etmədikcə iman sahibi olmazlar».*** *(ən-Nisa 65).* ***«Hər kəs özünə doğru yol aşkar olduqdan sonra Peyğəmbərlərdən üz döndərib, möminlərdən qeyrisinin***

---

[260] Buxari, Əhməd.
[261] Müslim.
[262] İmam Məlik, Əhməd.
[263] Buxari, Müslim.
[264] Müslim, Əbu Davud 4673, Musnəd 2/540.

yoluna uyarsa onu istədiyi yola yönəldər və Cəhənnəmə varid edərik. Ora necə də pis yerdir». *(ən-Nisa 115).*

Əvvəlki Peyğəmbərlər öz qövümlərinə, Muhəmməd – *sallallahu aleyhi və səlləm* – isə bütün bəşəriyyətə Peyğəmbər olaraq göndərildi. ***«Biz səni bütün insanlara müjdə verən, qorxudan bir Peyğəmbər göndərdik».*** *(Səba 28).* Cabir - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bütün Peyğəmbərlər öz qövümlərinə göndərilib, mən isə hamıya göndərilən bir Peyğəmbərəm»[265].

Muhəmməd, Peyğəmbərlərin və Rəsulların sonuncusudur. O, Allahın risalətinin təbliği üçün seçdiyi son elçi, ona kitabların ən uca və ən əzəmətlisi endirilmişdi. O, Rəsulların əzəmətlisi, aləmlərin Rəbbinin həbibi və xəlilidir. ***«Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu və Peyğəmbərlərin sonuncusudur».*** *(əl-Əhzab 40).* Ondan sonra kim Peyğəmbərlik iddiasında olarsa kafirdir, onu doğrulayan da kafirdir. Bunda şübhə edən də kafirdir. Mömin ondan sonra Peyğəmbərin olmayacağına iman edər. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Məni əvvəlki Peyğəmbərlərlə müqayisə etdikdə, bu o şeyə bənzəyir ki, bir insan gözəl bir bina tikir, onu bəzəyir və evin bir kərpicini qoymur. Camaat evə baxdıqda deyirlər: «Necə ola bilər ki, o bu kərpici qoymağı unudub?» Mən isə həmin o, sonuncu kərpicəm»[266]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Mənim isimlərim var. Mən ***Muhəmmədəm***, mən ***Əhmədəm***, mən ***Məhi*** (məhv edici) Allah mənimlə küfrü məhv edər. Mən ***Həşirəm*** – insanlar mənim ayaqlarımın izi ilə həşr olunurlar. Mən ***Akibəm***. Akib isə məndən sonra Peyğəmbər göndərilməyəndir»[267]. Bu adlardan başqa: ***Muxtar*** (seçilmiş), ***Mustafa*** (arındırılmış), ***Şəfi*** (şəfaət edən), ***Muşəffə*** (şəfaət etdirilən), ***Sadiqul-Məsduq*** (doğru söyləyən və sözü doğrulanan) İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, doğru sözlü və sözü doğrulanan Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu…»[268], ***Fatih*** (fəth edən), ***Kusam*** (toplayan, birləşdirən, mükəmməl), ***Muqaffi*** (özündən əvvəl gələn Peyğəmbərlərin izini silən, sonuncu mənasındadır), ***Nəbiy Tövbə*** (tövbə Peyğəmbəri), ***Bəşir*** (itaət edəni müjdələyən, asi olanı cəza ilə qorxudan), ***Rauf*** (çox şəfqətli), ***Rahim*** (çox mərhəmətli). «Qurani Kərimdə keçən adlardan: ***Şahid, Mubəşşir*** (müjdəliyən), ***Rahmə*** (rəhmət), ***Nimə*** (nemət),

---

[265] Buxari, Müslim.
[266] Buxari, Müslim.
[267] Buxari, Müslim.
[268] Buxari, Müslim.

Hadi (doğru yola yönəldən), ***Əmin*** (güvənilir) Qureyş onu Peyğəmbərlik verilməmişdən qabaq da bu adla çağırırdı, ***Muzəmmil*** (örtüyünə bürünən), ***Mudəssir*** (paltarına bürünən), ***Dailallah*** (Allaha dəvət edən) və s. İbn Dihyə – *rahmətullahi aleyhi* – deyir ki: «Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in adlarının sayı Uca Allahın adlarının sayı qədər doxsan doqquzdur»[269]. İmam Zəhəbi – *rahmətullahi aleyhi* – deyir ki: «Onun adları arasında ***Dahuq*** (gülər üz) və ***Kattal*** (çox savaşan) adları da vardır». Əli - *radıyallahu anhu* – deyir ki: Allah onun üstünlüyünü ortaya qoymaq üçün ona öz adından törəmə bir ad qoydu: «Ərşin sahibinin adı ***Mahmud***, onun adı isə ***Muhəmməd***»[270].

Allah onu aydınlıq, doğru yola dəvət etmək üçün göndərdi. Onun risalətini inkar etmək Allaha dil uzatmaq, hətta Allahı rədd və inkar etməkdir. Səvban - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Şübhəsiz ki, mənim ümmətimdən otuza yaxın yalançı çıxacaq. Onların hər birisi bir Peyğəmbər olduğunu iddia edəcəkdir. Mən isə Peyğəmbərlərin sonuncusuyam. Məndən sonra Peyğəmbər yoxdur»[271]. O, insanlar içərsində Allahdan ən çox qorxan. «Sizin Allahdan ən çox qorxanınız və onun sərhədlərini ən yaxşı biləniniz də mənəm»[272]. Allah onu insanlar arasından sevib, süzüb seçmiş və özünə yaxın bilmişdi. «Allah İbrahimi dost etdiyi kimi məni də özünə dost etdi»[273]. ***«Allah və Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mömin kişiyə və qadına öz işlərində başqa yol seçmək yaraşmaz. Allah və onun Peyğəmbərinə asi olan şəxs şübhəsiz ki, haqq yoldan açıq-aydın azmışdır».*** *(əl-Əhzab 36).*

Heç şübhəsiz ki, ona tabe olan və ona uyan hər kəs təqva sahibidir. ***«Aralarında hökm vermək üçün Allahın və Peyğəmbərinin yanına çağrıldıqları zaman möminlərin sözü ancaq eşitdik və itaət etdik deməkdən ibarətdir. Nicat tapanlar da məhz onlardır».*** *(ən-Nur 51).*

MUHƏMMƏDƏN RƏSULULLAHIN ŞƏRTLƏRİ

Lə İləhə İlləlləh kəlməsinin şərtləri olduğu kimi Muhəmmədən Rəsulullah - kəlməsinin də yeddi şərti var. Bu şərtlərin hər birinə əməl olunmadıqca, onların ifadə etdiyi mənaları Quran və Sünnəyə uyğun olaraq dolğun, düzgün başa düşülmədikcə, bu kəlmənin söylənilməsi heç

[269] əl-Fəth 6/643,644.
[270] Zəhəbi «Siyer» 2/10: Bu adlar üçün Səhih Müslimə bax: 2354,2355.
[271] Buxari, Müslim, Əbu Davud 4252, Musnəd 5/278.
[272] Buxari, Ənəs b. Məlikin rəvayəti ilə.
[273] Müslim.

bir kəsə fayda verməyəcəkdir. Aşağıda qeyd edəcəyimiz bu şərtlər Quran və Sünnəyə uyğun olaraq möhtərəm İslam alimləri tərəfindən qeyd olunmuşdu.

1. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in Allahın Rəsulu olduğunu etiraf etməli və qəlbnən ona etiqad etməlidir. ***«Möminlər yalnız Allaha iman gətirən,*** *(iman gətirdikdən)* ***sonra heç bir şəkk-şübhəyə düşməyənlərdir».*** *(əl-Hucurat 15).*

2. Muhəmmədən Rəsulullahı dili ilə söyləməli və etiraf etməlidir. ***«Bunlar*** *(bu söylənilənlər)* ***Allahın ayələridir ki, onları sənə doğru-düzgün bildiririk».*** *(əl-Bəqərə 252).*

3. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – tabe olmaq, buyurduqlarını yerinə yetirmək və qadağalarından çəkilmək. ***De ki: «Əgər Allahı sevirsinizsə mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızın üstünü örtüb sizi bağışlasın. Allah bağışlayan və mərhəmətlidir».*** *(Ali-İmran 31).* Allah öz sevgisini peyğəmbərə itaətə bağlamışdır. Allahın sevgisini qazanmaq istəyən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in sünnəsinə tabe olmalıdır.

4. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in verdiyi bütün xəbərləri təsdiq etmək. (Əmr, qadağalar, keçmişə və gələcəyə dair verdiyi qeybi xəbərləri). ***«Peyğəmbər sizə nə verirsə onu götürün, nəyi qadağan edirsə ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən Allahın cəzası çox şiddətlidir».*** *(əl-Həşr 7).*

5. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – i nəslindən, malından və cəmi insanlardan çox sevmək. ***«Peyğəmbər möminlərə onların özlərindən daha da yaxındır».*** *(əl-Əhzab 6).* Ənəs – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sizlərdən biriniz məni valideyinlərindən, övladlarından və cəmi insanlardan çox sevmədikcə imanı kamil olmaz»[274].

6. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in sözünü yaradıl-mışların sözlərindən üstün tutmaq və onun sünnəsinə əməl etmək. ***«Ey iman gətirənlər!*** *(sözləriniz və əməllərinizlə)* ***Allahın və Peyğəmbərinin qabağına keçməyin».*** *(əl-Hucurat 1).*

7. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə hörmət və ehtiram göstərmək. ***«Həqiqətən biz səni bir şahid, bir müjdəçi və qorxudan bir Peyğəmbər olaraq göndərdik. Allaha və onun Rəsuluna iman gətirsəniz, ona yardım etsəniz, onu böyük sayıb ehtiramını saxlayasınız və Allahı səhər-axşam təqdis edib şəninə təriflər deyəsiniz».*** *(əl-Fəth 8-9).*

[274] Buxari, Müslim.

NAMAZ VƏ ZƏKAT

Namaz – Salət **-** lüğəti mənası dua deməkdir. ***«Onlardan ötrü*** *(salət)* ***dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıq və aydınlıqdır».*** *(ət-Tövbə 103).* ***İstilahi Mənası*** **–** Təkbirlə başlayıb (Allahu Əkbər ilə) başlayıb Təslimlə (salam verməklə) qurtaran, xüsusi kəlmələrdən və hərəkətlərdən ibarət olan ibadətdir. Məkkədə hicrətdən əvvəl fərz edilmişdir. Hicrətdən sonra isə Mədinədə azan, cümə, bayram, səfər, istiska və s. namazlar əmr edildi.

Namaz Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in göstərdiyi şəkildə qılınmalıdır. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurur: «Mənim necə namaz qıldığımı görürsünüzsə, siz də elə namaz qılın»[275]. Namazı gözəl bir şəkildə qılan kimsə üçün namaz Qiyamət günü bir nur, bir dəlil və bir qurtuluş səbəbi olacaqdır. ***«Həqiqətən möminlər nicat tapmışlar! O, kəslər ki, namazlarında müti olub boyun əyərlər».*** *(əl-Muminun 1, 2).*

Zəkat **–** lüğəti mənası artmaq, çoxalmaq, təmizləmək, bərəkət olan bir kökdən gəlməkdədir. ***İstilahi Mənası*** - təyin olunmuş miqdara çatmış, məlum olan vaxda (ilin tamamında və ya məhsul yığımında) səkkiz sinif insanlar üçün ayrılan mal. Ona bu adın verilməsinin səbəbi zəkatın malın bərəkətini artırması, zəkat verən kimsəni malın şərindən qurtarması, simiclikdən uzaq olmasına görədir. ***«Onların mallarından sədəqə*** *(zəkat)* ***al. Bununla onları təmizləmiş, pak etmiş olarsan».*** *(ət-Tövbə 103).* Cabir - *radıyallahu anhu* – rəvayət edir ki, bir nəfər: «Ey Allahın Rəsulu! Əgər malın zəkatını versəm bu haqda fikrin nədir?» Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Malın zəkatını verən kimsədən o, malın şərri uzaqlaşır»[276]. Hicrətin ikinci ilində Mədinədə fərz edilmişdir. Bəzi İslam alimlər qeyd edirlər ki, zəkat hicrətdən əvvəl Məkkədə fərz edilmişdir. Lakin miqdarı təqdir edilməmişdir. Mədinədə isə bu miqdar təyin edilmişdir. Buna dəlil də Məkkədə nazil olan bəzi surələrdə zəkatın fərz olduğunu göstərən ayalər yer aldığını söyləyirlər. ***«Yığım günü haqqını*** *(zəkatını, sədəqəsini)* ***ödəyin».*** *(əl-Ənam 141).* ***«O, kəslər ki, onların mallarında müəyyən bir haqq*** *(pay)* ***vardır. Dilənən və məhrum olan kimsə üçün».*** *(əl-Məaric 24,25).*

Bu iki ibadət növləri bir-birindən ayrılmazdılar. Qurani Kərimdə bir yerdə çox zikr olunurlar. ***«Halbuki onlara əmr edilmişdi ki, Allaha dini yalnız ona məxsus edərək, digər bütün batil dinlərdən islama dönərək ibadət etsinlər, namaz qılıb, zəkat versinlər. Doğru-düzgün din budur».*** *(əl-Bəyyinə 5).* Bu ayədə Allaha ibadət etmənin, namaz qılıb zəkat

---

[275] Buxari.

[276] Təbərani, əl-Albani «ət-Tərğib» 743-cü hədis.

vermənin doğru din olması açıqlanmışdı. Allah doğru dini hər hansı bir əyrilik olmayan din adlandırmışdı. Allahın dinində əyrilik olmaz, o, mustəqimdir. ***«Bu şübhəsiz ki, mənim doğru yolumdur. Onu tutub gedin. Sizi Allahın yolundan sapdıracaq yollara uymayın. Allah sizə bunları tövsiyə edir ki, bəlkə pis əməllərdən əl çəkəsiniz».*** *(əl-Ənam 153).*

NAMAZI TƏRK EDƏNİN VƏ ZƏKAT VERMƏYƏNİN AQİBƏTİ

Namazı tərk edib, şəhvətlərə uyanların aqibəti Qiyamət günü çox pis olacaqdır. ***«Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Biz onları Ğəyy dərəsinə atacağıq».*** *(Məryəm 59).* ***«Sizi Cəhənnəmə salan nədir? Biz namaz qılanlardan deyildik».*** *(əl-Mudəssir 42-43).* Cabir - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Kişi (bir rəvayətdə: qul) ilə şirk və küfr arasında namazı tərk etməkdən başqa bir şey yoxdur. Qul onu buraxdığı zaman heç şübhəsiz ki, şirkə (bir rəvayətdə: küfrə) düşmüş olur»[277]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurur: «Küfr ilə iman arasında namazı buraxmaq vardır»[278]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bizim ilə onların arasında əhd namazdır. Kim onu tərk edərsə küfrə (şirkə) düşmüş olar»[279]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Kim namazı bilə-bilə tərk edərsə Allahın himayəsi (rəhməti) onun üzərindən uzaq olar»[280].

Allah peşiman və rüsvay olunacaq gündə, qızıl, gümüş zəkatını verməyənlərin aqibətini belə bəyan edir. ***«Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ! O, gün yığdıqları qızıl-gümüş Cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq. Bu sizin özünüz üçün yığıb saxladığınız mallardır. Yığdığınızın (əzabını, acısını) dadın! Deyiləcəkdir». (ət-Tövbə 34-35). «Allah tərəfindən bəxş olunmuş mal-dövləti sərf etməyə xəsislik edənlər heç də bunu özləri üçün xeyirli hesab etməsinlər. Xeyr, bu onlar üçün zərərlidir. Onların xəsislik etdikləri şey Qiyamət günü boyunlarına***

[277] Müslim 82, Əhməd 3/370,389, Əbu Davud 4678, Tirmizi 2618-2620, İbn Məcə 1078-1080, Muhəmməd b. Nəsr əl-Mərvəzi «Tazimu Kadris Salah» 886-892 və s. əl-Albani «Səhihul Cəmius Səğir» 2848-2849,5388, «Səhihut Tərğib» 1/298,560,565, «Mişkətul Məsabih» 569.
[278] Tirmizi 2618, əl-Albani 2849.
[279] Əhməd 5/346,355, Tirmizi 2621, Nəsai 1/231-232, İbn Məcə 1079, İbn Əbi Şeybə «əl-Musənnəf» 30387, İbn Hibban «əl-İhsan» 1454, Darakutni 1733, Beyhəqi «Sünnən Kubra» 3/366, «Şuabul İman» səh. 43 və s. Bureydə b. əl-Husayb əl-Əsləm - *radıyallahu anhu* – dan. əl-Albani «Səhihut Tərğib» 561, «Səhihul Cəmius Səğir» 4143, «Mişkətul Məsabih» 574.
[280] İbn Məcə. əl-Albani «İrvalul Ğəlil» 7/8991.

dolaşacaqdır. Göylərin və yerlərin mirası Allaha məxsusdur. Allah hər bir əməlinizdən xəbərdardır». (Ali-İmran 180). İbn Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bir qövm zəkat malını verməzlərsə onlara səmadan yağış yağması əngəllənər və əgər heyvanlar olmasa, onlara heç bir şəkildə yağış yağmazdı»[281]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – dünyasını dəyişdikdən sonra Əbu Bəkr – *radıyallahu anhu* – nun xəlifəliyi (dövründə) bir qrup ərəblər (zəkat verməkdən imtina edərək) küfrə girirlər. (Əbu Bəkr – *radıyallahu anhu* – onlarla vuruşmağa qərar verdikdə) Ömər – *radıyallahu anhu* –: «Sən o, insanlarla necə döyüşə bilərsən ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurmuşdu: «Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına (və Muhəmmədin Allahın Rəsulu olduğuna) şəhadət edincəyə qədər insanlarla vuruşmağa əmir olundum. Bunu etdilərmi, İslamın haqqı müstəsna olmaqla öz qanlarını və mallarını məndən qorumuş olarlar. Haqq-hesablarını çəkmək isə Allaha aiddir»[282] dedi. Əbu Bəkr: «Allaha and olsun ki, namaz və zəkatı bir-birindən ayıranlarla vuruşacağam. Çünki zəkat malın haqqıdır. Allaha and olsun ki, onlar Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – ödədikləri bir dəvə yulanını belə məndən əsirgəmiş olsalar bundan ötrü onlarla vuruşacağam» deyə cavab verdi. Ömər: «Vallahi başa düşdüm (gördüm) ki, tək Allah özü Əbu Bəkr – *radıyallahu anhu* – nun köksünü onlarla döyüşməyə açmışdır və başa düşdüm ki, doğru olan da elə budur»[283]. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah kimə mal verdiyi halda zəkatını ödəməyəcək olursa, Qiyamət günündə o, mal ona gözləri üzərində iki qara nöqtə olan bir əjdaha şəkilində göstərilir. Bu əjdaha qiyamət günü onun boynuna dolanır. Onu çənələri ilə yaxaladıqda: «Mən sənin malınam, mən sənin yığıb gizlətdiyin xəzinənəm». ***«Allah tərəfindən bəxş olunmuş mal-dövləti sərf etməyə xəsislik edənlər heç də bunu özləri üçün xeyirli hesab etməsinlər. Xeyr, bu onlar üçün zərərlidir. Onların xəsislik etdikləri şey Qiyamət günü boyunlarına dolaşacaqdır. Göylərin və yerlərin mirası Allaha məxsusdur. Allah hər bir əməlinizdən xəbərdardır». (Ali-İmran 180)»[284].*** Əhnəf b. Qeys - *radıyallahu anhu* – deyir ki, qureyşlilərdən bir topluluğun yanında oturmuşdum. Saçlar, paltarı və görnüşü çox da yaxşı olmayan biri gəldi.

---

[281] İmam Əhməd, əl-Albani «Səhih Silsilə» 106-cı hədis.
[282] Buxari 25, Müslim 22.
[283] Buxari 139, Müslim 20.
[284] Buxari «Zəkat» 3/110.

Onların başlarının üstündə dayanaraq: «Mal yığıb gizlədənləri Cəhənnəm atəşində qızdırılacaq daşlarla müjdələ. Daha sonra bu qızdırılanlar onların məmə uclarına qoyulacaq, sonra isə çiyinlərinin isə üst tərəfindən çıxacaqdır. Yenə də qızdırılan daşlar çiyinlərinin üst tərəfindən qoyularaq məmə uclarından çıxacaqdır…»[285].

ORUC

Oruc **–** lüğəti mənası tutmaq, saxlamaq deməkdir. ***İstilahi Mənası*** - dan yeri ağarandan gün batana qədər qadağan olmuş şeylərdən (yemək, içmək və cinsi əlaqəyə girməkdən) çəkinmək. Quran və Sünnə ilə orucun rukun olması icma ilə qəbul edilmişdir. ***«Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi».*** *(əl-Bəqərə 183).* ***«Oruc sizin üçün bilsəydiniz nə qədər xeyirlidir».*** *(əl-Bəqərə 184).* Hicrətin ikinci ilində Mədinədə fərz edilmişdir.

Hər bir həddi buluğa çatan ramazan ayında orucu mütləq tutması vacibdir. Oruc tutan insan çox sayda xeyir qazanır. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Kim Ramazan orucunu ixlasla və əcrini umaraq ibadət edərsə keçmiş günahları bağışlanar»[286]. əl-Albani – *rahmətullahi aleyhi* – deyir: «Əgər insanın günahı yoxdursa, oruc onun dərəcələrinin artmasına kömək edir»[287].

ORUC TUTMAYANLARIN AQİBƏTİ

Ramazan ayında Oruc tutmamaq böyük günahlardandır. Müsəlman bir kimsə özünü Allahın qəzəbindən və cəzasından özünü qorumalıdır. ***«Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlardır».*** *(ət-Təhrim 6).* Əbu Uməmə əl-Bəhili - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Yatdığım zaman yanıma iki nəfər gəldi. Məni qollarımdan tutub, çıxılması olduqca çətin olan bir dağın yanına gətirdilər və çıx dedilər». Mən bunu bacarmaram, dedikdə: «Biz onu sənin üçün asanlaşdırarıq, dedilər». Mən də dağa çıxdıqda dağın təpəsindən olduqca dəhşətli səslər eşitməyə başladım. «Bu səslər kimin səsləridir?» dedim: «Bunlar Cəhənnəmliklərin ulaşmalarıdır, dedilər». Sonra məni götürüb, topuqlarından asılmış bir topluluğun yanına gətirdilər. Ağızları parça-

---

[285] Buxari 2/112, Müslim şərhi 3/29.
[286] Buxari, Müslim.
[287] əl-Albani «Səhih Tərğib» 1/415.

parça olmuş, ağızlarından qan axırdı. Mən dedim: «Bunlar kimlərdir?» Bunlar oruc açmaları halal olmadan qabaq oruclarını yeyənlərdir[288].

HƏCC

Həcc – ibadət məqsədi ilə ilin müəyyən vaxtında Məkkəni ziyarət etmək. ***«Onun yolunda gücü çatan hər bir kəsin Həccə gedib o, evi ziyarət etməsi insanların Allah qarşısında borcudur».*** *(Ali-İmran 97).* Hicrətin doqquzuncu ilində fərz etmişdir. Hicrətin **8-**ci ili Məkkənin fəthindən sonra. Allah Bəytul-Haramı Həcc etməyi islamın rukunlarından olduğunu qeyd edir. Gücü catan, sağlam olan və imkanı olan hər bir kəsin Həcc etməsi vacibdir. Həcc ömürdə bir dəfə vacibdir. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ey insanlar! Allah üzərinizə Həcc etməyi fərz qıldı, artıq siz də Həcc edin». Bir nəfər: «Ey Allahın Rəsulu, hər il Həcc edək?». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – susdu. Həmin şəxs sualını bir neçə dəfə təkrarladı. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Əgər mən hə desəm, sizə hər il Həcc etmək vacib olardı. Sizin də buna gücünüz çatmazdı»[289]. İmkanı olanın Həcc etməsi vacibdir. İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Həcc etməyə tələsin. Çünki sizdən hər hansı bir kimsənin irəlidə başına nə gələcəyini bilməz»[290]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Kim Həcci gözəl bir şəkildə, günah və pis əməllərə yol vermədən edərsə evə anadan doğulmuş kimi qayıdar»[291]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Gözəl Həcc edənin mükafatı isə Cənnətdən başqa bir şey deyildir»[292]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Həcc ibadətinizi necə edəcəyinizi məndən öyrənin»[293].

HƏCC ZƏİFLƏRİN VƏ QADINLARIN CİHADIDIR

əl-Həsən b. Əli - *radıyallahu anhu* – rəvayət edir ki, bir nəfər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən soruşdu: «Mən həm qorxaq

[288] əl-Albani «Səhih Tərğib» 1/420, 995-ci hədis.
[289] Müslim.
[290] əl-Albani «Səhih Hədislər Silsiləsi» 2954.
[291] Buxari, Müslim.
[292] Buxari, Müslim.
[293] əl-Albani «Səhihul Cəmi» 4937.

həm də zəif bir kimsəyəm. «Peyğəmbər – *sallallahu aleyhi və sələm* – buyurdu: «O, halda silahsız cihada get. Həccə»[294]. Aişə - *radıyallahu anhə* – rəvayət edib deyir ki, Ey Allahın Rəsulu, cihad əməllərin ən fəzilətlisidir, bəs biz cihad etməyək. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Xeyir, sizin üçün ən fəzilətli cihad həccdir»[295]. Ömər - *radıyallahu anhu* – deyir ki, bəzi bölgələrə adam göndərib imkan sahibi olub lakin həcc etməyən kimsələri tapsınlar və onlara cizyə vursunlar deyə içimdən bir şey keçdi. Çünki beləlləri müsəlman deyildir, müsəlman deyildir»[296].

SON SÖZ

Bu ümmətin ilk nəslinin Tövhid əqidəsi budur. Bu əqidə olduqca saf və sağlam bir əqidədir. Müsəlmanların birlikdə olmaları və vahid bir din altında birləşmələri yalnız Tövhid əqidəsini gözəl bilmələri ilə mümkündür. Bizim islah olunmağımız, dəvətimizin yayılması üçün, dəvətimizi, əməlləimizi, əxlaqımızı Tövhid əqidəsi üzərində ucaltdıqca mümkün ola bilər. Tərtəmiz əqidə isə bu ümmətin Sələfi olan ilk nəslin inandığı əsaslardır. Əmirul Muminin Əli b. Əbu Talib - *radıyallahu anhu* – deyir: «Bu elmi kimdən öyrəndiyinizə fikir verin, çünki bu elm dinin özüdür»[297].

Allahdan Sələfi Salihin yolunu bizə göstərdiyi kimi bizi də onlardan etməsini, yaratdıqlarının ən xeyirlisi olan Muhəmməd – *sallallahu aleyhi və səlləm* – ilə birlikdə Qiyamət günü həşr etməsini, bizi hidayətə yönəltdikdən sonra qəlbimizi saptırmamasını, onun yolunda çalışan Muvahhid və saleh qullarından etməsini diləyirəm. O, hər şeyi eşidən və duaları qəbul edəndir. Amin!

Allahın salat və salamı onun Peyğəmbəri Muhəmməd - *sallallahu aleyhi və səlləm* - ə, onun ailə üzvlərinə, səhabələrinə və Qiyamətə qədər onun yolu ilə gedən saleh möminlərin üzərinə olsun.

BİTİRDİM: HİCRİ 1424-ci il 14 ŞƏVVAL.
MİLADI 2003-cı il 8 DEKABR.
HƏMD OLSUN ALƏMLƏRİN RƏBBİ OLAN ALLAHA (YUNUS 10).

---

[294] Təbərani, əl-Albani «Səhihul Cəmius Səğir» 6921.
[295] Buxari.
[296] Sünnən Beyhəqi.
[297] əl-Hətib «əl-Kifayə fi İlmir Rivayə» s 196.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

«Qurani Kərim» Ziya Bünyadov və Vasim Məmmədəliyevin tərcüməsi.
«Sələsətil Usul» Muhəmməd b. Saleh əl-Useyminin şərhi ilə.
«Kəşfi Şubuhət» Muhəmməd b. Saleh əl-Useyminin şərhi ilə.
«Fəthu Rabbil Bəriyyə bi Təlhisil Həməviyyə» Muhəmməd Saleh əl-Useyminin şərhi ilə.
«Aləmus Sunnətul Mənşura» Hafiz b. Əhməd əl-Həkəmi.
«əl-Vəciz Fi Əqidətul əs-Sələfi əs-Salihin» Abdullah b. AbdulHəmid əl-Əsəri.
«Kitabu Tövhid» Muhəmməd b. Suleyman ət-Təmimi.
«əl-Əqidətul Təhaviyyə» İbn Əbil İzz əl-Hənəfinin şərhi ilə.
«əl-Əqidətul Təhəviyyə əl-Muyəssər» Muhəmməd əl-Humeyyisin şərhi ilə.
«əl-Əqidətul Vasitiyyə» İbn Teymiyyə. Muhəmməd Xəlil Hərrasın şərhi ilə.
«Ərbəin ən-Nəvəviyyə» Nazim Muhəmməd Sultanın şərhi ilə.

MÜNDƏRİCAT

Qeyd üçün

Çapa imzalanmışdır: 09.07.2012
Formatı 60x184 1/16. Həcmi 6,5 ç.v.
Sifariş №260. Tiraj 200.

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 514 73 73,
mob. (050, 055) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru